## Günün xəbəri

**Aprelin 3-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə “Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi” adlı qətnamə yekdilliklə qəbul edilib. Beləliklə, “ASAN xidmət” dünya brendi oldu.**

## Doğma xalqına həsr olunmuş şərəfli ömür


Səhifə ⇨ 5

## Ərdoğan qarşıdakı seçkiləri “dönüş nöqtəsi” adlandırıb


Səhifə ⇨ 11


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 68 (30184) 4 aprel 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellini qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycan–İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini deyərək, bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı və cari ilin əvvəlindən indiyədək, İtaliyanın 3 nazirinin, həmçinin bu gün nazir müavininin ölkəmizə səfərinin əlaqələrimizin çox yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini qeyd edərək, əlaqələrimizin böyük hissəsinin energetika sahəsi ilə bağlı olduğunu dedi, hazırda Avropanın enerji təhlükəsizliyi istiqamətində atılan addımların Azərbaycan–İtaliya əməkdaşlığını daha da gücləndirdiyini vurğuladı.

Dövlətimizin başçısı, eyni zamanda, İtaliyanın Azərbaycanın birinci ticarət tərəfdaşı olduğunu xatırladaraq, ticarət dövriyyəsinin əsas hissəsinin Azərbaycanın neft-qaz ixracını təşkil etdiyini dedi və bu baxımdan əməkdaşlığımızın strukturunun genişləndirilməsi ilə bağlı əlavə addımların atılmasının zəruriliyini qeyd etdi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi haqqında məlumat verərək ölkəmizin İkinci Qarabağ müharibəsindən dərhal sonra Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı təkliflərlə çıxış etdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Edmondo Çiriellinin ölkəmizə səfərinin məhsuldar olacağına əminliyini bildirdi.

Azərbaycan–İtaliya əlaqələrinin minilliklərlə yaşı olduğunu qeyd edən Edmondo Çirielli münasibətlərimizin kökünün hətta antik dövrlərə gedib çatdığını vurğuladı. Azərbaycanın İtaliya üçün çox önəmli ölkə olduğunu deyən qonaq Cənubi Qafqazda sabitlik baxımından ölkəmizin strateji əhəmiyyətini qeyd etdi, Azərbaycanın regionda müstəqil və suveren siyasət apardığını vurğuladı. İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini siyasi əlaqələrlə yanaşı, iqtisadi sahədə əməkdaşlığın da xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi.

***AZƏRTAC***

## İranın nota məntiqində təzminat motivi: mediamız yazmalı deyilmiş?!

### *Tehranın Bakıdakı səfirliyi vəziyyəti gərginləşdirmək yolunu tutur*

**Adını çəkmirik, 2000-ci ilin əvvəllərində Bakıda bir qəzet var idi. Qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, pis mənada ad çıxarmağı bacardı. Hamı bilirdi ki, bu nəşrdə ən müxtəlif söyüşlərlə, küçə sözləri və jarqonlarla dolu hekayələr dərc edilir. Qəzetin rəhbərliyinə tutduqları işin yolverilməzliyi ilə bağlı nə qədər xəbərdarlıq edilsə də, onlar yazdıqlarını söz və ifadə azadlığı baxımından “əsaslandırır”, barələrindəki şikayətlərə məhəl qoymur, xəbərdarlıqlardan nəticə çıxarmırdılar. Günlərin birində nəşrin əməkdaşları özləri şikayət etməyə başladılar və bildirdilər ki, bir neçə nəfər redaksiyalarına gəlib onları təhqir edib, nalayiq sözlər işlədib. Gələnlər bildiriblər ki, hər dəfə qəzetdə söyüş yazıldıqda, eyni hərəkətlərini davam etdirəcəklər. Bundan sonra nəşri təsis edənlər onu bağlamaq məcburiyyətində qaldılar. Görünür, kimlərəsə rəva bildiklərini özlərinə layiq görmədilər.**

İranın Azərbaycandakı səfirliyinin bir neçə gün öncə ölkəmizin Xarici İşlər Nazirliyinə təqdim etdiyi nota, istər-istəməz, haqqında söz açdığımız hadisəni xatırlatdı. Nə qədər qəribə olsa da, notada Azərbaycanın media vasitələrinin İranı söydükləri bildirilirdi. Birincisi, ölkəmizin mediası, ümumiyyətlə, söyüş söymür, sadəcə, hadisə və proseslərə yanaşmada jurnalist yaradıcılığı baxımından qəbul edilən obrazlı ifadələrdən, sarkazmlardan bəhrələnir. İkincisi, jurnalistlərimiz İrana qarşı tutarlı faktları qələmə alırlar ki, həmin faktların mənbəyi əlahəzrət tarixdir. Üçüncüsü və ən əsası isə əgər ortada, söyüş və ya hansısa qəbuledilməz ritorika varsa, onu başlayan İran mediası olub, Azərbaycanın kütləvi informasiya vasitələri yox!

Bəli, böyük ölçüdə yanaşsaq, illərdir media vasitələrimiz, İrandakı həmkarlarının çıxardıqları oyunlara dözmək məcburiyyətində qalıblar. İkincilərin qələmə aldıqlarında, efirdən səsləndirdiklərində ölkəmizin ərazi bütövlüyü, nəinki şübhə altına alınıb, ümumən, Azərbaycan adlı dövlətin varlığı tarixi səhv kimi qiymətləndirilib, suveren torpaqlarımız İran olaraq təqdim olunub.

**(ardı 3-cü səhifədə)**

# Erməni terrorizminin xisləti, Makron və Paşinyanın qorxuları

Səhifə ⇨ 4

## İran Azərbaycanla bağlı xam xəyallardan əl çəkməlidir!


Səhifə ⇨ 6


Səhifə ⇨ 7

## Avropa Azərbaycanın “yaşıl enerji” potensialına böyük ümidlə baxır

## Talançılığın erməni siması


Səhifə ⇨ 8

## Hərbçilərinin dörddəbiri fərarilik edən dövlət hansı üzlə revanşdan danışır?


Səhifə ⇨ 3

# Bir güllə atılmadan azad edilən Kəlbəcər!

Səhifə ⇨ 8


Səhifə ⇨ 9

## İranın casuslarının ifşası – hansı təhlükələrdən qorunuruq?

## Ölkəmizdə köhnə avtomobillərin sonu çatır


Səhifə ⇨ 7


Səhifə ⇨ 10

## Aprel döyüşləri ordumuzun işğalçı qüvvələrə verdiyi dərs idi

## Ukrayna müharibəsi: savaşan təkcə ordular deyil…


Səhifə ⇨ 11

# Türkiyənin müdafiə sənayesi çox böyük uğurlar əldə edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib.**

Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdıraraq Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərilən qardaşlıq yardımına görə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidentinə minnətdarlığını bir daha ifadə etdi.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlara bir daha Allahdan rəhmət diləyərək, Azərbaycanın Türkiyəyə yardımını qardaşlıq borcu kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti bu yaxınlarda Ankarada Türkiyə Prezidenti ilə görüşünü və Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq, Türkiyə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi.

Prezident İlham Əliyev Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək, bu xüsusda "Baykar" şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğuladı və bu şirkətin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün digər sahələrdə olduğu kimi hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

**AZƏRTAC**

# İnam Kərimovun Ali Məhkəmənin hakimi təyin edilməsi Milli Məclisə tövsiyə olundu

**Dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn formatda növbəti iclası keçirildi. Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, gündəliyə İnam İmdad oğlu Kərimovun Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi ilə bağlı məsələ daxil edilib.**



Ə.Hüseynli İnam Kərimovun Azərbaycanda dövlət xidmətlərində şəffaflığın və vətəndaş məmnunluğunun təmin olunması sahəsində ciddi dönüş yaradan və dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət"in ilk rəhbəri olduğunu diqqətə çatdırdı.

Məsələ ilə bağlı çıxış edənlər İnam Kərimovun məsul dövlət postlarında çalışarkən öz vəzifəsinə məsuliyyətlə yanaşdığını, icra etdiyi vəzifələrin öhdəsindən layiqincə gəldiyini bildirdilər, onun Ali Məhkəmənin hakimi kimi öz təcrübəsindən, peşəkarlığından və elmi-nəzəri biliklərindən məhkəmə sistemində istifadə edəcəyinə əminliklərini vurğuladılar.

Sonra İnam Kərimovun Ali Məhkəmənin hakimi təyin edilməsi haqqında qərar layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olundu.

**"Xalq qəzeti"**

# İran səfiri Azərbaycan XİN-ə çağırıldı

**İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin Xarici İşlər Nazirliyinə ünvanlanmış qeyd edilən notası 3 aprel tarixində daxil olub.**



Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə İranın Azərbaycan Respublikasındakı Səfirliyinə istinadən, Azərbaycan mediasında İran əleyhinə yayımların və məqalələrin qarşısının alınması məqsədilə müvafiq tədbirlər görülməsi üçün İran tərəfindən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə nota təqdim edilməsini şərh edərkən deyib.

Qeyd edilən məsələ ilə əlaqədar eyni gündə İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb.

İran tərəfinin notasında Azərbaycan mediası ilə bağlı qeyd olunanların obyektivliyi əks etdirmədiyi vurğulanaraq, İran tərəfinə cavab notası, eləcə də İran mediasında Azərbaycan əleyhinə yayılmış bir sıra məqalələrin siyahısı təqdim olunub.

İranın ölkəmizdəki səfirinə bildirilib ki, İran mediasında mütəmadi olaraq Azərbaycan Respublikası, onun dövlət və hökumət rəsmiləri haqqında yayılan təhqir dolu, yalan, böhtan və qərəzli məlumatlar, eləcə də İranın tanınmış ictimai-siyasi xadimlərinin həqiqətdən uzaq bəyanat və çıxışları ölkələrimiz arasındakı münasibətlərə xələl gətirir və anlaşılmazlıqları daha da dərinləşdirir.

Bununla yanaşı, ölkələrimiz arasında münasibətlər dövründə yaranan anlaşılmazlıqların daim İran tərəfinin birtərəfli davranış və addımlarından qaynaqlandığı, Azərbaycan tərəfinin ardıcıl və xoş niyyətli addımlarına İran tərəfindən lazımi qarşılıq verilmədiyi qeyd olunub.

Görüş zamanı İran mediasında Azərbaycan əleyhinə yalan və qərəzli məlumatların yayılmasının qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər görülməsinin zəruriliyi vurğulanıb.

# "ASAN xidmət" dünya brendi oldu

**Aprelin 3-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, qətnaməyə 65 dövlət, o cümlədən ABŞ, Çin, Yaponiya, Avropa İttifaqı üzv dövlətləri, Avstraliya, Kanada, eləcə də Afrika, Asiya və Amerika qitələrini təmsil edən ölkələr həmmüəllif qismində qoşulub.

Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən olan və Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasına əsaslanan "dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması" prinsipinin BMT sistemi daxilində təşviq edilməsidir.

Qəbul edilmiş qətnamə səmərəli dövlət xidmətlərinin bütün insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinin həyata keçirilməsində əhəmiyyətini vurğulayır. Rəqəmsal texnologiyaların korrupsiyanın qarşısının alınması və onunla mübarizədə oynadığı mühüm rolu ön plana çıxaran qətnamə dövlət xidmətləri sahəsində uğurlu modellər təsis etmiş BMT üzv ölkələrini öz təcrübələrini digərləri ilə bölüşməyə dəvət edir.

Qətnamə 2015-ci ildə "ASAN xidmət"in təltif edildiyi "BMT-nin Dövlət Xidmətləri Mükafatı"nı dövlət xidmətlərinin göstərilməsi sahəsində dünyanın ən nüfuzlu mükafatı olaraq təsbit edir və BMT qurumlarını və digər beynəlxalq təşkilatları müvafiq sahədə mövcud olan uğurlu təcrübələri təşviq etməyə və mükafatlandırmağa davam etməyə çağırır.

Qətnamənin yekununda BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında dövlət xidmətlərinin oynadığı rol barədə hesabatın hazırlanması tapşırığı verilir.

Bu qətnamənin yekdilliklə qəbul edilməsi və ona çoxlu sayda dövlətin həmmüəllif kimi qoşulması, "ASAN xidmət"in təsis olunması və genişləndirilməsi də daxil olmaqla, ölkəmizdə insan hüquqlarının müdafiəsi və korrupsiyaya qarşı mübarizə istiqamətində islahatlara beynəlxalq ictimaiyyət tərəfindən göstərilən dəstəyin bariz göstəricisidir.

**"Xalq qəzeti"**

**Dünən Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli arasında görüş keçirilib.**

# Azərbaycan İtaliyanın strateji tərəfdaşıdır



Görüşdə Azərbaycan və İtaliya arasında ikitərəfli çərçivədə mövcud əməkdaşlıqdan məmnunluq ifadə olunub və iki ölkə arasında siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, energetika, humanitar, təhsil və digər sahələrdə çoxölçülü strateji tərəfdaşlıq əlaqələrinin perspektivlərindən bəhs olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın 30 il ərzində ərazilərimizin işğalı nəticəsində törətdiyi vandallıqlar, 2020-ci il müharibəsindən sonra Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesi, eləcə də iki ölkə arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və quruculuq işləri barədə italyan nazir müavinini məlumatlandırıb.

Nazir müavini Edmondo Çirielli Azərbaycanın İtaliya üçün strateji tərəfdaş olduğunu qeyd edərək, münaqişənin başa çatması ilə bütün bölgədə yeni dövrün başladığını və daha əlverişli imkanların yarandığını qeyd edib. O, həmçinin iki ölkə arasında münasibətlərin hərtərəfli genişləndirilməsi üçün yeni imkanlar və əməkdaşlığın inkişaf perspektivləri barədə danışıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər beynəlxalq və regional məsələlər müzakirə olunub.

**Qəzənfər QASIMOV, "Xalq qəzeti"**

# Sahibə Qafarova Fazil Mustafanı ziyarət edib

**Milli Məclisin Sədri Sahibə Qafarova martın 28-də yaşadığı evin qarşısında terror aktına məruz qalmış deputat Fazil Mustafanı müalicə olunduğu xəstəxanada ziyarət edib, onun ailə üzvləri ilə görüşüb. Fazil Mustafanın vəziyyəti və müalicəsinin gedişi ilə maraqlanan Sahibə xanıma məlumat verilib ki, onun tezliklə sağalması üçün tibb personalı tərəfindən bütün lazımi tədbirlər görülür.**

Parlamentin Sədri qeyd edib ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq tapşırıqlarını verib və məsələ əlaqədar dövlət qurumlarının diqqət mərkəzindədir. S.Qafarova, həmçinin Prezident İlham Əliyevin Milli Məclisin deputatına qarşı bu xain terror aktını törətmiş şəxsin və ya şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması istiqamətində təxirəsalınmaz əməliyyat-istintaq tədbirlərinin aparılması ilə bağlı hüquq-mühafizə orqanlarına göstəriş verdiyini xatırladıb. Bir daha diqqətə çatdırıb ki, bu terroru törədənlər öz məqsədlərinə nail ola bilməyəcəklər.

Fazil Mustafa göstərilən diqqət və dəstəyə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib. O, bundan sonra da dövlətçilik mövqeyinə sadiq qalacağını, bu terror aktının onu yolundan geri çəkindirməyəcəyini söyləyib.

**Ə.BƏDƏLOV, "Xalq qəzeti"**

# Cinayətlə bağlı 4 nəfər tutulub...

**Milli Məclisin deputatı Fazil Mustafaya qarşı cinayətlə bağlı 4 nəfər tutulub, Bakının bir neçə istiqamətində polis postları quraşdırılıb.**



Bu barədə mediaya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətinin şöbə rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev bildirib. O deyib ki, Qaradağ rayonunda polisin atəş açması ilə bağlı məlumatlar yayılıb. Bakının bir neçə istiqamətində polis postları quraşdırılması və nəzarət yoxlama tədbirləri keçirilir.

Elşad Hacıyevin sözlərinə görə, deputat Fazil Mustafaya qarşı cinayət hadisəsi ilə əlaqədər Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti və Baş Prokurorluğun birgə keçirdiyi əməliyyat-axtarış, əməliyyat-istintaq tədbirləri çərçivəsində 4 nəfər müəyyən olunaraq saxlanılıb.

Əlavə məlumat veriləcək.

# ...Terror işində şübhəli adlar

**Millət vəkili Fazil Mustafaya qarşı terror işində yeni detallar ortaya çıxıb.**



Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılanlar arasında İranda gizlənərək deputat Fazil Mustafaya onu terrorla öldürəcəkləri barədə təhdid ünvanlamış Hüseynov Hüseyn Ramiz oğlunun qardaşı Hüseynov Həsən Ramiz oğlu da var.

Belə ki, Həsən Hüseynov bir müddət əvvəl həbs edilmiş Tural Məmmədova İran xüsusi xidmət orqanlarının tapşırıqlarının icrası müqabilində pul vəsaitlərinin göndərilməsini təşkil edib (Tural Məmmədov xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycanda güdmə, tapşırılan ünvanların gizlin videoçəkilişlərini apardığına görə, hava məkanında obyektlərin hərəkət trayektoriyasını müşahidə edən İrandan göndərilmiş xüsusi qurğu ilə həbs edilib).

Məlum olub ki, Həsən Hüseynov terrorçuluğa cəhd və dövlətə xəyanət əməllərinə görə İranda gizlənən İsgəndər Hüseynovun qardaşı oğludur.

# İranın nota məntiqində təzminat motivi: mediamız yazmalı deyilmiş?!

(əvvəli 1-ci səhifədə)

İslam respublikasının mediası ölkənin müxtəlif beyin mərkəzlərinin, millətçi qruplarının tərtib etdikləri saxta xəritələri tirajlayaraq, Azərbaycana münasibətdə həqarətli davranıblar, bu, azmış kimi, İranın "Səhər" telekanalında illərdir hədyanlar səsləndiriblər. Belə hallarda həm Tehranın ölkəmizdəki səfirliyi, həm də İslam respublikasının Xarici İşlər Nazirliyi səssiz qalıb. Yaxşı halda, növbəti açıqlama ilə kifayətlənib və bildiriblər ki, rəsmi Tehran söz azadlığına müdaxilə etmir, hansısa qəzetin gündəmə gətirdiyi İran dövlətinin rəsmi mövqeyi deyil. Qısası, siyasi oyunbazlıq ediblər.

Azərbaycan mediası dövlətimizin marağından çıxış edərək, uzun müddət İranın kütləvi informasiya vasitələrinin apardıqları anti-Azərbaycan ritorikasına, demək olar ki, cavab verməyib. İllərdir, ümumən, cəmiyyət olaraq gözləmişik ki, Cənub qonşumuz, nəhayət, özünün məkrli niyyətlərindən daşınacaqdır. Xüsusən, Azərbaycan dövləti böyük səbrlə gözləmə mövqeyində dayanıb. Heç vaxt körpüləri yandırmaq istəməyib, mehriban qonuşuluq siyasətinə sadiq qaldığını göstərib.

Rəsmi Bakı illərdir məhz İrana görə Azərbaycan xalqına kifayət qədər isti münasibət bəsləyən dost İsrail dövləti ilə münasibətlərini tamlaşdırmayıb – Təl-Əvivdə ölkəmizin səfirliyini açmayıb. Bunu Tehrana jest kimi edib. Məsələ heç də çəkinməkdə və ya qorxmaqda olmayıb. Sadəcə, dövlətimiz belə qənaətə gəlib ki, hörmət əlaməti olaraq, İran üçün prinsipial əhəmiyyət daşıyan məsələni qabartmasın. Azərbaycan mediası da heç vaxt bundan yazmayıb. Üstəlik, İsrail dövləti durumu anlayışla qarşılayıb. Lakin, görünür, İran tərəfi jestimizi məcburiyyət kimi qiymətləndirib və nəticə çıxarmayıb.

Əlbəttə, səbrin də həddi var. Səbr o zaman daşdı ki, birincisi, İran Azərbaycan dövləti və xalqı üçün prinsipial əhəmiyyət daşıyan məsələni heçə saydı – 44 günlük müharibədə Tehran ölkəmizin haqq işini dəstəkləmədi. Yalnız sonda ikibaşlı məna daşıyan bəyanatla kifayətləndi. Guya, ərazi bütövlüyümüzü dəstəkləyirlərmiş. Halbuki, hamımıza yaxşı məlumdur ki, dəstəkləmək İranın etdiyi kimi olmurdu. Fəqət, buna da dözdük. Düşündük ki, necə deyərlər, İransayağı dəstəkləmək belə olur. Hələ biz müharibə dövründə Tehranın Ermənistana göstərdiyi hərbi yardımları bir kənara qoyuruq...

Ardınca Ermənistanın sülh prosesindən yayındığını, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəaları ilə üzərinə götürdüyü öhdəliklərə əməl etmədiyini gördük. İrəvan Azərbaycanın digər bölgələrini Naxçıvanla birləşdirən yolun açılmasına maneçilik törətdi. Biz o yola Zəngəzur dəhlizi deyirik. Necə adlandırırıq, öz işimizdir. Əsas olan odur ki, əvvəla, Naxçıvanın blokadası aradan qaldırılır. Digər tərəfdən, böyük iqtisadi layihə reallaşır. Bu, ölkəmizin və xalqımızın haqqıdır. 30 ilə yaxın müddətdə məhrumiyyətlərə, çətinliklərə dözməyimizin mükafatıdır, itirdiklərimizin təzminatıdır bu layihə.

Bu, elə bir layihədir ki, ondan həm İranın, həm də Ermənistanın bəhrələnməsi mümkündür və məsələ barədə ölkəmizin rəsmiləri tərəfindən dəfələrlə söz açılıb. Ancaq İran nə etdi? Zəngəzur dəhlizini Ermənistanın ərazi bütövlüyünün pozulması kimi qiymətləndirdi və bildirdi ki, belə bir halın yaşanması onun üçün "qırmızı xətt"dir. Belə olan halda, Azərbaycan mediası İrana qarşı necə isti münasibət sərgiləsin? 30 ilə yaxın müddətdə işğal altındakı torpaqlarımızdakı məscidləri xarabazara çevirən, orada donuz saxlayan İslam düşməni – Ermənistanın toxunulmazlığı Tehran üçün niyə "qırmızı xətt" olsun ki?!

Əlbəttə, burada çeşidli səbəblər var. Fars-erməni türk düşmənçiliyi zəminindəki ideoloji motivlərdən tutmuş, İranın Ermənistan ərazisindən narkotrafik kimi istifadəsinə dair bir çox məqamlardan söz açmaq mümkündür. Hər halda bütün bunlar, indiki məqamda, İrana haqq vermir ki, məsələni konkret şəkildə qoysun. Çünki hazırda Ermənistanın hansısa formada dəstəklənməsi Tehranın da maraqlı olduğu Cənubi Qafqaz regionunda sülh və əmin-amanlıq üçün ciddi təhdiddir. İslam respublikasının rəhbərliyi kimi, mediası da bu təhdidi görmürsə, Bakıya münasibətdə təhqirlər, Azərbaycan rəhbərliyi əleyhinə yarıtmaz ifadələr, alçaldıcı karikaturalar yayımlayırsa, bunun qarşılığı olmamalıdır? "Bakı rejimi", "Bakı hakimiyyəti" kimi ifadələrlə Azərbaycan dövlətinin İrandan ayrılma, İsrail tərəfindən dəstəklənən separatçı ünsür kimi qiymətləndirilməsinin cavabı verilməməlidir?! Təbii ki, verilməlidir, özü də artıqlaması ilə.



Azərbaycan mediası "fars şovinizmi", "molla rejimi", "klerikal-teokratik İran hakimiyyəti" kimi ifadələri gündəmə gətirməməlidir? Deməməli və yazmamalıdır ki, İranda 40 milyona yaxın Azərbaycan türkünün hüquqları pozulur? Bəlkə, İran türklərinin ana dilində təhsil almaları mümkündür? Bəlkə onların ana dilində çıxan qəzet və ya jurnalları var? Axı, 40 milyonluq say adi məsələ deyil. 40 milyonun dilinə, adət-ənənəsinə, varlığına təcavüz bəşəri cinayətdir. Bunun məsuliyyətini daşıyan fars molla rejimi deyil, bəs kimdir? Azərbaycan mediasının yazdıqları bunlardır və baxışlarında tam haqlıdır.

Ölkəmizin KİV-i, eyni zamanda, yazır ki, rəsmi Tehran bu il yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə edilmiş silahlı hücuma həssas yanaşmayaraq, hadisənin istintaqını qeyri-obyektiv aparır, terroru, terrorçunu dəstəkləyir. O zaman, buyursun, İran hakimiyyəti bunun əksini sübuta yetirsin! Sübuta yetirmir, heç olmasa, üzrxahlıq etsin. Hər halda Bakıdakı İran səfirliyinə hücum edilməyib, silahlı basqına məruz qalan Azərbaycanın Tehrandakı diplomatik missiyasıdır. Səfirliyi qorumaq isə İran dövlətinin məsuliyyətinə daxildir və məsələyə həssas yanaşılması, heç olmasa, üzrxahlıq tələb edirdi. Ancaq bunu da görmədik. Əvəzində gördük ki, Tehran rejimi medianın əli ilə terrorçunu kultlaşdırır, cinayəti məişət müstəvisinə daşımağa cəhd göstərir, ən sonda isə məlum oldu ki, hadisəni törədən şəxsin, guya, psixoloji problemləri var imiş...

Azərbaycan media vasitələrinin fəaliyyəti barədə etiraz edən İranın ölkəmizdəki səfirliyi onunla əməkdaşlıqdan boyun qaçırır. Məsələn, ötən il noyabrın 24-də 14 İran vətəndaşı qeyri-qanuni yolla Azərbaycan ərazisinə keçmiş və Qarabağ iqtisadi rayonunda ermənilərin yaşadığı bölgəyə daxil olmuşdu. Jurnalistlərimiz məsələyə dair İran səfirliyindən hər hansı açıqlama ala bilməmişdilər. İş o yerə çatmışdı ki, Azərbaycan Mətbuat Şurası diplomatik missiyaya müraciət ünvanlayaraq, onu yerli medianı məlumatlandırmağa çağırmış və bildirmişdi ki, ölkəmiz üçün həssas sayılacaq məsələ ilə bağlı informasiyasızlıq əlavə söz-söhbətlərə, dedi-qodulara yol açır. Lakin səfirlik yenə, heç bir reaksiya verməmişdi, KİV-imizlə əməkdaşlığa əhəmiyyətsiz yanaşmışdı. İndi isə notada bildirir ki, Azərbaycan mediasının hərəkətləri ikitərəfli münasibətlərin gələcəyinə zərər vurur. Halbuki, zərəri ilk düşünməli olan İran səfirliyi və onun timsalında İran dövlətidir.

İran mediasında, sosial media seqmentində, Azərbaycandakı ayrı-ayrı şəxslərə, o cümlədən, jurnalistlərə ünvanlanmış hədə-qorxu motivləri də yer almaqdadır. Bir müddət əvvəl "Xalq qəzeti"nin baş redaktoru İranın dini təmayüllü "Hüseyniyyun" təşkilatı tərəfindən aşkar şəkildə hədələnmişdi.

İran hakimiyyəti, həqiqətən, iki ölkə arasında gələcək münasibətlərin taleyini düşünürsə, ilk növbədə, öz media vasitələrindəki anti-Azərbaycan təmayüllərini aradan qaldırmalı, ayrı-ayrı KİV-lərdə yayılmış təhqiramiz düşüncələri, guya, söz azadlığının təzahürü kimi qiymətləndirib susmamalı, real tədbirlər görməlidir. Ancaq nə tədbirlər var, nə də onların izi-tozu, nişanəsi. Belə olan halda, İranın Azərbaycandakı səfirliyinin notasındakı məzmun anlaşılan deyil və səmimi xarakter daşımır.

Ümumən, İran Azərbaycanla münasibətlərdəki soyuqluğu aradan qaldırmaq istəyirsə, nota məntiqindən uzaq dayanmalı, xoş niyyət ifadə edən çağırış səsləndirməli idi. Təəssüf ki, bunu da görmürük, eyni zamanda, sənəddə onsuz da gərgin olan münasibətlərin bir qədər də gərginləşdirilməsi mahiyyəti daşıyan mənasız təzminat ritorikasına üstünlük verildiyinin şahidi oluruq. Təsəvvür edin, İran dövləti hesab edir ki, Azərbaycan dövləti ölkə mediasının Tehran əleyhinə yazdıqlarına görə təzminat verməlidir. Yəni, məsələ bu dərəcədə absurd qoyulur. Belə yanaşma, əlbəttə, səmimiyyətdən tam uzaqdır.

Bəli, İran dövləti, elə onun mediası da, hər şeydən öncə, Azərbaycana münasibətdə səmimi yanaşmağı öyrənməlidir. Ortada nota məntiqi varsa, bu yanaşmanın formalaşacağına dair hər hansı pozitiv əlamət də istisnadır.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Hər addımın təxribat, hər sözün yalandır, İrəvan!

**Bir ölkə ki, yalnız dotasiyaların hesabına yaşaya, müxtəlif dövlətlərdən və beynəlxalq maliyyə təşkilatlarından pul dilənə, onları "sağmaqla" məşğul ola, ən başlıcası, yalanı rəsmi siyasətinə çevirə, hansı məntiqlə onu müstəqil adlandırmaq mümkündür?**

Nə üstündə yeridiyi torpağı, nə əmlakı, nə də sərhədi və gömrüyü öz ixtiyarında olmayan hayların Cənubi Qafqazda kövrək sabitliyi hər vasitə ilə pozmaq, vəziyyəti maksimum gərginləşdirmək üçün cəhdlər göstərməsi göz önündədir. İrəvanın son vaxtlar Bakını Qarabağ ermənilərini "blokada"ya almaqda, hətta "etnik təmizləmə"yə hazırlaşmaqda, ərazilərini ələ keçirməkdə ittiham etməsi aqoniya halındakı xəstənin sayıqlamalarını xatırladır. İstər daxili, istərsə də xarici siyasəti ilə bağlı qərarları kənardakı himayədarlarının məsləhətləri ilə qəbul edən Hayastanın baş naziri Paşinyan iqtidarının yalan və riyakarlıqdan hörülmüş maskasını elə öz erməniləri yırtdılar.




## "Vəziyyət xeyli yaxşılaşıb"mı?

Paşinyan iqtidarı hazırda dezinformasiya siyasətini təkcə xaricə deyil, eləcə də daxili auditoriyaya körükləməkdədir. Aprelin 1-də – Ermənistandan Xankəndiyə aparan yeni yolun açılması ərəfəsində Azərbaycan Ordusu 10 noyabr Bəyanatının 6-cı bəndinə uyğun olaraq, bu istiqamətdə bir sıra əraziləri tutdu, öz postlarını yaratdı, şərti sərhəd zolağını nəzarət altına aldı. Bunun ardınca, yeni aprelin 1-də şərti sərhəddə iki ölkənin rəmiləri arasında görüş olub. İrəvanın rəsmi mediası həmin görüş barədə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) bu məzmunda xəbərini yayıb: "Tex-Kornidzor sahəsində Ermənistan və Azərbaycan nümayəndələrinin iştirakı ilə görüş olub. Görüşdə sərhədin dəqiqləşdirilməsi ilə bağlı işlər aparılıb, nəticədə bu sahədə vəziyyət xeyli yaxşılaşıb. Hazırda işlər davam edir, nəticələr barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

Hayların "Hraparak" qəzeti isə yazıb ki, sərhəddəki danışıqlarda Rusiya sülhməramlılarının nümayəndələri də iştirak edib. Ermənistan tərəfdən danışıqları MTX-nin direktoru Armen Abazyan aparıb. Daha sonra nəşr qeyd edir ki, Abazyan azərbaycanlıları tutduqları mövqelərdən "Dostluq abidəsi"nə qədər geri çəkilməyə razı salmağa çalışıb. Amma danışıqlar nəticə verməyib və qarşı tərəf tutduğu mövqelərdə qalıb.

Ermənistan daxilində Azərbaycanın sərhəd zolağında özünün sərhəd postunu qurması ciddi narahatlığa və etirazlara səbəb olub. Faktı öz gözlərilə görmək üçün deputat Qeqam Manukyan iki gün əvvəl Tex kəndinə gəlib. Onun açıqlaması Ermənistan MTX-nın məlumatının yalan olduğunu üzə çıxarıb: "Ortada heç bir sənəd yoxdur. Razılaşmanın yazılı, yoxsa şifahi formada olduğu da bilinmir. Sərhədin demarkasiyası və delimitasiyası üzrə Ermənistan–Azərbaycan işçi komissiyasının işindən də xəbər yoxdur".

Hayastanın keçmiş müdafiə naziri, Xocalı qatili Seyran Ohanyan da yeni yolun üstündə, iki ölkənin sərhədində Azərbaycanın post qurmasına münasibət bildirib. O, bu yolla azərbaycanlıların, guya, Qarabağ ermənilərinə təzyiqləri daha da artıracağını "ehtimal edib".

## Sülhün tək yolu: Bakı ilə razılaşmaq

Qaradan artıq rəng yoxdur, çünki bütün rəng çalarları onun içində cəmləşib. Bunu indiki məqamda sülh danışıqlarından hər vəchlə yayınan, iki ölkə arasında delimitasiya və demarkasiyasını gözləyən şərti sərhəddəki son durumu bəhanə gətirən, Zəngəzur dəhlizinin açılmasını unutdurmağa çalışan, müxtəlif təxribatlara baş vurmağa başlayan İrəvana bir daha xatırlamağımız gərəkdir. Üstəlik, BCM-nin Roma Statutunu qəbul etməklə, KTMT-nin üzvü kimi bu quruma qarşı açıq dağıdıcılıq fəaliyyəti göstərməklə və Rusiya hərbçilərini ölkədən sıxışdırıb çıxarmağa çalışmaqla İrəvan Moskva ilə açıq qarşıdurmaya gedir. Bunlar isə "siyasi daltonikliy"in əlamətləridir. Göründüyü kimi, əslində, Paşinyanın məqsədi sülh sazişinin hazırlanması prosesində iştirakdan imtina etməklə bu müstəvidə Rusiyanın nüfuzuna zərbə vurmaqdır. Bu sifarişin haradan verildiyi Bakıya da məlumdur, Moskvaya da. Bununla da hayların başbilənləri, faktiki olaraq, bizimlə sülh və əmin-amanlıq içində qonşu kimi yaşamaq planlarının olmadığını təsdiqləmişlər. Onlar Bakı ilə razılığa gəlmək, düşdükləri bataqlıqdan çıxmaq, dövlətin və millətin gələcəyini düşünmək əvəzinə, başlarından böyük iddialar səsləndirməklə məşğuldurlar. Hər addımında təxribatlar törətməkdən çəkinməyən, yalanı əlində bayraq edən Ermənistan hakimiyyəti Bakının ona tərəf atdığı xoşməramlı addımlarından da sui-istifadə etməyə çalışır. Məgər özünəqəsdin başqa təzahürləri də olur?

## Fərarilər yeni müharibəyəmi hazırlaşırlar?

Düşdükləri məğlub durumla heç cür barışmaq istəməyən Ermənistandakı revanşist qüvvələr yenidən müharibə ritorikasını dövriyyəyə buraxıblar. Hətta, bu məqsədlə "preventiv" tədbirlər görməyə girişiblər. İrəvandakı başbilənlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonundakı hay separatçılarını dünənədək silah-sursatla təmin edirdilər. Ermənistan ordusunun Qarabağı tərk etməkdən boyun qaçıran tör-töküntüləri isə indi blindajlar qurmaqla, səngərlər qazmaqla "ciddi müdafiəyə" hazırlaşırlar. Bu məlumatlar Ermənistan mediasında səxavətlə tirajlanır. "Son dövrlərdə İrəvan tərəfindən hərbi-siyasi təxribatların intensivləşməsinin Aİ-nin Ermənistanda missiyasının mövcudluğu dövrünə təsadüf etməsi ciddi narahatlıq doğurur". Bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov dünən Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq Tərəfdaşlığı məsələləri üzrə xüsusi nümayəndəsi Dirk Şubellə görüşdə deyib. Nəticəsinin əvvəlcədən bəlli olduğu yeni savaşın bu dəfə onları tamamilə məhvə sürükləyəcəyini bilə-bilə müharibə çağırışları edən daşnaklar, görəsən, üstümüzə hansı orduları ilə gələcəklər? İkinci Qarabağ müharibəsində on bir mindən çox əsgəri fərarlik etmiş, başıpozuq hərbi quldur dəstələri iləmi? Döyüş meydanından qaçan və ya ağ bayraq qaldıran 11 min fərari barədə Paşinyanın arvadı Anna Akopyan erməni medasına açıqlamasında deyib. Həmin Anna ki, üç il bundan əvvəl Şuşada əri ilə yallı gedirdi, avtomatın lüləsini şəstlə "düşmən türklərə" tuşlamışdı. Bəs, axırı nə oldu?! Fikrimizcə, bu ritorik sualın cavabı kimi rusların məşhur aforizminin improvizə etdiyimiz variantı tam yerinə düşür: qalib əvvəldə gülən yox, ən axırda sevinən olur!

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

# Azərbaycanın media təmsilçiləri Daşkənddə

**Azərbaycan Audiovizual Şurasının sədri İsmət Səttarovun rəhbərliyi ilə bir sıra dövlət qurumları rəhbərlərinin daxil olduğu nümayəndə heyəti Özbəkistanda səfərdədir. Səfərin ilk günü nümayəndə heyəti Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) olub.**

AMM-in direktoru Samir Abbasov Mədəniyyət Mərkəzinin fəaliyyəti ilə bağlı qonaqlara geniş məlumat verib, mərkəzin Azərbaycan–Özbəkistan dostluq və mədəni əlaqələrinin inkişafında mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Qonaqlara bildirilib ki, Mədəniyyət Mərkəzində Azərbaycan–Özbəkistan Dostluq Muzeyi, Heydər Əliyev Muzeyi, Azərbaycan Dövlətçilik Muzeyi və Xalça Muzeyi fəaliyyət göstərir.

S.Abbasov bildirib ki, Azərbaycan və Özbəkistan xalqlarının ortaq dəyərlərini, ortaq tarixi köklərini, mədəniyyətlərini əks etdirən Dostluq Muzeyi ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə açılıb və bu muzeydə Azərbaycan–Özbəkistan tarixi əlaqələrini əks etdirən çoxlu eksponat, maket, suvenir, sənətkarlıq nümunələri və s. nümayiş etdirilir.

Heydər Əliyev Muzeyini ziyarət edən qonaqlar burada ümummilli lider Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən fotolarla, nəşrlərə baxıblar.

Azərbaycan Dövlətçilik Muzeyində qonaqlar ölkəmizin tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənətini, xalq sənətkarlığını, musiqisini, adət-ənənələrini və tarixi abidələrini əks etdirən guşələr, eksponat və maketlərlə tanış olublar. Xalça muzeyində qonaqlara Azərbaycan xalçaları haqqında məlumat verilib.

**Qulu KƏNGƏRLİ,**
**Daşkənd**

# Erməni terrorizminin xisləti, Makron və Paşinyanın qorxuları

**Politoloq Orxan Amaşovun fransız tarixçisi, İnkişaf və Diplomatiya İnistitutunun tədqiqatçısı, ADA Universitetinin professoru Maksim Qauinlə "Caliber.Az" saytında dərc edilmiş müsahibəsinin geniş ictimaiyyət üçün maraq doğuracağını nəzərə alıb, söhbətin tam mətnini oxucularımıza təqdim edirik.**

**Orxan: – Cənab Qauin, çox sağ olun ki, dəvətimizi qəbul etdiniz. Söhbətimizə sizin erməni terrorizminə həsr etdiyiniz və 2020-ci ildə nəşr olunan tədqiqat işinizdən başlamaq istərdim. Biz anlayırıq ki, kontekstə qiymət vermədən bu konsepsiyanı dərk etmək mümkün deyil. 2023-cü ildə erməni terrorizmi necədir? Onun başlıca təzahüri nədədir?**

**Qauin:** – Əvvəla, erməni terrorizmi XXI əsrdə aydın görünməkdədir. Bəli, biz onun haqqında az danışırıq, lakin o, erməni millətçiliyi kimi çox qədimdir və kökləri XIX əsrə gedib çıxır. Osmanlı imperiyasına qarşı bu terorizm onilliklərlə davam edib. Erməni millətçiləri 1920–1922-ci illərdə də keçmiş Osmanlı imperiyasına və Azərbaycan hökumətlərinə qarşı çoxlu əməliyyatlar keçiriblər. Türk dövlətinə qarşı erməni terroru həmçinin sovet dövründə də aparılıb. Bu, on illər ərzində – 1970-1980-ci illərə qədər davam edib və həmin dövrdə başlıca hədəf Türkiyə nümayəndələri olublar. Lakin 1990-cı illərdə elə bir tendensiya yaranıb ki, o, bu günə qədər qalmaqdadır. Məsələn, 1991-ci ildə – hələ Sovet İttifaqı dağılmamışdan əvvəl, ermənilər tərəfdən danışıqlar aparanlardan biri daşnaklar tərəfindən yalnız ona görə öldürülüb ki, onun zəiflik göstərməsindən şübhələniblər. Çünki həmin erməni o zamankı Dağlıq Qarabağ Muxtariyyətinin Azərbaycanın tərkibində saxlanmasını istəyirmiş. Bu da erməni irredentistləri üçün qəbuledilməz idi.

Həmin olayları biz bu gün də görürük. Məhz bu insanlar Nikol Paşinyanı öldürmək istəyirlər. Əlbəttə, keçmiş DQMV-nin statusuna görə yox, çünki bu artıq müzakirə mövzusu deyil. Bu insanlar nə muxtariyyətdən danışmaq, nə də Şuşa və Xankəndini Azərbaycanın tərkibində görmək istəyirlər.

Məsələnin mahiyyəti keçmişə gedib çıxır, çünki elə bu daşnaklar Osmanlı imperiyasına loyal olan erməniləri də öldürüblər. Ermənilərin ultramillətçiliyi həm də zəiflikdə şübhələndikləri həmvətənlərinə qarşı yönəlib. Yəni, biz hazırda həmin terrorçu fəaliyyətin varisliyini görürük.

Qeyd etmək istədiyim başqa bir məqam: 1990-cı illərdən başlayaraq Qərbdə erməni millətçiliyi və terrorizmi təhdidlər səviyyəsinə keçdi ki, bunu da biz bu gün, xüsusilə 2020-ci il müharibəsi başa çatandan sonra aydın müşahidə edirik. Mən erməni ekstremizmi ilə 2008-ci ildə qarşılaşmışam. Onlar tərəfindən təhdidlərin yarıdan çoxunu 2020-ci il 44 günlük müharibə dövründə almışam. O zaman mənim ünvanıma təhdidlərin sayı özünün zirvəsinə çatdı.

Baxın, daha bir misal. Fransa Milli Assambleyasının keçmiş deputatı Jerom Lamber Fransada fəaliyyət göstərən Azərbaycanın Dostları Assosasiyasının həmsədridir. O, 1986-cı ildən 2022-ci ilə qədər deputat olub. Lamber həm də uzun illər parlamentin xarici siyasət komitəsinin üzvü olub, ərəb-İsrail münaqişəsi də daxil olmaqla, bir çox beynəlxalq münaqişələrin müzakirəsində iştirak edib. O, açıq şəkildə etiraf etdi ki, "Mən 2020-ci il müharibəsi dövründə qorxduğum qədər heç vaxt belə çox qorxmamışdım". Gördüyünüz kimi belə elementlər indiyə qədər mövcuddur. İnsanlar, o cümlədən, sizin avropalı həmvətənləriniz Brüsseldə, Parisdə, Los-Ancelesdə indiyi qədər ermənilər tərəfindən fiziki hücumlara məruz qalırlar. Lap elə ötən həftə millətçilik ideyasına qarşı çıxış edən fransalı erməni "Daşnaksütyun"un üzvlərindən biri tərəfindən fiziki hücuma məruz qalıb.

**– Siz varislik konsepsiyasını çox maraqlı izah etdiniz. Biz başa düşürük ki, indiki məqamda Ermənistan – Azərbaycan münasibətlərinin normallaşması çərçivəsində baş nazir Nikol Paşinyan çox güclü təzyiq altındadır. O, çox tez-tez fikrini dəyişir, bir fikirdən başqa bir fikrə qaçır. Necə hesab edirsiniz, Paşinyan bəzən onun gündəliyinə qarşı çıxan ekstremist elementlərin təsiri rolunu şişirtmirmi?**

– Birincisi, bu suala indi ətraflı cavab vermək olmaz. Ona bir neçə onillikdən sonra, dövlətdaxili sənədlər əlçatan olanda cavab vermək olar.

İkincisi, əgər siz Ermənistanda siyasi təzyiqi nəzərdə tutursunuzsa, onda biz 2021-ci il parlament seçkilərinin nəticələrini görürük. Biz ötən ildə sülhə qarşı olanların nümayişlərinin miqyasının məhdud olduğunun sübutunu gördük. Hətta Ermənistan miqyasından çıxış etsək, bu, böyük nümayiş deyildi. Yox, əgər biz fiziki təhlükədən danışırıqsa, o zaman mən onun məsələni şişirtməsinin əsaslı sübutlarını görmürəm. Kimisə öldürmək üçün sənə əhalinin 51 faizinin səsi lazım deyil. Con Kennedini öldürən adam Amerika ictimaiyyətinin əksəriyyətini təmsil etmirdi. 1880–1890-cı illərdə Osmanlı imperiyasında erməni millətçiliyi erməni ictimai rəyindəki azlıqdan baş qaldırırdı.

Mənim düşündüyümə görə daha az müzakirə olunan başqa bir məqam aşağıdakından ibarətdir. Hampiq Sasunyan 1982-ci ildə Los-Ancelesdə Türkiyənin baş konsulunu öldürdüyünə görə, təqribən, 40 il həbsxanada yatdı. 2021-ci ildə o, azadlığa buraxıldı, çünki ABŞ hökuməti bu məsələ ilə bağlı Kaliforniya qubernatoruna təsir göstərməyi dayandırdı. Livan vətəndaşı olmasına baxmayaraq, onu dərhal Ermənistana yola saldılar. Bu sülhə və Paşinyana qarşı nümayişkaranə bir addım idi. Sasunyan 40 il əvvəl təkcə konsulu öldürmədi, həm də özünün müdafiəsi üçün ağlasığmaz strategiya seçdi. Günahını isbat edən maddi sübutların olmasına baxmayaraq, o, 18-20 il ərzində özünün cinayətdə iştirakını təkzib edirdi. Həm də bəyan edirdi ki, günahsızdır. Əlbəttə, bu, Amerika məhkəmə sisteminin səbrini daşırdı. Sonra Sasunyan günahını boynuna aldı və vaxtından əvvəl şərti azadlığa buraxılması üçün müraciət etdi. Onun bu müraciətini dəfələrlə rədd etsələr də, sona qədər Türkiyə konsulunun öldürülməsini ona əmr edən adamların adlarını açıqlamaqdan imtina etdi. Əgər o, əvvəldən günahını etiraf etsəydi, desəydi ki, "Bəli, mən müqəssirəm və bütün olanlara görə peşimanam, bu adam mənə əmr etdi, bu isə mənə logistik avadanlıq verdi", o zaman onu 40 ildən sonra yox, 25 ildən sonra azad edəcəkdilər. Yəni Sasunyan EİFD-in (Düşnaksütyun Ermənistan İnqilabi Fderasiyasi – red.) əmrinin icrası naminə həyatını qurban verməyə hazır idi. Ona görə də əgər o, Paşinyanı öldürmək əmri alsa, bunu edəcək. Lakin bu hələ ki, baş verməyib. Ancaq, bu, hələlik belədir.

**– Ermənistan–Azərbaycan sülh prosesinə qayıdaq. Aydındır ki, Azərbaycan tərəfi sülh müqaviləsi imzalamaq istəyir. Azərbaycan üstün vəziyyətdədir, çünki müharibəni udub. O da aydındır ki, Ermənistan sülh müqaviləsini imzalamaq istəmir. 2023 və ya 2024-cü illərdə Ermənistanı Azərbaycan tərəfinin təklif etdiyi çərçivədə sülh müqaviləsini imzalamağa nə məcbur edə bilər?**

– Burada bir neçə məqam var. Mən hesab edirəm ki, başlıca məsələ Nikol Paşinyanın özünüqorunmaq hissindədir. Çünki o, qorxur ki, əgər sülh müqaviləsini imzalasa və Zəngəzur dəhlizini açsa, o zaman Rusiya onu devirəcək və öz marionetkasını hakimiyyətə gətirəcək. Bu, Ermənistanın ən böyük qorxusudur. Belə olan təqdirdə, kimsə Paşinyana zəmanət verməlidir ki, belə bir şey olmayacaq. Doğrudur, onun adminstrasiyasında işləmirəm və mənim baxışım kənardandır, amma belə hesab edirəm ki, əgər belə bir zəmanət olsa, onda o, yalnız bu şərtlərlə müqaviləni imzalayacaq.

Bilirəm ki, ona belə bir özünüqorumaq hissi vermək asan deyil, həm də bu, ola bilsin, diplomatik yanaşma deyil. Lakin Paşinyana zəmanət verilməlidir ki, daşnaklar, Köçəryan və onu dəstəkləyən, Beynəlxalq məhkəmə tərəfindən qadağan edilməli olan hərbiləşdirilmiş qruplar, onun üçün təhlükə yaratmırlar. Onun belə zəmanət alması vacibdir. Mən hesab edirəm ki, məsələnin bütün mahiyyəti bundan ibarətdir. Bilirəm, bu asan deyil. Lakin o Ermənistanda yeganə adamdır ki, onun şəxsi marağı müqavilənin imzalanmasından ibarətdir. Paşinyan müharibəni uduzub. O özü müharibənin başlanmasına rəvac verdi və onun uduzdu. Lakin, əgər o sülhz nail olan insan kimi tarixdə qalsa, o zaman bu, çox yaxşı kompensasiya olar.

**– Çox maraqlı baxışdır. İndi də istərdim Azərbaycan–Fransa münasibətlərinə keçim. Bu münasibətlər heç də sadə deyil. Başlıca səbəb isə ondadır ki, Azərbaycan Fransanın Ermənistanı dəstəklədiyini görür. Fransanın Ermənistan–Azərbaycan sülh prosesindəki mövqeyini soruşmazdan əvvəl, istərdim növbəti bir sualı verim: Biz başa düşürük ki, Fransadakı erməni diasporu güclüdür. Yəni həqiqətən, o qədər güclüdür ki, əsl mənada, Ermənistan–Azərbaycan münasibətlərinin tənzimlənməsində və başqa məsələlərdə Fransanın xarici siyasətinə təsir göstərə bilir?**

– Mən bir qədər başqa cavab verərdim, əlbəttə əgər 1970–80-ci illərdə yaşasaydıq. Çox təəssüf edirəm, amma bu reallığı deməliyəm ki, erməni diasporunun, onun ekstremist elementlərinin başlıca gücü Azərbaycan və Türkiyə tərəfinin səmərəli işinin olmamasındadır.

**– Öz fikrinizi izah edə bilərsinizmi?**

– Əlbəttə, bilərəm. Bu mənada kı, ermənilərin ekstremist təşkilatlarının döyüş bazaları məhv edilib. 20 il əvvəl onlar nümayiş keçirmək üçün küçələrdən minlərlə adam toplaya bilirdilər, lakin indi yalnız onlarla adam tapa bilirlər. Onların qəzetləri bağlanır, veb-saytları və bloqları bir-bir yoxa çıxır. 15-20 il əvvəllə müqayisədə elektron şantaj daha az səmərəlidir. Çünki assimilyasiya gedib. Hətta sağ və ya sol düşərgələri təmsil edənlər, erməni millətçiləri ilə dostluq edənlər, başa düşüblər ki, assimilyasiya onları fransız vətəndaşına çevirəcək.

Lakin iki məqam var. Birinci, erməni ekstremistlərinin rəhbərləri başa düşürlər ki, onlar 1970–1990-cı illərdə sələflərinin əldə etdikləri həmin "nailiyyətlərdən" istifadə edə bilərlər. Onlar həm də o faktları nəzərə aldılar ki, Azərbaycan diasporunun Fransada rolu elə böyük deyil, elektoral potensialı kiçikdir. Fransada yaşayan türklərin türkdilli diasporların hamısına nisbətən təhsil səviyyəsi aşağıdır. Onlar elə də çox seçkilərə getmirlər, onların ümumi təşkilat yoxdur. Dünyada böyük türk diasporu olan və bunu mütəşəkkil təşkilata çevirə bilməyən yalnız bir ölkə var, o da Fransadır. Belə təşkilatlar Almaniyada, Böyük Britaniyada, İsveçdə, ABŞ-da və Kanadada var, ancaq Fransada bu ağıla gəlməyəndir. Ona görə də nə azərbaycanlılar, nə də türklər özlərini güclü elektoral qüvvə kimi təqdim edə bilirlər. Onlar Fransada mediada təbliğat apara bilən bir türk xalqları şəbəkəsi yarada bilməyiblər. Fransa mediasında təbliğat aparmaq üçün 1000 nəfər lazım deyil. Sadəcə, 7 gün işləyə bilən bir neçə çevik və bacarıqlı insanı cəlb etmək kifayətdir. Erməni millətçiləri arasında isə belələri olduqca çoxdur.

**– Mən istərdim bir məqamı dəqiqləşdirim ki, o həm mənə, həm də bizim auditoriyaya aydın olsun. Fransanın Ermənistana dəstəyi əsasən diasporun roluna aiddir, yoxsa Parisin xarici siyasətinin bəzi fundamental preroqativlərinə də şamil edilir?**

– Əvvəla, aydınlaşdırmaq lazımdır ki, siz Fransanın Ermənistana dəstəyi deyəndə nəyi nəzərdə tutursunuz? Fransa son dəfə 1919-cu ildə Ermənistana silah və sursat göndərib. Paris azərbaycanlıların Ermənistanda qətliamına və qovulmasına görə 1920-ci ildə bunu dayandırdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Fransa Ermənistana bir silah belə göndərməyib. Fransa sizin ölkəyə ordu üçün 2 süni peyk satıb. Həmçinin Fransa 2015, 2020, 2021 və 2022-ci illərdə sizə 2 milyon dollarlıq hərbi sursat satıb.

Ötən il Fransa xarici ticarət çərçivəsində hərbi-texniki əməkdaşlıq həcminə görə Azərbaycanın ikinci tərəfdaşı olub. 44 günlük müharibə dövründə Azərbaycanla hərbi müqavilələri pozmaq cəhdi uğursuzluqla nəticələnib. Yaxşı, indi mən soruşuram: mühüm olan nədir? Biz hələ bu mövzunu müzakirə edəcəyik. Senatın qəbul etdiyi, heç nəyə məsul etməyən və Makronun opponentləri tərəfindən irəli sürülən qətnamə, yoxsa silah və süni peyklər? Mən demirəm ki, qətnamə məqbuldur. Mən ona haqq qazandırmıram. Məsələ bunda deyil.

**– Əlbəttə, mən qətnamələrə qayıdacağam. Siz bəzi maddi vasitələri başqa dəstək formaları ilə müqayisə etdiniz.**

– Daha bir-çox şeylər. Biz bu mühüm məqamı nəzərdən qaçıra bilərik. Fransada, ABŞ-da və bir çox başqa ölkələrdə xartiyalar qəbul edilib, xüsusən də müharibəyə qədər Qarabağda yerli orqanlar və "bələdiyyələr" arasında qarşılıqlı yardım haqqında müqavilələr və memorandumlar imzalanıb. Fransa yeganə ölkədir ki, onun hökuməti bu qondarma respublikanı tanımadığını və bələdiyyələrin müstəqil diplomatiyaya sahib olmadığını sübut etmək üçün məhkəməyə müraciət edib. Məsələn, 2019-cu ildə bu baş verib. Bəzi bələdiyyələr appelyasiya versələr də, 2021-ci ildə onlar rədd cavabı alıblar. Hətta bələdiyyələrdən biri iddia ərizəsi ilə Fransa Ali Məhkəməsinə qədər gedib, lakin 2022-ci ilin martında iddia rədd edilib. Əgər icazə versəniz soruşardım, Azərbaycanın hansı KİV-ində bunu qeyd etdilər?

**– Belə məqamlar, əlbəttə, çox vacibdir, lakin mən sülh prosesinə qayıtmaq istərdim. Fransa vasitəçi rolunu oynamaq istəyir, lakin Azərbaycan buna etiraz edir. 2022-ci il dekabrın 7-də Brüsseldə sammit keçirilməli idi, lakin Ermənistan tərəfi Fransanın da iştirakını tələb etdiyi üçün Azərbaycan buna qarşı çıxdı. Azərbaycanın bu fikirdə olmasının səbəbi odur ki, Fransa Azərbaycanla Ermənistan arasında hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh müqaviləsinin imzalanmasını istəmir. Fransa Ermənistana təlqin edir ki, İkinci Qarabağ müharibəsinin nəticələrini dəyişmək olar. Onun Paşinyana çox böyük dəstəyi var. Mən bir çox amilləri sadalaya bilərəm. Hazırkı şəraitdə Fransanın danışıqlarda iştirakı müsbət qarşılanmır. Sualım belədir: Azərbaycan Cənubi Qafqazda çox mühüm ölkədir, iqtisadi baxımdan ən böyük dövlətdir. Fransa Bakı–İrəvan danışıqlarının dinamikasında Ermənistanı dəstəkləyir. Bu real politikaya uyğun gəlirmi?**

– Yenə deyirəm, biz bəzi məqamları ayırmalıyıq. O adamlar ki, qanunla mövcud olmayan "DQR"-in tanınmasını Fransadan xahiş edirlər, onlar reallığa qarşı, real politikanın əksinə gedirlər. Onlar Fransa hakimiyyətini təmsil etmirlər. Fransa bu qurumu tanımır. Bu, ən başlıca məqamdır.

İkincisi, bəzi səbəblərdən Paris deklorasiyası haqqında tam məlumat yoxdur, mən orada olmamışam, mən bunu şərh edə bilmərəm. Lakin mən qətiyyətlə deyə bilərəm ki, Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyan sənədi imzalayıb. Mən anlaya bilmirəm, niyə bu elə qəbul edilir ki, guya Makron Azərbaycanın ərazi bütövlüyünün əleyhinədir? Ola bilər o səhv etsin, ancaq mən bildiyimə görə, Makron Paşinyanın imzaladığı sənədin əleyhinə çıxış etməyib. Ötən il nə vaxtsa Makronun hökuməti qeyd edib ki, o, qondarma "DQR"-i tanımır və Fransanın bələdiyyələrinin onunla imzaladıqları sənədlərin heç bir hüquqi qüvvəsi yoxdur. Əgər sizin bunun əksinə olan tutarlı sübutlarınız varsa və Paris tərəfindən Azərbaycanın ərazi bütövlüyü problemi ilə bağlı arqumentləriniz varsa, mən onları dinləməyə hazıram, ancaq mən beləsini eşitməmişəm.

**– Paris deklorasiyası, əlbəttə, çox vacib idi, amma bir çox məqamları ilə kifayət deyil, çünki Ermənistan bütün vaxtlarda ondan yayınır. Belə ki, məsələn, o həmişə deyə bilər – Qarabağsız Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Onlar əvvəllər də belə deyirdilər. Alma-Ata bəyanatına istinad etmək də çox vacibdir, ancaq o da kifayət etmir. BMT-nin xartiyasına istinad etmək də vacibdir, lakin bizə nəsə daha əhəmiyyətli bir şey lazımdır və bu sülh müqaviləsi ola bilər. Əsas mahiyyət ondan ibarətdir ki, Fransa Ermənistanın Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıması üçün zəruri olan töhfəsini vermir.**

**Reallıq ondan ibarətdir ki, İkinci Qarabağ müharibəsindən sonra Fransanın mövqeyi çox güclü şəkildə dəyişdi. ATƏT-in Minsk qrupunun sədri olduğu 2020-ci ilə qədər Fransa az-çox daha balanslaşdırılmış qiymət verməyə çalışırdı, lakin sonra hər şey tamam dəyişdi. Fransanın Ermənistana dəstəyi müqayisəolunmaz dərəcədə artdı. Mənim demək istədiyim ondan ibarətdir ki, bu səviyyədə dəstək Ermənistanda aşağıdakı rəyin formalaşmasına yardım edir: müharibənin nəticələrini dəyişmək olar, Fransa buna hər vasitə ilə dəstək verəcək və bununla da sülh prosesini uzatmaq olar.**

– Mən hakimiyyətdə olmayan insanlardan danışmıram, mən Makrondan və onun hökumətindən danışıram. O fikirlə razıyam ki, Makron elə bir bəyanat verdi ki, onu etməməli idi. O, bunu heç də pis niyyətlə etmədi, yəni siz də yaxşı niyyətlə pis bir şey edə bilərsiniz. Gəlin bir daha aydınlaşdıraq ki, Azərbaycan kiminlə sülh imzalaya bilər. Burada heç kim deyə bilməz ki, biz Robert Köçəryanla sülh imzalaya bilərik və ya bizim daşnaklarla sülhümüz mümkündür. Azərbaycanın təkid etdiyi sülh müqaviləsini yalnız Paşinyan imzalaya bilər. Elə bir fikir yoxdur ki, Paşinyanı kiminləsə əvəz etmək lazımdır və onunla sülh imzalamaq olar. Mən Azərbaycan nümayəndələrinin əksəriyyətinin rəyi ilə razıyam ki, məhz Paşinyan sülh imzalamalıdır.

Təkrar qeyd edirəm ki, onu buna məcbur etmək lazımdır, onu Rusiyaya qarşı gücləndirmək lazımdır, çünki onun Putinin qurbanı olmaq qorxusu var. Makron isə hələ ki, Paşinyanı hakimiyyətdə saxlamaq vacibliyi ilə, Rusiyanın Cənubi Qafqazda hökmranlığının sona çatdırılması və Azərbaycan üçün sülh məsələsinin vacibliyini diqqətə almaq arasında balansı tapa bilmir. Demək olmaz ki, Makron məqsədli şəkildə Paşinyanın sülh müqaviləsini imzalamamağa sövq edir, mən burada konkret bir niyyət görmürəm. Məsələn, 2021-ci ildə çoxmilyonlu silah ticarəti və Azərbaycanın Hərbi Dəniz Qüvvələri üçün böyük məbləğə hərbi avadanlığın göndərilməsi kimi bir şey Ermənistan üçün olubmu ki, onu ruhlandırsın?

**– Axı mən əvvəldə qeyd etdim ki, Ermənistanı ruhlandıran nədir?! Sizin icazənizlə mən istərdim Zəngəzur dəhlizi layihəsinə keçim. Elə bilirəm yaddaşım məni aldatmaz, şəxsi söhbətimizdə siz qeyd etdiniz ki, Zəngəzur dəhlizinin müharibəsiz açılmasının yeganə yolu Fransanın vasitəçilik yoludur. Xahiş edirəm, bu fikri izah edərdiniz.**

– Rusiya çalışdı ki, vasitəçi olsun və nəticədə Qarabağda "dövlət naziri" kimi Vardanyan peyda oldu. Xoşbəxtlikdən, o getmək məcburiyyətində qaldı. Yeri gəlmişkən, bu məsələdə Paşinyan da öz rolunu oynadı. Əlbəttə, Azərbaycan çox güclü şəkildə təzyiq göstərdi, lakin, son nəticədə məhz Paşinyan dedi ki, Vardanyan mütləq getməlidir.

Sonra avropalılar vasitəçiliyə cəhd göstərdilər. Bu, o mənada uğurlu keçdi ki, Prezident Əliyevlə fon der Lyayen və Şarl Mişel arasında münasibətlər çox sıxdır. Bu yaxşıdır. Bu, hətta lazım olandan da çoxdur. Lakin Zəngəzur dəhlizini açmağa müvəffəq olduqmu? Yox. Mənim anladığıma görə, Paşinyana kömək etmək imkanında olan yeganə adam Makrondur. Ola bilsin o, qəbuledilməz, artıq ritorikası ilə səhv etdi və buna görə Yerevanda populyarlaşdı. Lakin o sabitliyi pozmaqda maraqlı deyildi. Bunda maraqlı olan Rusiya və İrandır.

Mən onunla razıyam ki, Makrona öz mövqeyini dəyişmək lazımdır. Mən razıyam ki, Azərbaycanla silah alveri kifayət deyil. Sizin suallarınız və sizin Prezidentin bəyanatları buna təkzibedilməz sübutdur. Mən onunla razıyam ki, Makrona nə isə etmək lazımdır ki, o buna nail olsun.

**– Bu dəyişikliyi etmək üçün o nə etməlidir?**

– O sözləri demək lazımdır ki, onlar Azərbaycanın işini yüngülləşdirsin. Ola bilsin, 2020-ci ildə dediklərini təkrarlamağa dəyər ki, bu ərazilər Azərbaycana məxsusdur. Buna bənzər şeyləri Bayden daşnaklar qarşısında söyləyibmi? Yox. Fikirləşirəm, Makron desə: Qarabağ – Azərbaycandır, Bakıda heç kəs məyus olmaz.

**– Eşitmək çox xoş olardı.**

– Əgər o, bunu bir dəfə deyibsə, deməli təkrarlaya bilər. Çünki o öz mövqeyini dəyişməyib. Mən bu qənaətimə nümunələr gətirdim. Buna münasibətdə çox aydın ritorika olmalıdır. Ola bilsin dəqiqləşdirmək lazımdır ki, Paşinyanla yaxşı münasibətdə olmaq, heç də Azərbaycanın əleyhinə olmaq demək deyil. Bu sülh müqaviləsi üçün istifadə oluna bilər. Lakin bəzən Makron xoş niyyətlə doğru olmayan şeylər səsləndirir. Amma razıyam ki, diplomatiya həm də sözlərdən ibarətdir.

**– Çox sağ olun, cənab Qauin. Mənim son sualım: Azərbaycanla Ermənistan arasında sülh müqaviləsini siz necə təsəvvür edirsiniz? Necə bilirsiniz, vasitəçilərdən hansı ən mühüm töhfəni verəcək?**

– İndiki vaxtda bunu heç kim bilmir. Yalnız onu demək olar ki, əgər mövcud vəziyyət davam edərsə, o zaman ən mühüm töhfəni Qərb verəcək, çünki indi onlara rəhbərlik edən Rusiya və İranı idarə edən adamlardır, onlar sülh müqaviləsinə heç bir maraq göstərməyəcəklər.

**– Çox sağ olun. Sizinlə söhbət etmək və fikirlərinizlə tanış olmaq maraqlı oldu. Xüsusilə Fransa Azərbaycanın maraqlarına qarşı praktik olaraq heç bir şey etməyib arqumenti ilə. Bu çox maraqlı oldu, əminəm ki, bu, eləcə də bizim ictimaiyyət üçün maraqlı olacaq. Sağ olun!**

– Buyurun.





***"Xalq qəzeti"***

# Doğma xalqına həsr olunmuş şərəfli ömür



**“Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur.” Prezident İlham Əliyevin bu fikirləri dahi şəxsiyyətin liderlik keyfiyyətlərini, dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyasının genişliyini şərtləndirən amillər sırasında xalqına bağlılığını özündə təcəssüm etdirir.**

Ümummilli liderin fəaliyyətinin hansı dövrünə nəzər salsaq dövlət, Vətən, xalq sevgisindən irəli gələn addımlarının davamlılığını görürük. Ulu öndər Heydər Əliyev Azərbaycanı hər zaman yüksəklərdə görmək istəyini yaratdığı möhkəm təməl ilə təsdiqlədi. 1969-1982-ci illərdə Azərbaycanı keçmiş İttifaqın subyektləri arasında geridə qalmış respublikadan ən qabaqcılları sırasına çıxardı. Əgər sovet dövründə – 1980-ci illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Bu gün də ölkəmizin inkişafına xidmət edən çox güclü infrastruktur, yeni sənaye sahələri məhz o illərdə yaradılmışdır. Kənd təsərrüfatı sürətli inkişaf dövrünü yaşayırdı. Xalqın rifahının yüksəldilməsi əsas prioritetlər sırasında idi. Xalqın ulu öndər Heydər Əliyevə sevgisi sonsuz idi. Bir mühüm məqamı xüsusi qeyd etməliyik ki, azərbaycançılıq ideologiyasının formalaşdırılması, təbliği bütün dövrlərdə ümummilli liderin fəaliyyətinin əsasını təşkil edib. Məhz buna görə dahi şəxsiyyətin hakimiyyətinin birinci dövrü milli özünəqayıdışın başlanğıcı kimi dəyərləndirilir. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk gündən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin keçirilməsi ənənə halını almışdı. Atılan bu kimi addımlar müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə xidmət edirdi.

Azərbaycan xalqının zəngin tarixi, milli-mənəvi dəyərləri olan xalq olduğunu dünyaya çatdırmaq həyata keçirilən siyasətin əsas tərkib hissəsi idi. Azərbaycan dilinin dövlət dili statusunu qazanması da həmin dövrün reallıqları sırasında idi. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir. Ulu öndərin prinsipiallığı və qətiyyəti sayəsində Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunan Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olması barədə maddə daxil edildi. Ulu öndərin fəaliyyətinin Naxçıvan mərhələsində də gördüyü işlər, qəbul etdiyi qərarlar Onun xalqına, dövlətinə bağlılığını, azərbaycanlı olması ilə fəxr etdiyini özündə əks etdirir. Belə ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə – Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib.

1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra diaspor quruculuğu dövlət siyasətinin əsasına çevrildi. Ümummilli lider müstəqillik yollarında ilk adımlarını atan dövlətin qarşısında dayanan vəzifələri açıqlayarkən xaricdə varlığını təsdiqləməsini mühüm amil kimi qeyd edirdi. Bu baxımdan dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin yaradılması qarşıda dayanan əsas vəzifələrdən oldu. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərdi. Həmin qurultayda ulu öndərin böyük iftixarla söylədiyi “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” çağırışı harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlılarının həyat amalına çevrildi. Təbii ki, dahi şəxsiyyətin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin bu məqamını qeyd etməyimiz səbəbsiz deyil. Azərbaycanlı olduğu üçün özünü xoşbəxt hiss edən ümummilli lider, eyni zamanda, Azərbaycanın Günəş kimi dünyaya doğacağının anonsunu verdi və düşünülmüş, məqsədyönlü siyasəti ilə bu istəyin reallığa çevrilməsinin aydın ideoloji xəritəsini hazırladı.

Azərbaycanın müstəqilliyinin daimi, sarsılmazlığını təmin edən ulu öndər Heydər Əliyev ölkədə sabitliyin, normal iqtisadi mühitin yaradılması ilə dövlətlərarası iqtisadi əlaqələrin əsasını qoydu. Hansı ki, müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycanla iqtisadi əməkdaşlıqda maraqlı olan dövlətlər ölkədə ictimai-siyasi durumun gərginliyindən ehtiyat etdikləri üçün tərəddüd içərisində idilər. 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycanın gələcək inkişafının əsası qoyuldu. Azərbaycanın malik olduğu təbii resurslarından səmərəli istifadə məqsədilə reallaşdırdığı layihələr ölkəmizə investisiya axınını sürətləndirdi. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanın iqtisadi strategiyasını düzgün qurması insanların sosial rifah halının daha da yaxşılaşmasında özünün aydın ifadəsini tapdı. Azərbaycanın bu gününə və gələcəyinə inam artdı. Ulu öndər Heydər Əliyevin “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” tezisi bütün dövrlər üçün aktuallığını qorudu. Onu da qeyd edək ki, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Torpaq islahatı proqramı hazırlandı. Azərbaycan MDB-də torpaq islahatlarına başlayan ilk ölkə oldu. Ümummilli liderin iqtisadi siyasətinin əsas tərkib hissələrindən biri sahibkarlığın inkişaf etdirilməsi idi. Bölgələrin inkişafına xüsusi diqqət yönəldildi. Bu məqamı xüsusi qeyd etməliyəm ki, ulu öndər Heydər Əliyevin Bərdəyə 14 səfəri olub. Təbii ki, hər bir səfər rayonun inkişafına yönələn addımlarla yadda qalıb.

1993-2003-cü illər Azərbaycanın çoxəsrlik tarixində dirçəliş, inkişaf dövrü kimi xarakterizə edilir. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirdi və məharətlə həyata keçirdi.

Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrildi və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edildi.

Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması ümummilli liderin mükəmməl quruculuq proqramının tərkib hissələri oldu. O, “Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır” fikirlərini reallıqda təsdiqlədi.

Ulu öndər 2003-cü il oktyabrın 1-də xalqa tarixi müraciətində bu yolun uğurlu davamını təmin etmək üçün növbəti ünvanı göstərdi. Cənab İlham Əliyevin xalqın böyük əksəriyyətinin səsini qazanaraq, Prezident seçilməsi böyük yolun davamı kimi dəyərləndirildi. Dövlətimizin başçısı ilk gündən Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bildirdi. Cənab İlham Əliyev “Neft kapitalını insan kapitalına çevirək!” tezisini irəli sürərək qeyri-neft sektorunun inkişaf etdirilməsinin vacibliyini bildirdi. Regional inkişaf proqramlarının uğurlu icrası real həyatda öz əksini tapır.

Heydər Əliyev siyasətinin uğurlarının miqyası o qədər genişdir ki, bir yazıda əhatə etmək qeyri-mümkündür. Bunların ümumiləşdirilmiş ifadəsi bu gün Azərbaycanın adının tarixə qalib ölkə, Prezident İlham Əliyevin qalib sərkərdə, xalqımızın məğrur, yenilməz xalq, Silahlı Qüvvələrimizin rəşadətli ordu kimi yazılmasıdır. Ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edən dövlətimizin başçısı İlham Əliyev hər birimizin qürur ünvanıdır.

O xalq xoşbəxtdir ki, onun gələcəyini düşünən lideri var. Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinə, xalqına sevgisini onu davamlı inkişaf yoluna çıxarmaqla sübut etdi. Azərbaycanın bu gün sözünün imzası qədər əhəmiyyətinin artması Heydər Əliyev siyasətinin nəticəsidir. Onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev “Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik. Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik” fikirləri ilə sabahımıza olan inamını ifadə edir.

**Fəqət ŞADLİNSKAYA,**
**YAP Bərdə rayon təşkilatının sədri**

# “Heydər Əliyevin 100 illiyi” yubiley medalı kimlərə veriləcək?




**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı medal təsis olunur. “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi parlamentin aprelin 4-də keçiriləcək plenar iclasının gündəliyinə daxil edilib.**

“Heydər Əliyevin 100 illiyi (1923–2023)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”yə əsasən, yubiley medalı ilə Heydər Əliyev irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə, dövlət quruculuğunda, o cümlədən, milli azadlıq hərəkatında xüsusi xidmətlərinə, azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xidmətlərinə görə, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərinə, dövlət müstəqilliyinin qorunub saxlanılmasına və inkişafına, Azərbaycanın tərəqqisinə və şöhrətinin artmasına töhfə verən xidmətlərinə görə, həmçinin ölkənin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında xidmətlərinə görə, dövlət idarəçiliyində, dövlət qulluğunda və ictimai-siyasi sahədə səmərəli fəaliyyətinə görə fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri təltif oluna bilərlər.

“Heydər Əliyevin 100 illiyi (1923–2023)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda ordenlərdən sonra taxılır.

Yubiley medalı 999.9 əyarlı qızıl qatı ilə örtüləcək soyuq ştamplama üçün nəzərdə tutulmuş xüsusi tərkibli əlvan metaldan hazırlanan ümumi diametri 42 millimetr olan, bir-birinin üzərinə qoyulmuş iki səkkizguşəli ulduzdan ibarətdir.

Medalın ön tərəfində ağ minalı səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış, diametri 26 millimetr olan dairəvi lövhə yerləşdirilib. Bu lövhənin içərisində Heydər Əliyevin barelyefi verilib. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “HEYDƏR ƏLİYEV” sözləri, aşağı qövs boyunca “1923-2023” rəqəmləri yazılıb.

Medalın hamar səthli arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

# Ədliyyə Nazirliyi ağacəkmə aksiyası keçirdi



**Ədliyyə Nazirliyi rəhbərliyinin və kollektivinin iştirakı ilə Bakı şəhərinin Nərimanov rayonu ərazisində təşkil olunmuş aksiyada həmişəyaşıl ağaclar əkilib, onlara qulluq göstərilib.**

“Heydər Əliyev İli”ndə nazirliyin yerli və regional qurumları, məhkəmələr tərəfindən də böyük həvəs və fəallıqla ağacəkmə kampaniyaları təşkil edilir.

# Ulu öndərin iqtisadi təlimi öyrənilir

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Heydər Əliyev İli”nə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" mövzusunda bilik yarışı keçirilib. Test üsulu ilə 4 dildə keçirilən bilik yarışında ümummilli lider Heydər Əliyevin ölkə iqtisadiyyatındakı rolu və misilsiz xidmətləri ilə bağlı suallar tələbələr tərəfindən cavablandırılıb.**



Bilik yarışında ən yüksək nəticəni Rus İqtisad Məktəbinin maliyyə ixtisası üzrə tələbəsi Fəhmin Muradov əldə edib.

İkinci yerin sahibi İqtisadiyyat və idarəetmə fakültəsinin iqtisadiyyat ixtisası üzrə tələbəsi Bənzərim Baxışov, üçüncü yerin sahibi isə Türk dünyası iqtisad fakültəsinin dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə tələbəsi Yeganə Vəliyeva olub.

# Azərbaycana güc nümayişi əbəsdir, İran!

## *Molla rejimi Arazqırağına qoşun yığmaqla, Təbrizdəki konsulluğumuz qarşısında piket keçirməklə nə demək istəyir?*

**Yarandığı 1979-cu ildən etibarən öz məqsədlərinə nail olmaq üçün əli çatan, ünü yetən hər yerdə terrorizmdən vasitə kimi istifadə edən İran İslam Respublikasının həmlələrinə Azərbaycan da zaman-zaman məruz qalıb. Buna misal kimi 1997-ci ildə akademik Ziya Bünyadovun, 2011-ci ildə yazıçı Rafiq Tağının qətlini, "Avroviziya-2012" mahnı müsabiqəsi zamanı sözügedən ölkənin Bakıda terror aktları planlaşdırmasını, 2018-ci il iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı Qum və Məşhəddə dini təhsil alan azərbaycanlı tələbələrdən formalaşan "Hüseyniyyun" (Hüseynçilər) adlı silahlı dəstənin üzvü Yunis Səfərovun törətdiyi sui-qəsd cəhdini, bundan az sonra – iyulun 10-da icra hakimiyyətinin inzibati binasının önündəki meydanda baş vermiş iğtişaşlar zamanı Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyevin və Gəncə şəhər Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasovun kəsici-deşici alətlərlə qətlə yetirilməsini göstərmək olar.**

Nəzərə almaq lazımdır ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra xüsusi xidmət və hüquq-mühafizə orqanları əməkdaşlarının ayıq-sayıqlığı nəticəsində İranın ölkəmizdə həyata keçirmək istədiyi kəşfiyyat-pozuculuq, terror-diversiya hərəkətlərinin qarşısı dəfələrlə alınıb. Əminliklə demək olar ki, vaxtında aşkarlanan, qarşısı alınan bu əməliyyatlar olmasaydı, o zaman İranın terror aktları nəticəsində daha böyük mənəvi itkilərə məruz qalardıq.

***

Hər tərəfdən sanksiya məngənəsində sıxılan İran üçün Azərbaycan bir növ nəfəslik idi. Təkcə onu qeyd edək ki, Azərbaycan hələ İranın nüvə proqramının inkişafının sürətləndirildiyi Mahmud Əhmədinejadın prezidentliyi dövründə (2005-2013-cü illər) öz ərazisindən üçüncü dövlətlərə, o cümlədən, İrana qarşı istifadəyə icazə verməyəcəyini dəfələrlə bəyan etmişdi. Həmin illərdə Azərbaycanı formalaşdırılacaq anti-İran koalisiyasına cəlb etmək üçün ölkəmizə Qərbdən çox ciddi təzyiqlər olunurdu. Azərbaycan isə bu təzyiqlərə mətinliklə sinə gərir, İranın ərazi bütövlüyünün qorunub saxlanılması prinsipindən çıxış edir, mümkün toqquşmaların baş verməməsinə çalışır, məsələnin danışıqlar yolu ilə həllinə çağırışlar edirdi. Rəsmi Bakı İranla münasibətlərdə tarixi, mənəvi-dini bağlılığı, Güney Azərbaycanda 40 milyonadək soydaşımızın yaşamasını, 765 kilometrlik ortaq sərhəd xəttinə malik olmağımızı, həmçinin ehtimal edilən hərbi əməliyyatların Azərbayacan Respublikasında humanitar böhrana gətirib çıxara biləcəyini əsas götürürdü. İran isə Azərbaycanın müstəqil siyasətini, özünün cənub qonşusu əleyhinə heç zaman hansısa qüvvə və dövlətlə separat razılaşmalara getməməsini qiymətləndirmək əvəzinə, ölkəmizlə münasibətləri gərginləşdirmək yolunu tutdu. Molla rejiminin özfəaliyyəti nəticəsində yuxarıda qeyd etdiyimiz nəfəslik artıq qapanıb. Bu gün əminliklə onu da deyə bilərik ki, İran–Azərbaycan münasibətlərinin gərgin həddə çatması rəsmi Tehranın əməlidir!

***

"İran" və "terror" sözləri əvvəllər əsasən Qərb ölkələrində sinonim kimi işlənirdi. İndi isə Azərbaycanda da İran ictimai şüurda bu cür assosiasiya olunmağa başlayıb. 2022-ci ilin avqustunda Londondakı səfirliyimizə hücum edən şəxslərin İran təhlükəsizlik xidmətlərinə bağlılığının, yanvarın 27-də Tehrandakı səfirliyimizə hücumun birbaşa İran hakimiyyətinin göstərişi ilə həyata keçirilməsinin, martın 28-də deputat Fazil Mustafanın həyatına sui-qəsd cəhdinin bunun üçün əsaslar yaratdığını qeyd edə bilərik.

İranın Azərbaycana münasibətdə yol verdiyi təxribatlar onun dövlət terrorizmi siyasəti yürütdüyünü təsdiqləyir. 1987-ci ildə Cenevrədə terrorizmlə bağlı keçirilən konfransın sonunda qəbul olunan bəyannamə (ingiliscə adı "The Geneva Declaration on Terrorism") dövlət terrorizminin əlamətlərini 10 bənd üzrə müəyyən edib. Aşağıda həmin bəndlərdən beşini qeyd edirik:

*– Digər dövlətin sərhədləri yaxınlığında keçirilən və onun müstəqilliyinə və ərazi bütövlüyünə təhlükə yaradan hərbi manevrlər və təlimlər;*

*– digər dövlətin suverenitetini məhv etmək üçün muzdlulardan ibarət silahlı dəstələrin yaradılması və dəstəklənməsi;*

*– istər hərbi zərbələr, istər xüsusi əməliyyatlar, istərsə də agentlərin cəlb olunması yolu ilə həyata keçirilən başqa ölkələrin dövlət xadimlərinə, ictimai və siyasi xadimlərə qarşı sui-qəsdlər və sui-qəsd cəhdləri;*

*– digər dövlətlərin sabitliyini pozmağa yönəlmiş dezinformasiya kampaniyaları;*

*– regional müharibələrin davam etdirilməsinə dəstək verən və münaqişələrin siyasi həllini gecikdirən silah satışı.*

Əminik ki, hadisələri izləyən diqqətli oxucular bu sətirləri oxuyarkən İranın Azərbaycana münasibətdə xüsusilə son vaxtlar analoji hərəkətlərə yol verdiyini öz düşüncələrində canlandırdılar. Canlandıra bilməyənlər üçün onların hər birinə uyğun aşağıdakıları qeyd etməyi zəruri hesab edirik:

*İran son vaxtlar Azərbaycan sərhədləri yaxınlığında iki dəfə hərbi təlim keçirib;*

*İran Azərbaycanın dünyəvi dövlət modelini dəyişdirmək üçün "Hüseyniyyun" adlı silahlı dəstə yaradıb, molla rejimi hər zaman Azərbaycanın öz suverenliyini bərpa etməsinə qarşı çıxıb. İran silahlı qüvvələri 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın ərazi bütövlüyünü kobud şəkildə pozaraq, ölkəmizin suveren ərazisinə (Cəbrayıl rayonuna) daxil olub, nəticədə ordumuzun Zəngilana daxil olması bir neçə gün gecikib. Bu isə Ermənistan ordusuna yenidən cəmləşmək üçün əlavə vaxt qazandırıb;*

*Azərbaycanın dövlət və ictimai xadimlərinə qarşı terror aktları törədib;*

*Rəsmi Tehran Azərbaycanla bağlı məkrli niyyətinə çatmaq üçün geniş dezinformasiya kampaniyasından istifadə edir. Bu kampaniyada terrorizmə xas metodlardan istifadə olunur, əsas məqsəd əhali arasında xof yaratmaqdır;*

*Nəhayət, Tehran bölgədə destruktiv rol oynamaqla Ermənistan və Azərbaycan arasında sülhün yaranmasına mane olur. Müharibədən sonra İrandan Ermənistana verilən dəstək, Ermənistanın sərhədinin "qırmızı xətt" elan edilməsi, Qarabağa İran TIR-larının, terrorçu qruplarının daxil olması bunun bariz nümunəsidir.*

***

İranın Azərbaycanla bağlı son hiyləsi Azərbaycan sərhədinə texnika və hərbi qüvvə göndərməsi olub. Məlumata görə, Bu haqda SEPAH-ın xüsusi təyinatlı "Qüds" qüvvələrinə məxsus "Teleqram" kanalı məlumat yayıb. Hərbi texnikanın Azərbaycana yaxın sərhəd bölgələrində yerləşdiriləcəyi güman edilir. Həmçinin, dünən Təbrizdəki baş konsulluğumuz önündə etiraz aksiyasının keçirilməsi barədə məlumat yayılıb.

Ancaq bütün bunlar Azərbaycanı qorxutmur və qorxuda da bilməz. İran atdığı hər bir addımla bağlı bütün səviyyələrdə cavabını alır və alacaq. Görünür ki, İrandakı bəzi qüvvələr xam xəyallarla yaşayırlar. Onlar hələ də Azərbaycana "şiə inqilabı" ixrac edəcəkləri potensial məkan kimi baxırlar. Ancaq unudurlar ki, Azərbaycan artıq 90-cı illərdəki zəif dövlət deyil. Ölkəmiz istənilən təhdidə bundan sonra da qətiyyətlə cavab verəcək.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Asim MOLLAZADƏ, Milli Məclisin deputatı:**

– Tehranın Azərbaycanla bağlı bu mövqeyinin əsas səbəbi İran İslam Respublikası adlanan dövlətin riyakar rəhbərliyinin əməlləridir. Onlar qardaş adlandırdıqları Ermənistanın müdafiəsi üçün dəridən-qabıqdan çıxır. Bəyan ediblər ki, İran Ermənistanla dostluq düsturu ilə yaşayır. Buna görə də İran Ermənistana müxtəlif formalarda dəstək verir. Tehran Ermənistanın müdafiəsini faktiki olaraq öz üzərinə götürüb. İranla Ermənistan əvvəllər də Yaxın Şərqdə terror əməliyyatları həyata keçiriblər. Bu tandem Azərbaycana qarşı birgə çalışırlar. İstisna deyil ki, Rusiya da beynəlxalq arenada İrana dəstək verdiyi üçün Tehran özünü arxayın hiss edir. Ancaq Azərbaycan və onun dostları şeytana xidmət edən bu terrorçu qüvvələrin qarşısını çox asanlıqla almağa qadirdir. Azərbaycana qarşı aqressiv hərəkətlər müəyyən qədər diqqəti daxili problemlərdən yayındıqmaq, hansısa xarici düşmənə yönəltmək məqsədi daşıyır. Fars rejimi anlamalıdır ki, Azərbaycana qarşı hədə-qorxular əbəsdir. İran təkcə Azərbaycandan deyil, müttəfiqlərimizdən də elə zərbələr ala bilər ki, heç vaxt özünə gəlməz. Azərbaycan öz ərazi bütövlüyünü pozmağa cəhd edənlərə layiqli cavab verməyə qadirdir.

# "Fransızsayağı" test, yaxud təxribatçı "sülh karvanı"

**Fransanın Overn-Rona-Alplar bölgəsinin regional şurasının sədri Loran Vokye İrəvanda qondarma rejimin "xarici işlər naziri" Sergey Kazaryanla görüşündə təxribatçı fikirlər səsləndirib. Loran Vokye bildirib ki, təmsil etdiyi regionun dəstəyi və Fransadakı erməni icmasının təşkilatçılığı ilə Xankəndiyə "humanitar yardım" aparacaq. O, bu konvoyu Laçın yolundan keçirəcəyini bildirib.**



Loran Vokyenin bu açıqlaması rəsmi Bakının sərt etirazına səbəb olub. Azərbaycan XİN-nin mətbuat katibi Ayxan Hacızadə Loran Vokyenin məlum açıqlamasını ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qarşı fəaliyyət kimi dəyərləndirib.

## Fransa Azərbaycanı təxribata çəkir

Loran Vokyenin Fransadakı erməni icması və Overn-Rona-Alplar bölgəsinin Xankəndi ermənilərinə "göndərdiyi" yardımı Laçın yolundan keçirəcəyi ilə bağlı açıqlaması Fransanın növbəti təxribata hazırlaşdığını göstərir. Açıqlamanın məzmun və formasından aydın hiss olunur ki, əslində, belə bir "humanitar missiya"-nın təşkilində məqsəd heç də Xankəndi ermənilərinə yardım göstərmək deyil. Məqsəd məlum karvanı Fransa bayrağı altında Laçın yolundan keçirməklə bu yolun humanitar yüklərə açıq olub-olmadığını test etmək, bu zaman süni gərginlik yaratmaqla Xankəndinin blokadada olması yalanına dəstək verməkdir.

"Humanitar yardım" karvanının Fransa bayrağı altında hərəkət etməsinin özü də rəsmi Parisin Bakı ilə bilavasitə toqquşma və gərginliyə girməyə can atdığını göstərir. Məqsəd Azərbaycan tərəfinin Fransa bayraqlı konvoyun hərəkətinə mane olduğu, Xankəndi ermənilərinin "ağır blokada" şəraitində yaşadığı, Bakının erməniləri "beynəlxalq aləmin yardımından məhrum etməsi" ilə bağlı yeni yalanlar uydurmaq üçün bəhanə formalaşdırmaqdır. Bu mənada, Fransanın Xankəndiyə göndərməyi planlaşdırdığı "sülh karvanı" toqquşma və gərginliyə, təxribat və qarşıdurmaya hesablanıb.

## Xankəndiyə yol Bakının razılığından keçir

L.Vokyenin "humanitar karvanı"nı ekoaksiyaçıların nəzarətində olan Laçın yolu ilə Xankəndiyə aparmaq niyyəti, bu niyyətin nümayişkaranə şəkildə elanı Fransanın siyasi mədəniyyət və hüquqi etikadan uzaq olduğunu göstərir.

Regional şura sədri konvoyu Laçın yolundan keçirəcəklərini elə əmin şəkildə dilə gətirir ki, sanki, bu yol, bu torpaqlar Fransanın Cənubi Qafqazdakı mülkiyyətidir və Paris bundan istifadəyə görə kimdənsə razılıq almağa ehtiyac duymur. Halbuki, Laçın yolu kimi fransızların getmək istədikləri Xankəndi torpağı da Azərbaycan ərazisidir və bu ərazidə hər hansı fəaliyyətə görə Fransanın rəsmi Bakını məlumatlandırması, ondan razılıq alması vacibdir. Bunu həm beynəlxalq hüquq, həm də elementar diplomatik mədəniyyət tələb edir. Ancaq görünən budur ki, Fransa beynəlxalq hüququ heçə saymaqla yanaşı, adi diplomatik mədəniyyətin tələbini də yerinə yetirmək niyyətində deyil.

Loran Vokyenin məlum açıqlaması Fransanın başqa dövlətlərin ərazi bütövlüyünə, xalqların suverenliyinə hörmət etmədiyini, öz məqsəd və mənafeyi naminə beynəlxalq qanunları belə asanlıqla tapdaladığını göstərir.

Şübhəsiz, cənab Vokyenin nə deməyindən, separatçılar qarşısında hansı öhdəlik götürməsindən, aparacağı yükün təyintından asılı olmayaraq, istənilən karvanın Xankəndiyə daxil olması yalnız Azərbaycan tərəfinin razılığı ilə mümkündür və bu, heç vaxt dəyişməyəcək.

## Terrorçuya humanitar dəstək

Fransanın Xankəndiyə göndərməyi planlaşdırdığı yardımın təyinatı da şübhə doğuran məqamlardan biridir. Buna səbəb bu "yardım"ın ordumuzun tarixin zibilliyinə atdığı separatçı rejimin "xarici işlər naziri" Sergey Kazaryanla görüşdə elan edilməsi, terrorçulara ünvanlanmasıdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikası və sivil dünya mövcud olduğu on illər ərzində separatçıların Qarabağda yaratdığı qurama "dövlət"i heç vaxt tanımayıb. 44 günlük Vətən müharibəsinin nəticəsində Qarabağdakı qondarma "dövlət"in də varlığına son qoyulub. Qarabağın işğaldan azad edildiyi, dövlətimizin ərazi bütövlüyünün təmin edildiyi bir vaxtda Fransanın olmayan dövlətin "naziri" ilə görüş keçirməsi, ona yardım vəd etməsi Loran Vokyenin məkrli niyyətindən xəbər verir. Bu fakt onu göstərir ki, Fransa olmayan terror dövlətini tanımaq, onu dirçəltmək, ona yenidən həyat vermək üçün hər cür avantüraya hazırdır. Bu baxımdan, Fransanın Xankəndiyə göndərəcəyi yardımın, həqiqətən də, humanitar təyinatlı olacağı inandırıcı deyil.

Bundan başqa, unutmaq olmaz ki, beynəlxalq qanunvericilik və normal əxlaq terrorçu ilə hər hansı təması, o cümlədən, ona humanitar yardım göstərməyi də qəbuledilməz hesab edir. Belə olan halda, Fransanın maşın konvoyunun, həqiqətən, humanitar yardımdan ibarət olması belə, rəsmi Parisin terrorçu ilə əməkdaşlıq faktından, bunun doğurduğu məsuliyyətdən heç nə azaltmayacaq.

***Seymur ƏLİYEV, "Xalq qəzeti"***

# Hərbçilərinin dörddəbiri fərarilik edən dövlət hansı üzlə revanşdan danışır?

## *Azərbaycanın isə bir nəfər də fərarisi olmayıb*

**Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev həm 44 günlük İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə, həm də şanlı Qələbəmizdən sonrakı çıxış, nitq, müsahibə və müraciətlərində dəfələrlə demişdi ki, bizim əsgərlərimiz aslanlar kimi vuruşurlar. Çünki onlar öz torpaqları, Vətənləri naminə döyüşdüklərini bilirlər. Ermənistan ordusunun on min hərbçisinin fərarilik etməsinin səbəbi də məlumdur. Onlar bilirdilər ki, özgə torpaqlarında, işğalçılıq müharibəsində iştirak edirlər.**



Dövlət başçımız bu il martın 19-da Novruz bayramı münasibətilə Tərtər rayonunun Talış kəndində xalqa müraciətində isə dedi: "Biz 44 gün ərzində döyüş meydanında Azərbaycan xalqının gücünü və yüksək mənəvi keyfiyyətlərini göstərmişdik. Bir nəfər də olsun bizim ordumuzdan qaçan olmamışdır. Ermənistan ordusunda son məlumata görə 10 min yox, 11 min fərari olmuşdur. İkinci Qarabağ müharibəsinin nəticələrini heç kim yaddan çıxarmasın. Yeni reallıqları hər kəs qəbul etməlidir".

Təkcə Ermənistanda deyil, onlara havadarlıq edən ölkələrdə də dövlət başçımızın həm 2020-ci ilin payızında söylədiyi fikirləri, həm də, təxminən, 20 gün əvvəlki arqumentlərini təkzib etməyə çalışanlar tapılmışdı. Ancaq "cidanı çuvalda gizlətmək olmur". Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyanın etirafları həqiqəti çuvaldan çıxarıb.

İşğalçı ölkənin mətbuat vasitələri yazırlar ki, son müharibə zamanı ölən erməni hərbi qulluqçu David Şahnazaryanın anadan olmasının 23-cü ildönümünə həsr olunmuş tədbirdə çıxış edən Akopyan deyib ki, 44 günlük müharibədə Ermənistan ordusunda fərarilərin sayı 11 min nəfər təşkil edib: "11 min fərarimiz var idi. 11 min hərbçi, könüllü, zabit... Bu isə ordumuzun 25 faizi deməkdir".

Bu ilin yanvarında başqa bir erməni isə kinayə ilə demişdi ki, biz ordudakı fərarilərin sayının artmaması üçün bir çox hərbçimizi səngərlərə zəncirləyən komandirlərə minnətdarıq. Sonra təəssüflə əlavə edirdi ki, səngərə bağlananlar fərarilərin sayının artmasına səbəb olmasa da, ölən və əsir götürülənlərin sayını kifayət qədər artırmışdı.

Xatırladaq ki, bu fakt Anna Akopyanın müasir Ermənistanın eybəcərliklərini ifşa edən ilk etirafı deyil. O, ötən il dekabrın son günlərində başqa bir erməni iyrəncliyini də lənətləmişdi. Görünür, ixtisasca jurnalist olması onun dilini dinc qoymur.

Ermənistan mətbuatı yeni il qabağı yazırdı ki, Anna Akopyan Qarabağ ermənilərinə "Uşaqların arxasında gizlənməyə son qoyun!" – deyə çağırış etmişdir. Qeyd edilirdi ki, Xankəndidə uşaqların bayram tədbiri keçirməsi üçün Anna Akopyanın fondu tərəfindən quraşdırılan çadırlar və milad yolkası sökülüb. Baş nazirin arvadı isə özünün "Facebook" səhifəsində yazırdı ki, həqiqətən də, yolka və uşaq pavilyonlarını sökdülər, tədbir ləğv olundu: "Kiçik qəlblərinə müharibənin bütün qəddarlıqlarını sığdıran uşaqları, üçgünlük də olsa, acı həqiqətdən qopmağa qoymadılar. Göründüyü kimi, böyüklər ürəksiz, qəlbsizdir. Özü də onlardan, bu, heç tələb də olunmurdu".

Akopyan yazırdı ki, təşkil olunmuş tədbir böyüklər üçün deyildi: "Onlar nə plastilindən evciklər qurmalı, nə kimyəvi təcrübələr aparmalı, nə də nağıllar danışmalı idilər... Heç bir konsertin planlaşdırılmamasına baxmayaraq, Qarabağ erməniləri uşaqlara qarşı eqoistcəsinə davranıb. İndi isə həmin böyüklər eyni uşaqların əlinə ürəkağrıdan yazılar verir, yolkaların qarşısına qoyur, şəkil çəkdirirlər. Onlar uşaqlara kədərli mətnləri əzbərlədir və videolar çəkir, onların iştirakı ilə müxtəlif aksiyalar təşkil edir, mərhəmət hissini oyatmaq və çadırları sökmək üçün dünyanın hər yerinə aparırlar".

Qarabağ ermənilərinin körpə uşaqların beynini düşmənçilik düşüncəsi ilə doldurmasına etiraz edən Akopyan əlavə edirdi ki, uşaqların ərazi məsələlərindən başı çıxmır və mütləq onlarda suallar ortaya çıxacaq: "Uşaqlar heç vaxt başa düşməyəcəklər ki, Xankəndinin mərkəzində onlar üçün qurulmuş çadırlar necə oldu ki, atalar və anaları tərəfindən bu qədər asanlıqla söküldü. Bu sual, şübhəsiz ki, böyüklərə ünvanlanacaq və çətin ki, təsəlliverici cavab tapa bilsinlər".

Baş nazirin arvadı sonda Qarabağ ermənilərinə müraciət edirdi: "Nə vaxtsa uşaqların, 18-20 yaşlı əsgərlərin arxasında gizlənməyə son qoymalıyıq. Və o gün nə qədər tez gəlsə, faciələrimiz bir o qədər tez bitəcək".

Bəlkə də, Akopyanın son etirafının əsas məqsədi 44 gündə hərbçilərinin dörddəbirinin fərarilik etdiyi ölkənin revanş və ya yeni müharibələr barədə düşünməsinin absurd və gülünc olduğunu bəyan etməkdir. Ancaq mən bu sətirlərdə onun etiraflarına şərh vermək yox, erməni xəstəliyinin, rəzalətinin bəzi detallarının məhz Ermənistan dövlətinin təmsilçisi tərəfindən ifşa olunduğunu söyləmək istədim.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Ölkəmizdə köhnə avtomobillərin sonu çatır

**Hazırda dünyanın inkişaf etmiş ölkələrində nəqliyyat parkının yenilənməsi məqsədilə istismar müddəti keçmiş avtomobillər utilizasiya prosesinə cəlb edilir. Artıq bu sahədə beynəlxalq təcrübə də formalaşıb. Hətta köhnə avtomobillərin utilizasiyası ilə məşğul olan iri şirkətlərin sayı 200-ü ötüb.**

Amerika Birləşmiş Ştatlarında bu fəaliyyətlə məşğul olan minlərlə müəssisə mövcuddur. Bu sahədə çalışanların sayı isə 40 min nəfərdən artıqdır. Məhz bunun nəticəsidir ki, bu ölkədə hər il 15 milyondan çox avtomobil utilizasiya edilir. Artıq bu proses Avropanın qabaqcıl ölkələrini də əhatə edib.

Son illər ölkəmizdə də bu məsələ getdikcə aktuallığını artırır. Belə ki, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nda ölkəmizdə yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq, eləcə də yerli avtomobil istehsalını stimullaşdırmaq məqsədilə köhnə, texniki-təhlükəsizlik və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin utilizasiya proqramının hazırlanması və tətbiqi nəzərdə tutulub. Bundan əlavə, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi cəhətdən köhnəlmiş nəqliyyat vasitələrinin idxalının və istifadəsinin məhdudlaşdırılmasına dair tədbirlərin görülməsi qeyd olunur.



Artıq bu məqsədlə bir neçə dövlət qurumu tərəfindən birgə layihə hazırlanıb. Layihədə yol hərəkəti və ekologiya üçün təhlükəli hesab edilən istismara yararsız nəqliyyat vasitələrinin utilizasiyası, yollarda şütüyən köhnə avtomobillərin mərhələli şəkildə yeniləri ilə əvəzlənməsi nəzərdə tutulur. Yeri gəlmişkən, istismar müddətini başa vurmuş, ekoloji cəhətdən zərərli hesab edilən nəqliyyat vasitəsini utilizasiyaya göndərən avtomobil sahiblərinə müəyyən güzəştlərin tətbiqi məsələləri də istisna olunmur. Bu məqsədlə İqtisadiyyat Nazirliyi tərəfindən köhnə nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı proqramın hazırlanması və tətbiqi istiqamətində işlər davam etdirilir.

Yeri gəlmişkən, son araşdırmalara əsasən, Azərbaycanda istismarda olan avtomobillərin 80 faizindən çoxunun istehsal tarixi 10 ili ötüb. Hətta bu gün ölkənin avtomobil yollarında ötən əsrin 70-80-ci illərində istehsal olunmuş nəqliyyat vasitələrinə də rast gəlmək mümkündür. Bütövlükdə isə, hazırda Azərbaycanda hər 20 avtomobildən biri həddindən artıq köhnəldiyindən istismara yararsız hesab olunur. Ekspertlər bildirirlər ki, istehsal tarixi ötən əsrin 90-cı illərinə təsadüf edən avtomobillər belə, nasazlıq ucbatından tez-tez təmir sexlərinə gətirilir. Həmin maşınlar təmir olunsa da, onlar ölkənin nəqliyyat parkının yenilənməsinə əngəl törətməklə yanaşı, ekoloji tarazlığın pozulmasına, eləcə də yol-nəqliyyat hadisələrinin artmasına səbəb olur. Elə nəqliyyat üzrə ekspertlər də son illər köhnə avtomobillərdə yaranan texniki nasazlıq səbəbindən qəzaların sayının artdığını deyirlər. Dövlət Statistika Komitəsinin açıqlamasına əsasən, 2022-ci ildə Azərbaycanda 1668 yol-nəqliyyat hadisəsi baş verib ki, bu da əvvəlki illə müqayisədə 1,2 faiz çoxdur. Bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 6,1 faiz artaraq 2290 nəfər təşkil edib. Onlardan 834-ü həlak olub, 1456-sı isə yaralanıb.

Qeyd etdiyimiz kimi, avtomobillərin istismar müddəti artdıqca onların ətraf mühitə atdığı zərərli qazların həcmi də çoxalır. Elə ekoloqlar da atmosfer havasının çirklənməsində köhnə avtonəqliyyat vasitələrinin əsas rol oynadığını bildirirlər. Onu da qeyd etmək lazımdır ki, Paris İqlim Sazişinin tələblərindən biri də karbon emissiyalarının azaldılması ilə bağlıdır. 2016-cı ildə bu sazişə qoşulan Azərbaycan Respublikası da 2030-cu ilə qədər istixana qazlarının emissiyalarının səviyyəsinin 35 faiz azaldılmasını qarşıya mühüm hədəf kimi qoyub. Bu məqsədə çatmağın yollarından biri isə, heç şübhəsiz, ölkənin nəqliyyat parkının yenilənməsi, ekoloji cəhətdən təmiz avtomobillərin sayının artırılmasına nail olmaqdan ibarətdir.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*

**Eldəniz CƏFƏROV,**
**avtomobil nəqliyyatı üzrə ekspert:**



– Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramında köhnə, istismara yararsız avtomobillərin utilizasiyası məsələsinə xüsusi yer ayrılıb. Eyni zamanda proqramda utilizasiyanın məcburi xarakter daşımaması qeyd olunub. Bu, o deməkdir ki, proses könüllü həyata keçiriləcək. Yəni hər hansı bir vətəndaşın istifadəsində olan nəqliyyat vasitəsi onun əlindən məcburi şəkildə alınmayacaq.

Bu zaman köhnə maşınını könüllü olaraq utilizasiyaya verən vətəndaşa onun avtomobilinin məbləğinə uyğun vauçer təqdim olunacaq. Vətəndaş isə həmin vauçer əsasında rəsmi diler və ya distributora yaxınlaşaraq yeni avtomobil almaq imkanı qazanacaq. Bununla yanaşı, bu zaman dövlət biznesi də utilizasiya proqramına cəlb ediləcək. Bu isə dövlət-biznes dialoqu əsasında həyata keçiriləcək. Eyni zamanda rəsmi diler və ya distributorlar avtomobilini utilizasiyaya verən vətəndaşa ona təqdim olunan vauçerlə müəyyən güzəştlər verə biləcəklər. Bununla da, vətəndaşın yeni avtomobilə sahib çıxmaq imkanı xeyli asanlaşacaq.

Bir məqamı da qeyd edim ki, utilizasiya prosesi 2019–2023-cü illər üçün nəzərdə tutulan proqramda təsbit olunsa da, bu proqramın bir layihə olaraq həyata keçirilməsi 2022–2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasında öz əksini tapıb.

Yeri gəlmişkən, utilizasiya proqramı olduqca böyük sosial və iqtisadi bir layihədir. Hər bir ölkə isə belə bir layihəni həyata keçirmək iqtidarında deyil. Yalnız iqtisadiyyatı dayanıqlı olan, inkişaf etmiş ölkələr utilizasiya proqramını reallaşdıra bilirlər. Bu gün Azərbaycanın iqtisadi qüdrəti utilizasiya proqramına getməyə tam imkan verir. Sadəcə, bu proqrama getməzdən öncə müəyyən mərhələlərdən keçilməlidir. İlk növbədə, vətəndaşlar üçün yeni avtomobillərin əlçatmazlığı təmin edilməlidir. Artıq bu sahədə dövlət müəyyən addımlar atıb. Digər tərəfdən, utilizasiya proqramını uğurla həll etmək üçün ölkədə müvafiq sənaye yaradılmadır. Çünki utilizasiya olunan nəqliyyat vasitələrindən alınan metal, şüşə, plastik, rezin və s. materialların təkrar emala yönəldiləcəyi, yaxud da onların ixrac ediləcəyi ilə bağlı bir konsepsiya olmalıdır. Bu konsepsiya isə utilizasiya sənayesini özündə əks etdirməlidir.

Məlum olduğu kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizin təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilməsi nəzərdə tutulur. Bunun üçün isə atmosferə buraxılan zərərli qazların miqdarının azaldılması və ekosistemin yaxşılaşdırılması istiqamətində müəyyən işlər görülməlidir. Göründüyü kimi, atmosferin çirklənməsinə səbəb olan köhnə nəqliyyat vasitələrindən qurtulmağın zamanı çatıb.



# Avropa Azərbaycanın "yaşıl enerji" potensialına böyük ümidlə baxır

**Bir müddət bundan əvvəl respublikamızda səfərdə olan "Fortescue Metals" və "Fortescue Future Industries" şirkətləri Direktorlar Şurasının sədri xanım Cin Baderşnayder Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verdiyini, ölkəmizin bu sahədə böyük imkanlarının, o cümlədən ixrac üçün kifayət qədər potensialının olduğunu vurğulayaraq deyib: "Azərbaycan enerji təhlükəsizliyi sahəsində böyük uğurlar əldə edir və Avropada xüsusi hörmətə malikdir. Bu ölkədə külək enerjisi əldə edilir, hətta termal stansiyalar var. Azərbaycanın enerji sahəsində uğurlarının daha çox olacağına inanıram. Azərbaycan investisiya üçün əlverişli dövlətlərdən biridir. Bax, elə buna görə də Azərbaycan ilk və bəlkə də yeganə hidrogen habına çevrilmək imkanına malikdir".**

Bu, bir daha onu göstərir ki, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, respublikamızın iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan ümumi "yaşıl enerji" potensialı 200 qiqavatdır. Dənizdə külək enerjisinin potensialı 157 qiqavat, quruda külək və günəş enerjisinin potensialı 30 qiqavata, işğaldan azad olunmuş ərazilərdə isə enerji potensialı 10 qiqavata yaxındır.

Hazırda ölkəmizdə "yaşıl enerji" layihələrinə dair bir sıra anlaşmalar intensiv şəkildə davam etdirilir. İmzalanan icra müqavilələri isə 25 qiqavat gücündə "yaşıl enerji"nin istehsalını nəzərdə tutur. Bu gün Azərbaycanın enerji sisteminin qoyuluş gücü 8 qiqavatı keçmir. Bu həcmdə "yaşıl enerji"nin istehsalı, təbii ki, onun sonradan istifadəsi ilə bağlı müəyyən məsələləri həll etməyi nəzərdə tutur. Bununla bağlı hidrogen istehsalına "yaşıl enerji"nin yönəldilməsi, eyni zamanda, "yaşıl elektrik enerjisi"nin ixracı istiqamətində ciddi addımlar atılır. Enerji ixracı ilə bağlı ötən ilin sonunda 4 ölkə–Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış müqavilə üzrə artıq böyük əhəmiyyətə malik perspektiv iş aparılır.

Hazırda SOCAR "yaşıl enerji" sahəsində beynəlxalq konsaltinq şirkəti ilə əməkdaşlıq edir. Bu əməkdaşlığa az karbon emissiyası, istixana və qaz tullantılarının azaldılması və s. daxildir. Altı ay ərzində SOCAR-ın öz hədəflərini müəyyənləşdirəcəyi nəzərdə tutulur. Burada əsas məqsəd reytinqlərdəki vəzifələrə uyğunlaşmaqdır.

Prezident İlham Əliyev Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə martın 13-də Berlində keçirdiyi görüşdə bununla bağlı ətraflı bəhs edib. Dövlətimizin başçısı respublikamızda bərpaolunan enerji mənbələrinin böyük potensialı olduğunu bildirib. Ölkə rəhbəri bu fikri konkretləşdirərək Azərbaycanda külək və günəş enerjisi mənbələrinin potensialının 200 qiqavata yaxın olduğunu vurğulayıb. Prezident İlham Əliyev belə bir ehtiyat hesabına bu gün xarici sərmayədarların cəlbinin, həmin enerji həcmlərini ixrac etmək məqsədilə lazımi ötürmə imkanlarının da diqqətdə saxlanıldığını deyib.

Xatırladaq ki, hazırda ölkəmizin BP ilə birgə icra etdiyi Səngəçal terminalına elektrik enerjisinin verilməsi layihəsi də Azərbaycanın bərpaolunan enerji siyasətindən qaynaqlanır. BP-nin Qarabağın azad olunmuş şəhərlərindən birində – Cəbrayılda 240 meqavat gücündə günəş enerji stansiyasının tikintisində birbaşa xarici sərmayədar olması da bunun bariz ifadəsidir. İstehsal olunmuş həmin enerjinin respublikamızın enerji sisteminə daxil ediləcəyi nəzərdə tutulur.

BP ilə birgə icra edilən Səngəçal terminalına elektrik enerjisinin verilməsi layihəsi gerçəkləşəndən sonra burada "mavi yanacaq"dan istifadə dayandırılacaq. Həmin qaz boru kəmərinə daxil ediləcək və Avropaya yönləndiriləcək. Bir sözlə, burada dövlətimizin başçısının vurğuladığı kimi üçtərəfli uduşlu vəziyyət yaranır. Yəni Azərbaycan 240 meqavatlıq günəş enerji stansiyasını alır, BP-nin Səngəçal terminalı karbonsuz və daha səmərəli qaydada fəaliyyət göstərməyə başlayır və orada işlədilən qaz Avropaya ixrac olunur. Göründüyü kimi, sözügedən layihə enerji səmərəliliyi baxımından mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə Berlin görüşündə səsləndirdiyi bir fikri də diqqətə çatdırmaq istərdik. Bu, xarici investorların ölkəmizin bəroaolunan enerji potensialına marağının reallaşdırılması ilə bağlı məsələdir. Ölkə rəhbəri həmin toplantıda qeyd edib ki, Azərbaycanda elektrik enerjisi ilə bağlı mövcud daxili qiymətlər xarici sərmayədarlar üçün sərfəlidir. Elə buna görədir ki, artıq iki əcnəbi qlobal enerji şirkəti– "Masdar" və "ACWA Power" tərəfindən ümumi həcmi 470 meqavat olan layihələr reallaşdırılır. Bu yaxınlarda isə BP ilə 240 meqavat təşkil edəcək yeni bir layihə ilə əlaqədar təməlqoyma mərasiminin gerçəkləşəyi gözlənilir. Beləliklə, üç əsas enerji şirkəti hesab edir ki, Azərbaycanda bərpaolunan enerji sahəsində qiymətlər, tənzimləyici qaydalar və biznes mühit münasibdir.

Onu da deyək ki, "ACWA Power", "Masdar", BP və "Fortescue" resursları hesabına reallaşdırılacaq bərpaolunan enerji layihələrinin ümumi həcm səviyyəsi 25 qiqavatdır. Beləliklə, əminliklə deyə bilərik ki, Azərbaycan yaxın dövrdə Avropa üçün vacib "yaşıl enerji" təchizatçısına çevriləcək və Avropanın enerji təchizatında önəmli rol oynayacaq.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert:**



– Azərbaycan son illər bir sıra ölkələrlə "yaşıl kimya", "yaşıl enerji", "yaşıl enerji zonası", "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsasında sıx əməkdaşlıq edir. Bu münasibətlər dövlətlərin siyasi və iqtisadi ortaq maraqlarını şərtləndirir, eyni zamanda, respublikamız üçün geosiyasi üstünlüklər qazandırır. Çünki Avropanın enerji təhlükəsizliyində rol almaq Azərbaycanın müstəqil siyasi xəttinin daha da güclənməsinə önəmli təsir göstərir.

Belə bir şərait, daha konkret ifadə etsək, uğurlu enerji siyasəti Azərbaycanı Avropanın enerji bazarında nüfuzlu iştirakçıya çevirir. İndiyə kimi əldə olunan uğurlu təcrübə –"yaşıl enerji" potensialının düzgün istifadəsi ölkəmizin cəlbediciliyini daha da artırır. Bu isə Azərbaycanın çox böyük "yaşıl enerji" potensialına malik olmasından xəbər verir.

Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın Avropa Komissiyası sədrinin iştirakı ilə "yaşıl enerji"nin ötürülməsinə dair imzalanan saziş əsasında Xəzər dənizindəki külək enerjisi stansiyalarından Avropaya ötürmə xəttinin çəkiləcəyi, həmin xəttin bir hissəsinin Qara dənizin dibi ilə aparılacağı və bununla bağlı hazırda respublikamızda texniki əsaslandırma prosesinin reallaşdırıldığı bildirilir.

Onu da qeyd edim ki, Azərbaycan 2030-cu ilədək enerji balansında bərpaolunan enerji payının 30 faizə yüksəldilməsini qarşıya mühüm vəzifə kimi qoyur. Bu, ölkəmizdə enerji təhlükəsizliyinin və dayanıqlı iqtisadi inkişafın gücləndirilməsi, habelə ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından olduqca mühüm önəm daşıyır.

Bütün bunlar isə ondan xəbər verir ki, ölkəmiz beynəlxalq "yaşıl enerji" bazarında vacib təchizatçıya və oyunçuya çevrilmək ərəfəsindədir. Bu, ilk növbədə, Azərbaycanın "yaşıl hidrogen"i ixrac etmək niyyətindəki qəti mövqeyi ilə bağlıdır. Bununla bərabər, bərpaolunan enerji potensialının reallaşdırılması, "yaşıl enerji" sahəsində keçidin olduqca sürətlə gerçəkləşməsi də yaxın perspektivdə bu istiqamətdə əldə ediləcək uğurlardan xəbər verir.

# Qeyri-neft sektorunun ÜDM-də payı yüksəlir

**Qeyri-neft-qaz sektorunun inkişafı sayəsində onun ÜDM-də payı Azərbaycanın ən yaxın tarixində maksimuma çatacaq. Bu fikri "Qazprombank"ın Bazarın Təhlili Departamentinin rəis müavini Gülnarə Xaydarşina bildirib.**



O, aparılan hesablamalara əsaslanaraq Qarabağda yeni layihələr və Azərbaycanın Avrasiya regionunda artan logistik əhəmiyyəti sayəsində qeyri-neft-qaz sektorunun hazırkı inkişaf tempini saxlamaqla 2024-cü ilə qədər onun ÜDM-də payının 70 faizə yaxınlaşacağını diqqətə çatdırıb. Rəis müavini, eyni zamanda, bu göstəricinin Azərbaycanın ən yeni tarixindəki maksimum səviyyəyə uyğun olacağını vurğulayıb.

G.Xaydarşina qeyd edib ki, 2026-cı ilə qədər Qarabağda layihələrə təxminən 10 milyard ABŞ dolları (ÜDM-in 18 faizi) sərmayə qoyulması planlaşdırılır, xarici investorlar (o cümlədən Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, Böyük Britaniya və Rusiya) fəal şəkildə cəlb olunur.

"Qazprombank"ın nümayəndəsi əlavə edib ki, infrastrukturun və sosial əhəmiyyətli obyektlərin modernləşdirilməsi ilə yanaşı, qeyri-neft-qaz məhsullarının istehsalına, habelə ixracına yönəlmiş yeni sənaye və iqtisadi zonalar yaradılacaq.

**"Xalq qəzeti"**



# Sumqayıt Kimya Sənaye Parkının ixrac coğrafiyası genişlənir

**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "SOCAR Karbamid" zavodu ixrac coğrafiyasını genişləndirir. Bu günlərdə zavod tərəfindən Sloveniyaya karbamid gübrəsi ixracına başlanılıb. İlkin mərhələdə bu ölkəyə 5 min tona yaxın karbamid gübrəsi göndərilib.**

Qeyd edək ki, indiyədək müəssisədə istehsal olunan məhsullar "Made in Azerbaijan" brendi ilə dünyanın 23 ölkəsinə (Brazilya, Hindistan, Türkiyə, Rusiya, İsrail, Polşa, Yunanıstan, Rumıniya, Bolqarıstan, Albaniya, İtaliya, Gürcüstan və s.) ixrac edilib.

**"Xalq qəzeti"**

**Kəlbəcərin Ermənistan tərəfindən 1993-cü il aprelin 2-də işğal edilməsi nəticəsində günahsız insanlara vəhşicəsinə divan tutuldu, 511 dinc sakin öldürüldü, 321 nəfər isə əsir götürüldü və itkin düşdü, 58 min rayon sakini ata-baba torpağından didərgin salındı. Bununla yanaşı, Ermənistan tərəfindən rayonun bütün yaşayış məntəqələri, infrastrukturu, qədim və zəngin maddi-mədəni irsi məhv edildi. Bölgədə yerləşən və Azərbaycanın qədim alban xristian irsinə aid olan monastrların original arxitektur xüsusiyyətləri dəyişdirilərək erməniləşdirildi.**

# Bir güllə atılmadan azad edilən Kəlbəcər!



Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası tərəfindən 822 saylı qətnamə qəbul edildi. Bu sənəddə bütün işğalçı qüvvələrin Kəlbəcərdən və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunsa da, həmin qətnamə, o cümlədən sonradan qəbul edilən daha 3 qətnamə yerinə yetirilmədi. BMT və ATƏT-in prinsiplərinə zidd şəkildə 1999-cu ildən başlayaraq, Kəlbəcər rayonu ərazisində Ermənistan tərəfindən süni şəkildə məskunlaşdırma aparıldı.

Lakin Azərbaycan xalqı özü beynəlxalq qanunların aliliyini və tarixi ədaləti bərpa etdi. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər nəticəsində imzalanmış Üçtərəfli bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Rayonun bir güllə atılmadan, heç bir itki verilmədən düşməndən geri alınması Prezident, Ali Baş Komandan İlham Əliyevin döyüş meydanında olduğu kimi, diplomatik müstəvidə də qalib sərkərdə olduğunu təsdiqlədi.

Yeri gəlmişkən, rayonun şimal hissəsi Vətən müharibəsinin ilk günlərində ordumuz tərəfindən işğalçılardan azad edilmişdi. Kəlbəcərdəki strateji yüksəkliklərin götürülməsi ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna nəzarətə imkan verdi. Nəticədə isə Ermənistan ordusunun hərəkətləri rəşadətli ordumuz tərəfindən iflic vəziyyətinə salındı.

Kəlbəcərin azad edilməsi tarixi hadisə idi. Rayonun işğal altına düşməsi isə xalqımızın böyük faciəsi idi. Çünki Laçın və Şuşa rayonları 1992-ci ilin may ayında ələ keçiriləndən sonra ermənilərin növbəti hədəfi Kəlbəcər idi. Bu məsələdə isə əsas günahkar o dövr hakimiyyətdə olan Azərbaycan rəhbərliyinin bacarıqsızlığı, naşılığı, qətiyyətsizliyi idi. Prezident İlham Əliyev bu barədə çıxışlarının birində deyib: "Hər kəs bilir ki, Şuşa və Laçının işğala məruz qalması AXC–Müsavat cütlüyünün xəyanəti nəticəsində baş vermişdir. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC–Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC–Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə, artıq AXC–Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi…".

Yuxarıda qeyd etdiyimiz kimi, rayon işğal dövründə tamamilə dağıdılıb. Yeri gəlmişkən, düşməndən təmizləndikdən sonra Kəlbəcərə səfər edən Prezident İlham Əliyev buradakı erməni vəhşiliyi ilə bağlı deyib: "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".

Səfər zamanı dövlətimizin başçısı və birinci xanım tərəfindən Göygöl və Kəlbəcər rayonlarını birləşdirəcək Toğanalı–Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin təməli qoyuldu. Bundan əlavə, Kəlbəcər–Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin də inşasına başlanıldı.

Ötən il şəhərin Baş planı Azərbaycan Prezidentinə təqdim olunub, rayonda İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimi keçirilib. 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyası istismara buraxılıb.

Kəlbəcər rayonunda həyata keçirilən layihələr sırasında Toğanalı–Kəlbəcər avtomobil yolunun inşası xüsusi əhəmiyyət kəsb edir. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun layihə uzunluğu 80,7 kilometrdir.

Toğanalı–Kəlbəcər, Kəlbəcər-Laçın avtomobil yolu üzərində Murovdağda tunelin inşası, "Kəlbəcər-1" Kiçik Su Elektrik yarımstansiyasında işlər sürətlə aparılır.

Beləliklə, Kəlbəcər ərazisinin dağlıq relyefi, füsunkar təbiət mənzərələri, keyfiyyətli su ehtiyatları və tarixi abidələri buranın gələcəkdə turizm məkanı kimi şöhrət tapacağına zəmin yaradır. Rayon ərazisi turizmin də inkişafı üçün böyük potensiala malikdir. Kəlbəcərdə infrastrukturun yaradılması xarici ölkələrdən turistlərin Kəlbəcərə cəlb olunmasına şərait yaradacaq.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

*Ekoaksiyanın gündəliyi*

# Talançılığın erməni siması

## *Xarici jurnalistlər aksiya keçirilən ərazidə olublar*




**Laçın–Xankəndi yolunda 114 gündən bəri davam edən etiraz aksiyası siyasi məqsəd daşımasa da, nəticə etibarı ilə milli maraqlarımızın təmin olunmasına yönəlib. Aksiyaçılar ekoloji talana, iqtisadi cinayətlərə etiraz edirlər.**

Azərbaycanlı könüllülərin haqq səsi dünyanın bir çox mediasında eşidilir. Dünya mətbuatının nümayəndələri bir neçə dəfə aksiya keçirilən əraziyə gəliblər. Belə səfərlərdən biri də aprelin 2-də baş tutub. Belə ki, Şuşada səfərdə olan media nümayəndələri – britaniyalı jurnalist Eror Alexsandar və serbiyalı fotoqraf Knezevic Nemanja Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi–Laçın yolunda keçirilən etiraz aksiyası ilə tanış olarkən yolun humanitar məqsədlər üçün açıq olduğuna şahidlik ediblər.

Əcnəbi media nümayəndələri söhbət əsnasında etiraz aksiyası barədə məlumatlandırılıblar. Onlara aksiyanın məqsədi və etirazçıların tələbləri barədə informasiya verilib. Qeyd edilib ki, aksiyanın keçirilməsində məqsəd ekoloji cinayətlərə son qoyulmasıdır. Yol humanitar məqsədlər üçün tam açıqdır və heç bir blokadadan söhbət gedə bilməz.

Həmçinin xarici media nümayəndələrinə aksiyanın dinc şəkildə keçirildiyi barədə məlumat verilib. Bununla yanaşı, əcnəbi jurnalistlər Azərbaycanın işğaldan azad olunan ərazilərində, xüsusən də Şuşada aparılan bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıb.

Qarabağda davam edən ekoloji terror, separatçılıq, ümumilikdə, ölkəmiz üçün zərərlə nəticələnir, abadlıq-quruculuq işlərinin də ləngiməsinə səbəb olur. Gedən proseslər oradan didərgin salınmış Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının kobud şəkildə pozulmasıdır. Bu, həm də Azərbaycan iqtisadiyyatına ziyandır.

Qarabağdakı erməni separatçıları bütün hallarda beynəlxalq hüquq normalarını açıq şəkildə pozaraq, Azərbaycanın dünya ictimaiyyəti tərəfindən tanınan ərazilərində təbii sərvətlərimizi qeyri-qanuni istismar etməklə özbaşınalığa yol verirlər. Ermənistan silahlı qüvvələri üçtərəfli bəyanatın 4-cü maddəsində nəzərdə tutulduğu kimi, həmin ərazini tərk etməli idi. Lakin bu, baş vermədi. Onlar nəinki ərazidən getməyib, həm də daxili və xarici şirkətlərin cəlb edilməsi yolu ilə qeyri-qanuni qızıl və mis hasilatı ilə məşğul olublar. Bu qanunsuz əməllər ətraf mühitin çirklənməsinə, regionun ekoloji durumunda ciddi fəsadlar yaradacaq problemlərə səbəb olur.

Dünyanın bir sıra ölkələrinin aparıcı mətbuat orqanları azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın–Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyasının davam etdiyindən yazır. Məqalələrdə azərbaycanlı ekofəalların keçirdiyi aksiya ilə beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın Qarabağ bölgəsindəki faydalı qazıntı yataqlarının yerli ermənilər tərəfindən qanunsuz istismarına və ekologiyaya vurulan ziyana yönəltdikləri qeyd olunur. Bildirilir ki, üçtərəfli bəyanata uyğun olaraq, 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsindən sonra yola nəzarət üçün buraya müvəqqəti olaraq Rusiya sülhməramlıları yerləşdirilib. Ekofəallar Qarabağda ermənilərin qanunsuz istismarını pisləyirlər. Ancaq bəzi ermənipərəst media qurumları Ermənistanın yalan məlumatlarını tirajlamaqla məşğuldur.

Gün ərzində Şuşaya fasilələrlə qar yağıb, şaxtalı hava şəraiti hökm sürür. Aksiyaçıların toplaşdığı ərazidən keçən avtomobillərin hərəkətininin sərbəstliyi mütəmadi olaraq təmin edilir. Yol humanitar məqsədlər üçün açıqdır. Dünən yolda Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus 100-dan çox nəqliyyat vasitəsi maneəsiz hərəkət edib.

**Rizvan FİKRƏTOĞLU,**
**"Xalq qəzeti"**

# Azərbaycanda azad mediaya fundamental dəstək məramı

## *Vergi Məcəlləsinə dəyişiklik – risklərdən qorunma, iqtisadiyyatda təmsilçilik, müstəqillik və inkişaf*

Azərbaycan Prezidenti İlham Əliyev 2013-cü il noyabrın 24-də "Jurnalistlərin dostu" mükafatının təqdim edilməsi ilə bağlı mərasimdəki çıxışında bu mükafatın ona verilməsinin böyük məna daşıdığını vurğulayaraq bildirmişdi: "Çünki ölkə Prezidentini "Jurnalistlərin dostu" adına sizin tərəfdən layiq görməyiniz, əlbəttə ki, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur. Mən bundan sonra da çalışacağam ki, Prezident kimi Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verim və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafını təmin edim. Çünki müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın qarşısında isə belə məqsəd qoyulub ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Belə olan halda, Azərbaycanda media ilə bağlı məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır".



Azərbaycanda azad medianın inkişafına dövlət səviyyəsində həmişə yüksək diqqət və qayğı göstərilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin aprelin 1-də "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunu təsdiqləməsi bunun növbəti əyani göstəricisidir. Qanunla audiovizual media istisna olmaqla, digər media subyektləri öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər, reklam gəlirləri və müvafiq maddi yardımlardan tutulan gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, eləcə də istehsal etdikləri media məhsullarının əlavə dəyər vergisindən 3 il müddətinə azad olunur.

Bəli, Prezidentin Vergi Məcəlləsinə dəyişikliyi təsdiqləməsi, Azərbaycan dövlətinin mediaya dəstək siyasətinin xarakterini bir daha ortaya qoydu. Dəstəyin fundamental tərəflərinə diqqət yetirildiyini də, həmçinin. Necə deyərlər, dövlətimiz mediaya balıq tutub vermir, balıq tutmaq üçün şərait yaradır. Son illər bu sahəyə dəstək məqsədilə atılan addımlar, o cümlədən, jurnalistlərə güzəştli ipoteka kreditinin verilməsi ilə bağlı müvafiq qaydalara dəyişikliyin olunması, kütləvi informasiya vasitələri məhsullarının nəşri ilə bağlı qəzet kağızının idxalı və satışı üzərindən əlavə dəyər vergisinin götürülməsi, indi isə Vergi Məcəlləsində edilmiş sözügedən dəyişiklik dövlətin mövcud istiqamətdəki siyasətinin davamlı xarakter daşıdığının göstəricisidir.

Onu da bildirək ki, ölkəmizdə mediaya dövlət dəstəyi ardıcıl və prinsipial prosesdir. Bu proses medianı bütöv orqanizm kimi nəzərdə tutur və fəaliyyətinin daha da optimallaşdırılmasına hesablanıb. Nəzərə alaq ki, mediaya dövlət dəstəyi siyasəti, eyni zamanda, bu sahənin bazarın təsirlərindən zəruri müdafiəsinin təşkili üzrə effektiv mexanizmdir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiqləməsi isə mexanizmin işləkliliyini bir daha sübuta yetirməkdədir.

Digər tərəfdən, ötən il qəbul edilmiş "Media haqqında" Qanunun 4-cü maddəsində medianın inkişafının təşviqi və media subyektlərinin fəaliyyətinin stimullaşdırılması tələbinin nəzərə alınması, əsas götürülməsi rəhbər tutulur. Vergi Məcəlləsinə dəyişiklik həmin qanuna uyğun olaraq həyata keçirilməkdədir ki, bu isə eyni zamanda media qanunvericiliyimizin işləkliliyinin vurğulanması nöqteyi-nəzərdən vacibdir.

Ümumən, medianın iqtisadiyyatımızda təmsilçiliyi son dərəcə vacib məsələdir. Zaman-zaman biz mövcud istiqamətdə müəyyən geriləmələrin şahidi olurduq. Vergilər Məcəlləsinə dəyişikliyin növbəti müsbət təsiri məhz həmin geriləmənin aradan qaldırılması ilə bağlı olacaqdır. Nəticə etibarilə reklam bazarında ciddi təmsilçilik medianın əlahiddə statusunun vurğulanmasına gətirib çıxaracaqdır. Bu, həm iqtisadi, həm də mənəvi baxımdan mühüm məsələdir. Nəzərə alaq ki, özünü təmin edən media orqanı daha çox müstəqil və azaddır. Bütün bunlar isə jurnalistikanın fəlsəfəsindən irəli gəlir.

Bu fəlsəfə ayrı-ayrı media təmsilçilərinin fikirlərində də kifayət qədər əhatəli təsvir olunur. Məsələn, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, media camеəsinin gözləntilərini doğruldan və günün tələblərinə adekvat olan dəyişiklik, media sektorunun sosial-iqtisadi durumuna müsbət təsir göstərəcək. "Azərbaycanın reklam bazarında medianın iştirak payının onsuz da aşağı olduğu bir vaxtda dövlət başçısının təsdiqlədiyi qanun bu sektorun üzləşdiyi maddi çətinlikləri əhəmiyyətli dərəcədə aradan qaldıracaqdır" – deyən R.Məcid əlavə edib ki, dəyişiklik qlobal böhran risklərindən qorunma təminatı olmaqla yanaşı, inkişaf üçün imkanların yaradılmasını, perspektivdə medianın sosial-iqtisadi cəhətdən güclənməsini və müstəqil fəaliyyətini şərtləndirir: "İndiki zamanda media sektoru üçün bundan yüksək dividend ola bilməz. Bu, həm də media subyektlərinin bazar münasibətlərində etibarlı tərəfdaş kimi tanınması baxımından çox önəmlidir".

Lakin çalışmaq lazımdır ki, bu fəaliyyət medianın vahid orqanizm kimi ölkə iqtisadiyyatında yerinin və mövqeyinin qərarlaşmasına imkan versin. Yəni, media subyektlərinin iqtisadi sferada sərbəst təmsilçiliyinin formalaşması, onların gəlirlərinin artması, redaksiyaların öz əməkdaşlarının həyat şəraitini yüksəltməsi, sosial vəziyyətini yaxşılaşdırması baxımından müsbət dinamikanı yaratması vacibdir. Bununla yanaşı, MŞ sədri vurğulayıb ki, güclü medianın informasiyalı cəmiyyətin əsas elementlərindən biri sayıldığını nəzərə alsaq, müasir dövrdə jurnalistikanın dövlət idarəçiliyində, cəmiyyət həyatında nə qədər müstəsna əhəmiyyət daşıdığı aydın olar. Bu mənada Azərbaycan dövlətinin ölkəmizdə medianın inkişafı istiqamətində atdığı bu ardıcıl addımlar, birmənalı olaraq, alqışlanmalı və təqdir edilməlidir.

MŞ İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli Trend-ə açıqlamasında bildirib ki, məlum dəyişiklik peşəkar medianın inkişafına və media subyektlərinin iqtisadi müstəqilliklərinin təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərə verilən çox mühüm dəstəkdir: "Qısa bir zaman kəsiyindən sonra peşəkar media subyektləri dövlət başçısının müvafiq fərmanı ilə qüvvəyə minən Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nun, daha qısa və aydın ifadə etsək, vergi güzəştlərinin təsirini öz fəaliyyətlərində ciddi şəkildə hiss edəcəklər". Onun sözlərinə görə, sözügedən əlavə və dəyişikliklər, eyni zamanda sosial şəbəkələrlə peşəkar media resursları arasındakı qeyri-bərabər rəqabətin mümkün qədər aradan qaldırılmasına, media sektorundakı sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına, reklam bazarının və biznes mühitinin kənar təsirlərdən sığortalanmasına və Azərbaycan mediasının, informasiya məkanının qorunmasına xidmət edir.

Bəli, sonda bir daha vurğulayaq ki, Prezident İlham Əliyevin qərarı ilə medianın vergilərdən azad edilməsi son illərdəki media islahatlarının məntiqi davamıdır. Əminik ki, bu islahat mediamızın qarşısında keyfiyyətcə yeni perspektivlər açacaq və zaman keçdikcə bu perspektivlər özünü konkret şəkildə göstərəcək.

**Ə.RÜSTƏMOV,**
**"Xalq qəzeti"**

# Ceyhun Bayramov Qazaxıstanın yeni təyin olunmuş xarici işlər nazirini təbrik edib

**Aprelin 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstan Respublikası Baş nazirinin yeni təyin olunmuş müavini, xarici işlər naziri Murat Nurtleu arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən redaksiyamıza bildiriblər ki, həmkarını Qazaxıstan Respublikası Baş nazirinin müavini, xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edən nazir Ceyhun Bayramov ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan ilə Qazaxıstan arasında mövcud ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq gündəliyindən məmnunluqla bəhs edən nazir Ceyhun Bayramov iki ölkə arasında dostluq, qardaşlıq və həmrəyliyə əsaslanan münasibətlərin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliyini bildirib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan və Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri, o cümlədən regionda cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

**"Xalq qəzeti"**




# Azərbaycanın xarici işlər naziri ilə qazaxıstanlı keçmiş həmkarı arasında telefon danışığı olub

**Aprelin 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstan Respublikasının keçmiş xarici işlər naziri Muxtar Tleuberdi arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən qəzetimizə bildiriblər ki, Ceyhun Bayramov Muxtar Tleuberdinin dost və qardaş Qazaxıstanın xarici işlər naziri vəzifəsində çalışdığı müddətdə ölkələrimiz arasında strateji xarakter daşıyan ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsində göstərdiyi səyləri məmnunluqla xatırlayaraq, münasibətlərimizin inkişafına verdiyi töhfəyə görə təşəkkürünü ifadə edib.

Nazir Ceyhun Bayramov Muxtar Tleuberdiyə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb.

**"Xalq qəzeti"**

4 Aprel Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günüdür

# Hayastan özü saatlı minanın üstündə oturub

**Ermənistanın postmüharibə dövründə Azərbaycana qarşı başlatdığı və bu gün də davam edən "mina müharibəsi" hayların özlərinin bombasız-minasız külünün göyə sovrulması ilə sona çatacaq. Bunun real zəmini var.**

Yaşlı oxucularımızın yadında olar. Sovet dövründə İrəvanda saat istehsal olunurdu. Deyilənlərə görə, SSRİ dağılandan sonra haylar həmin fabrikin bazasında mina istehsal edən zavod qurublar. Ermənistanda istehsal olunan minalar birbaşa Azərbaycanın işğal olunmuş ərazilərinə daşınıb. Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik dəfələrlə üzərində Ermənistanda istehsal olunduğu yazılmış minaları zərərsizləşdirib.

Həm müharibədən əvvəl, həm də postmüharibə dövründə haylar Qarabağın az qala hər qarışında bu zavodun buraxdığı minalardan "tor hörüblər". Əslində, onlar özlərini nə dinc dövrün, nə də müharibənin dünyada qəbul edilmiş qayda və qanunlarına uyğun aparmamaqla insanlıqla bir araya sılğmayan faşist xislətlərini ortaya qoyublar. Hazırda sivil dünya bu davranışı təəccüblə seyr edir.

Aprelin 2-də Azərbaycanın daha bir hərbi qulluqçusu erməni minasının partlaması nəticəsində həlak olub. XİN-in bununla bağlı açıqlamasında deyilir ki, 2020-ci il müharibəsinin sonundan bəri 288 azərbaycanlı minaya düşüb, onlardan 50-si həyatını itirib. Qəbələ rayonunda orduya çağırılmış 2004-cü il təvəllüdlü Novruz Niftəliyevin də ömrünə məhz erməni minası son qoydu.

### Haylar Qarabağda 1 milyondan çox mina basdırıblar

Rəsmi Bakı bu problemi ikitərəfli, üçtərəfli danışıqlar zamanı, regional və beynəlxalq tədbirlərdə dəfələrlə qaldırıb. Prezident İlham Əliyev ən ali tribunalardan məsələni gündəmə gətirib. Dövlətimizin başçısı ABŞ-ın Dövlət katibi Entoni Blinkenlə telefon danışığında da işğaldan azad olunmuş ərazilərdə Ermənistan tərəfindən kütləvi şəkildə minaların basdırıldığını və müharibədən sonrakı dövrdə 240-dan çox vətəndaşımızın mina partlayışları nəticəsində həlak olduğunu və ya sağlamlığını itirdiyini bildirib. Ümumdünya Şəhər Forumunun 11-ci sessiyasında videoformatda çıxışı zamanı işğal dövründə Ermənistanın ərazilərimizə bir milyondan çox mina basdırdığını bəyan edib.

"Mina terroru" adlandırılan cinayətin qurbanlarının sayı artır. Bu, insanlığa qarşı cinayətdir və məsuliyyət bütünlüklə Ermənistanın üzərinə düşür. Əslinə qalsa, mina terroru bütövlükdə daşnak-erməni terrorizminin sifətlərindən biri sayıla bilər.

### İrəvan qayda-qanun tanımır

Ermənistan regional nizamlama mexanizmlərinə sağlam yanaşmadığı kimi, eləcə də beynəlxalq qayda və qanunlara əməl etmək barədə düşünmür. İrəvan "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, 1980-ci il 10 oktyabr tarixli "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanın İkinci Protokolunun tələblərini kobud şəkildə pozur. BMT-nin 1999-cu ildə qəbul etdiyi "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiyanın müddəaları isə Ermənistan tərəfindən qulaqardına vurulur. Bu konvensiyaya görə, tərəflər müharibə başa çatdıqdan sonra minalardan təmizlənəcək ərazilərin xəritələrinin təhvil verilməsi, piyadalara qarşı minalardan istifadə etməyəcəkləri barədə öhdəlik götürürlər. Amma verdiyi sözə əməl etmədiyi kimi, boynuna götürdüyü öhdəliyi də yerinə yetirməməsi erməni həyasızlığının nümunəsidir. Ermənistan hakimiyyətinin mina xəritələrini Bakıya verməkdən boyun qaçırması da həmin xislətin təzahürüdür.

### Polkovnik Qumaşyanın etirafı

Bu fakt isə maraq doğuracağı qədər də, erməni faşizminin ibrətamiz nümunəsi kimi əhəmiyyətlidir. İkinci Qarabağ savaşından sonra erməni polkovnik Koryun Qumaşyan işğaldan azad olunmuş ərazilərimizə 17 yük maşınında daşınmış minaları basdırdıqlarını etiraf edib. Bu, sadəcə olaraq, bir erməni zabitinin etirafıdır. Ermənistanın rəsmi dairələri əllərində minalanmış ərazilərin xəritələrinin olmadığını iddia edirlər. Məqsədləri aydındır – postmüharibə dövründə mümkün qədər çox azərbaycanlının ölümünə bais olmaq, keçmiş məcburi köçkünlərin özlərinin doğma yurdlarına qayıtmasını əngəlləmək. Ötən ilin iyununda Kəlbəcərdə media mənsublarının da içində olduğu yük maşınının minaya düşməsi nəticəsində 3 nəfər həlak oldu, 4 nəfər isə yaralandı. Hadisə ilə bağlı Bakı Avropanın, dünyanın nüfuzlu təşkilatlarına müraciətlər ünvanlasa da, Ermənistana nəinki beynəlxalq təzyiq göstərilmədi, heç "gözün üstündə qaşın var" deyən olmadı. Baxmayaraq ki, jurnalistlərin peşə fəaliyyətini yerinə yetirdikləri vaxt mina terrorunun qurbanına çevrilməsi, bütövlükdə, dünya mediasına qarşı törədilən cinayət idi. Axı həmin ərazilərə beynəlxalq missiyaların, xarici KİV-lərin nümayəndələrinin də səfərləri təşkil edilirdi. Onların da mina terroruna məruz qala biləcəkləri ilə bağlı narahatlığa əsas var. Statistikaya nəzər salsaq, 2020-ci il noyabrın 10-dan indiyə kimi mina terroru qurbanlarından 12-si hərbi qulluqçu, 38-i isə mülki şəxsdir. İrəvan istehsallı minaların partlaması zamanı 120-dən çox hərbi qulluqçu, 80-ə yaxın mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

### Suriyada "minatəmizləyənlər"

Bu məlumatı isə ötən il erməni saytları yayıb: Eçmiədzində yerləşən "Humanitar mina təmizləmə və ekspertiza" mərkəzində təlim keçmiş ermənistanlı mina təmizləyənlərin növbəti, 6-cı qrupu Suriyaya gedib. Yəqin bu məlumat oxucunu xeyli heyrətləndirəcək. Yəni, Ermənistan humanitar mina təmizləmə əməliyyatlarında yaxından iştirak edir və bu "humanitar missiyanı" ermənilərin kompakt yaşadığı Suriyada yerinə yetirirmiş.

Yeri gəlmişkən, bunun özü də maraqlı faktdır ki, Vaşinqton müxtəlif proqramlar çərçivəsində Ermənistanda və onun işğalda saxladığı Azərbaycan ərazilərində humanitar mina aksiyalarının həyata keçirilməsinə külli miqdarda maliyyə vəsaiti ayırıb. Amma sonralar ABŞ hökuməti bu maliyyə yardımlarını dayandırmağa məcbur olub. Çox güman ki, Vaşinqtonun belə bir qərar qəbul etməsinin səbəbi imkansız Ermənistanın Suriyada humanitar mina təmizləmə əməliyyatında iştirak etməsi olub.

Saat fabrikini mina zavoduna çevirən haylar yəqin heç fərqində deyillər ki, üstündə gəzdikləri həmin saatlı-minaların bir gün partlama ehtimalı var. Bax, onda onlar üçün tarixin məhşər saatı gələcək...

**İmran BƏDİRXANLI, "Xalq qəzeti"**




#### *Ekspert rəyi*

**Umud RƏHİMOĞLU, ANAMA yanında İctimai Şuranın sədri:**



Bu gün dünyanın 60-dan çox nöqtəsində bu və ya başqa formada münaqişə ocaqları mövcuddur. Həmin ölkələrin böyük əksəriyyəti mina problemini yaşayır. 2020-ci ilədək, yəni, böyük Zəfərimizdən öncə aparılan beynəlxalq araşdırmaların nəticələri göstərib ki, Azərbaycan dünyanın ən çox minalanmış 10 ölkəsindən biridir. Bu, artıq bəşəri bir problemə çevrilib. Yəni, bu problemi yaradanlar insanlığa qarşı cinayət törədənlərdir. Düzdür, bəzi ölkələr məcbur olub bundan istifadə edir, amma mina problemi günahsız insanların qətlinə yönəldilmiş silahdır. Bu silaha yerin altındakı gizli ölüm də demək olar. Biz 44 günlük müharibədə yerüstü düşmənlə problemimizi həll etdik, amma yeraltı problemlə, görünür, hələ uzun müddət üz-üzə qalacağıq. Müharibədən sonra 300-ə yaxın artıq insanımız minadan ya həlak olub, ya da şikəst qalıb. Onların arasında mülki vətəndaşlarımız kifayət qədərdir. Əksəriyyəti də otuz il həsrətində olduğu doğma yurduna baş çəkmək, yaxud məzarlığı ziyarətə getmək istəyən soydaşlarımızdır.

İki gün əvvəl Qəbələdən hərbi xidmətdə olan gənc balamız odun gətirməyə gedərkən gizli ölümə tuş gəlib. Öz vətənində həqiqi hərbi xidmətini keçən, erməniyə güllə atmayan həmin gəncin ölümü çox üzücüdür. Bəli, problem böyükdür. Bəzən Qarabağın işğaldan azad olunmuş ərazisinin bir kvadrat metrində piyada əleyhinə 12 minaya rast gəlirik. Həmin minaların arasında Rusiyada istehsal olunanlar da var.

Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günündə insanlarımızı ayıq-sayıq olmağa, bir-birilərini maarifləndirməyə, xəbərdarlıq nişanları olan, tam yoxlanılmamış ərazilərə getməməyə çağırıram.

**Bəli, İranın Azərbaycanda həyata keçirdiyi ciddi bir iş olub ki, o da casus şəbəkəsi qurmaq və onu saxlamaqdır. Milli Məclisin deputatı Fazil Mustafaya qarşı martın 28-də həyata keçirilmiş silahlı hücumun istintaqı bir daha mövzunu gündəmə gətirdi. Hərçənd, onun gündəmdən düşdüyünü söyləmək mümkünsüzdür. Çünki, xüsusən, son aylarda İranın Azərbaycandakı casus şəbəkəsinin ifşası istiqamətində ardıcıl və sistemli iş aparılmaqdadır. Bu barədə söz açacağıq.**

# İran casuslarının ifşası

## *Tehran rejiminə məxsus gizli şəbəkələr üzə çıxdıqca…*




Hələlik onu bildirək ki, Fazil Mustafaya qarşı həyata keçirilmiş terror aktı ilə bağlı dünən 6 nəfər saxlanılıb. Onlardan üçünün kimliyi məlumdur. Burada diqqətçəkən bir məqam var. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə istinadən Hüseynov Həsən Ramiz oğlunun adı çəkilir. Bildirilir ki, bu şəxsin qardaşı Hüseynov Hüseyn Ramiz oğlu hazırda İranda gizlənir və vaxtilə deputat F.Mustafaya onun terrorla öldürüləcəyi barədə təhdid ünvanlayıbmış. Həm Hüseyn, həm də Həsən terrorçuluğa cəhd və dövlətə xəyanət əməllərinə görə İranda gizlənən İsgəndər Hüseynovun qardaşı oğullarıdır.

Bu fakt İranın Azərbaycandakı casuslarının nə dərəcədə dərin şəkildə şəbəkələşdiyinin növbəti təsdiqidir. Heç şübhəsiz, yaxın zamanlarda şəbəkə zəncirinin digər üzvləri də aşkara çıxarılacaqdır. Bunu deməyə yaxın keçmişin təcrübəsi əsas verməkdədir. Xatırladaq ki, təkcə ötən ilin noyabrında Azərbaycanda İranın iki böyük casus şəbəkəsi aşkarlanaraq, zərərsizləşdirilmişdi.

İstər 2022-ci ilin noyabrında, istərsə də bu ilin əvvəllərindən başlayaraq, DTX tərəfindən yayılmış məlumatlara diqqət yetirərkən məlum olur ki, İran rejimi Azərbaycanın əsas strateji obyektləri, hərbi imkanları və s. haqqında məlumatlar əldə etmək, gələcəkdə bu məlumatlar əsasında təxribatlar törətmək üçün planlar hazırlayırmış və belə mənfur fəaliyyətini kifayət qədər düşünülmüş, ölçülüb-biçilmiş şəkildə reallaşdırırmış.

Diqqətçəkən məqamlardan biri də casus şəbəkəsinin Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan hadisələrə nəzərən "fəaliyyət planı" gerçəkləşdirməsindədir. Bu isə təsadüfi deyil. Məlumdur ki, fars molla rejimi ölkəmizi dünyaya İslam fundamentalizminin və radikalizminin tüğyan etdiyi ölkə kimi göstərmək, onun dünyəvi obrazına xələl gətirmək yolu tutur. Rejim beynəlxalq miqyasda belə rəy formalaşdırmağa çalışır ki, guya, Azərbaycan təhlükəli yerdir və burada hər an qatı dindarlar hərəkətə keçib mövcud düzəni poza bilərlər. Nəticə etibarilə, ölkəmizə ayaq basan Qərb investisiyasının qarşısına sədd çəkmək, onun təmsilçilərini qorxutmaq yolu tutulur.

Digər yandan, Ermənistana havadarlıq edən Tehran mollakratiyası, həmçinin İrəvan tərəfindən, Qarabağ münaqişəsinə nəzərən, dövriyyəyə buraxılmış və münaqişəni müsəlman Azərbaycanın xristian Ermənistana hücumu kimi qiymətləndirmək ritorikasının da xarici beyinlərdə möhkəmlənməsinə çalışıb. Bir halda ki, Ermənistanın təbliğat maşını Azərbaycanı dini sxolastikanın meydan suladığı məmləkət olaraq təqdim edir, deməli, burada digər dinlərdən olanlara qarşı da qeyri-tolerant münasibətin mövcudluğu şübhəsizdir – fars şovinist rejiminin yaratmaq istədiyi təsəvvür də məhz budur.

Bir məqama da diqqət yetirək. Məlum olduğu kimi, martın 2-də tanınmış ilahiyyatçı, Məşədi Dadaş məscidinin imamı Hacı Şahin Həsənli ürək tutmasından vəfat etdi. Şübhəsiz, Hacı Şahin özünün fikirləri ilə cəmiyyətdə hörmət bəslənilən biri idi. Onun dəfnində insanların çox olması da təbii sayıla bilər. Ancaq bildirildiyinə görə, İran dəfndəki izdihamın miqyasının böyüməsinə də "töhfə verib". Məqsəd yuxarıda qeyd etdiyimizin məramın, bir növ, davamıdır. Yəni, dünyaya göstərilir ki, Azərbaycanda İslam dininin insanların həyatına təsiri mühafizəkarlığa əsaslanır, bir din xadiminin dünyasını dəyişməsi cəmiyyəti hərəkətə gətirir. Güman ki, bu görüntünün yaranmasında da məlum casus şəbəkəsi öz "rolunu oynayıb".

Əlbəttə, Tehranın terror fəaliyyətinin, casus şəbəkələrinin qarşısının alınması, vaxtında aşkarlanması dövlətimizin və xalqımızın təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşımaqdadır. İranın əməlləri onun ölkəmizdə qarışıqlıq yaratmaq niyyətlərinə qarşı səfərbərliyi zəruriləşdirməkdədir. Bütün bunlar öz yerində. Əvvəldə haqqında söz açdığımız məsələyə yenidən qayıdaq.

Əlbəttə, dövlətlərin bir-birilərinin daxilində müəyyən casus fəaliyyəti həyata keçirmələri təbiidir. Ancaq bunun da bir əndazəsi var. İran əndazəni tam aşıb. Görünür, ölkə Azərbaycanda ancaq bu işlə məşğul olub. Belə yanaşma isə onu göstərir ki, Tehran rejimi heç vaxt ölkəmizə münasibətdə səmimi olmayıb və özünün məkrini üzə çıxarmaq üçün zaman gözləyib, fürsət axtarıb. İrana məxsus casus şəbəkələrinin ifşası bu cür bəd əməllərə fürsət tanınmayacağının təsdiqidir. Zaman isə fars şovinist rejiminin əleyhinə işləyir.

**R.AMİN**

## Aprel döyüşlərindən 7 il ötür

# Bir orduya bərabər "kölgə adam"

## O, ölümündən sonra Milli Qəhrəman adı verilən Pəncəli Teymurov idi

**Onun ad günündən bir həftə keçib. Əfsanəvi xüsusi təyinatlı, Azərbaycan Silahlı Qüvvələrinin giziri, Milli Qəhrəman Pəncəli Teymurovu deyirəm. Quduz ermənilərin başına bir milyard pul qoyduqları Pəncəli. Əslində, onun adı şəhid olana qədər yalnız el-obasında tanınırdı, çünki bu qəhrəman – "kölgə adam" mümkün qədər gizli fəaliyyət göstərib, özü hər nə qədər sirli olsa da, qəhrəmanlıqları düşməni vahiməyə salıb...**



Pəncəli Teymurov 1981-ci ilin martın 24-də Astara rayonunun Əzərüd kəndində anadan olub. 1998-ci ildə Astarada, B.Rüstəmov adına Asxanakəran tam orta məktəbini bitirib və 1999-cu ildə həqiqi hərbi xidmətə gedib. Hərbi xidmət zamanı kəşfiyyatçı peşəsinə yiyələnib və hərbi hissənin ən mahir kəşfiyyatçısı olub. Daha sonra könüllü olaraq xidmətini o zaman yenicə yaradılan Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kəşfiyyatçı-diversant taborunda davam etdirib. 17 il Azərbaycan ordusunda şərəflə xidmət edib.

Onun haqqında o qədər maraqlı faktlar var ki, tanış olub düşündükcə, sözünün ağası olan bu gənc hərbçiyə ölümündən sonra sevgi və ehtiram birə-beş artır. 11 yaşı olanda Pəncəli Teymurov 1992-ci ildə baş vermiş Xocalı soyqırımının kadrlarını izləyəndən sonra hərbçi olacağına və düşməndən intiqam alacağına söz verir...

O, illər sonra sözünə əməl edir. Xocalı faciəsi zamanı azərbaycanlıları qəddarlıqla öldürən erməni zabit general rütbəsi almağa gedərkən Pəncəli Teymurov onu izləyir və əlverişli məqamda məhv edir. Bu, erməni ordusunda böyük çaxnaşma yaradır.

2015-ci ildə kəşfiyyat qrupu ilə Kəlbəcərə keçən, "erməniyə qan udduracağam"– deyən Pəncəli 4 erməni zabitin və 20 əsgərin olduğu "Ural" markalı maşını partladaraq onların hamısını məhv edir. Düşmən tərəf bundan sonra Pəncəlinin başına bir milyard dram qoyur, lakin nə qədər cəhd etsələr də, onu ələ keçirə bilmirlər. Hətta bir dəfə erməni hərbçiləri Pəncəlini pusquya salsalar da, o, 21 gündən sonra pusqudan çıxaraq növbəti dəfə düşməni dəhşətə salır.

2016-cı ilin aprel hadisələrinin ilk günü "Qoca qurd" ləqəbli Pəncəli öz döyüş yoldaşları ilə erməni təxribatının qarşısını almağa yola düşür. O, düşmənin bir neçə canlı qüvvəsini və texnikasını məhv edir. Mühasirəyə düşsə də, son damla qanına kimi döyüşür. İgid soydaşımız aprelin 2-də Tərtərdə düşmənə ağır zərbələr endirdikdən sonra şəhid olur.

Erməni generalını məhv etmək, hərbçilərin olduğu maşını partlatmaq, Aprel döyüşlərində onlarca erməni əsgərini, texnikasını sıradan çıxarmaq... Bunlar Pəncəlinin bizə məlum olan qəhrəmanlıqlarıdır. Onun düşmənə sarsıdıcı zərbələr vurduğu elə xüsusi əməliyyatları var ki, bu gün də erməni ordusunda vahimə ilə xatırlanır. Ona görə də dostları deyirlər ki, "Pəncəli sağ ikən öz qisasını almışdı".

Vətənə canı və qanı ilə bağlı olan Pəncəli Teymurov 2013-cü ildə öz toyunda kimsənin gözləmədiyi halda, mikrofonu götürüb düşməndən intiqam alıb şəhid olmağı və üçrəngli bayrağımıza bükülüb dəfn olunmağı arzulamışdı: "Dostlar, həqiqətən, bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidq ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın". Tale onun bu sözünü də çin elədi. Pəncəli həm arzularına çatdı, həm də özündən sonra böyük qəhrəmanlıq yolu qoydu.

Qardaşı Famil Teymurovun söhbətindən: "35 yaşında onun hərbi xidmətdə qulluq səlahiyyətləri başa çatacaqdı. Pəncəli deyirdi ki, "Qulluq vaxtım bitəndə, mən neyləyəcəm? Mən ordusuz yaşaya bilmərəm". Yas məclisində iştirak edən Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-mayor Hikmət Mirzəyev onun şücaətlərindən danışaraq Pəncəli haqqında "O, ordunun bel sütunu idi",– demişdi. Dostları isə onun aprel döyüşlərində Goranboydan üzü Talış yüksəkliyinə qədər, Ağdərədə necə qeyrətlə, qəhrəmanlıqla vuruşduğunu deyirdilər. Danışırdılar ki, həmin gecələrdə Pəncəlinin döyüş ruhu bir ordunun gücünə bərabər idi. Qarşısına çıxan düşməni məhv etdikcə, qanı coşub-daşırdı".

**Zərifə BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**

# Lələtəpə zirvəsinin şəhidi

## Qardaşı əsgər gedən gün həlak olmuşdu

**2016-cı il, aprelin əvvəli idi. Etimad kişi bazara gedib tədarük görmüşdü ki, ertəsi gün oğlu Nəcməddinin hərbi xidmətə yola salınması el-obayla qeyd edilsin. Amma nə qədər təmkinli görünməyə çalışsa da, ön xətdə əsgərlikdə olan böyük oğlu Nurəddin sarıdan nigaranlığını da gizlədə bilmirdi. Çünki kənd arasında eşitmişdi ki, cəbhə xəttində müəyyən gərginlik yaranıb.**

Hələ bir il əvvəl ömür-gün yoldaşı Fəxriyyəni də götürüb, Nurəddinin xidmət keçdiyi "N" saylı hərbi hissəyə getmiş, oğlunun andiçmə mərasimində iştirak etmişdi. Nurəddinin "Ata, məni snayper bölməsinə yazıblar" deməsi onu qürurlandırmışdı. Axı, özü də vaxtilə sovet ordusunda snayper olmuşdu. Kəndə qayıdandan sonra qurban dediyi cöngəyə daha yaxşı baxmışdı ki, Nurəddin əsgərlikdən dönəndə kəsib, bütün kəndi şadyanalığa yığsın. Amma indi, Nəcməddini ordu sıralarına yola saldığı ərəfədə ata, nədənsə, narahatlıq keçirirdi.

Qələm dostum Aida Eyvazlı yazır: "Elə Fəxriyyə ana da özündə deyildi. Əlində süfrə hazırlığı görə-görə bir gözü də televizorda gedən "Arka sokaklar" türk serialında idi. Bu filmdə ananın bir oğlu əsgər gedəndə, digər oğlunun tabutunu əsgərlikdən evə gətirmişdilər. Birdən-birə Fəxriyyənin ürəyi sıxıldı. Ağlına gələn ilk dəhşətli fikri beynindən qovmaq istədi, hələ bir öz-özünə: "Lənət şeytana, bu nə idi düşündüm? Ağzımdan qara yellər aparsın" – dedi".

Taleyin istehzasına baxın ki, ağıllarına gələn başlarına gəldi. Həmin gecə Yardımlıya güclü qar yağırdı. Saat 2-də əmisi Nurəddinin yaralanması xəbərini gətirdi. Fəxriyyə ana səhər həyəti dolu görəndə, haray çəkib, qonşularından nə baş verdiyini soruşdu. Heç nə deməsələr də, qırımlarından hər şeyi hiss elədi və bir anda özündən getdi.



... Aprelin 1-dən 2-nə keçən gecə növbəti erməni təxribatına cavab olaraq, Nurəddingilin hərbi hissəsində də əsgərlər döyüş vəziyyətinə gətirildi. Böyük bir qüvvə ilə hər kəs Ağdərə tərəfə irəlilədi. Əvvəlcə ağır texnikanı qabağa buraxdılar. Sonra isə əsgərlər döyüşdə öz yerlərini tutdular. Qızğın döyüş başlanmışdı. Havanın soyuq olmasına baxmayaraq, əsgərlərə, elə bil ki, ikinci nəfəs verilmişdi. Əslində, hər şey yuxu kimi gəlirdi. İrəlilədikcə irəliləyirdilər. Həmkəndlisi və dostu Mirabdulla ilə bir-birindən aralı düşdülər. Bütün gecəni döyüşdükdən sonra, aprelin 2-dən 3-nə keçən gecə, onlara dincəlmək üçün zaman verildi.

Ayın 5-də isə hərbçilərimizə tamamilə dayanma əmri verdilər. Və əsgərlər peşman-peşman bir-birinə baxdılar. Bu qədər irəli getdikləri halda, bu, necə əmr idi? Ancaq neyləyə bilərdilər?

–Tərəflər atəşkəs eləmişdilər. Onlar hərbi əmrə müntəzir əsgərlər idilər. Sonra Mirabdulla eşitdi ki, Nurəddin artıq həyatda yoxdur, canını Vətənə qurban verib.

...Səhər o başdan Yardımlı dağları ağ örpəyi ilə üçrəngli bayrağa bükülüb elinə-obasına – son mənzilə dönən 19 yaşlı şəhid Nurəddin Mirzəyevi qarşılayırdı. Nurəddinin tabutunu onu əsgərliyə yola salan təcili tibbi yardım maşınında gətirdilər. Fəxriyyə donub qalmışdı. Nə baş verdiyindən, sanki, xəbəri yox idi. Bir də onda ayıldı ki, balasını aparıb dəfn ediblər.

Honuba Yardımlının yüksək dağlıq zonasında yerləşən kənddir. Məlumatlara görə, qədim hunların yaşadığı oba mənasını verir. Nurəddingilin evi isə Honubanın ən uca yerindədir. Mən orada dəfələrlə olmuşam. İndi bu yerlər şəhid snayper Nurəddinin hünəri sayəsində daha da əzəmətli görünür. O, uca bayrağımızı düşməndən azad edilən Lələtəpəyə sancanların yanında olub. 5 əsgər imişlər, üçü bayrağı qoruduğu yerdə şəhidlik zirvəsinə ucalıb.

Qardaşı Nəcməddin əsgərliyə gedən gün Yardımlıya Nurəddinin ölüm xəbəri gəlib. O, öz qəhrəmanlığı ilə bu dağları, sanki, bir boy da ucaldıb. "Hərbi xidmətdə fərqlənməyə görə" medalına layiq görülən 19 yaşlı igid onu tanıyanların və adı ilə öyünənlərin ürəklərində yaşayır.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**

# Aprel şəhidlərinin xatirəsi anılıb

**Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Aprel döyüşlərinin yeddinci ildönümü ilə əlaqədar Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində anım tədbirləri keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, hərbi qulluqçuların, şəhid ailələri və yaxınlarının, eləcə də ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən anım tədbirlərində şəhidlərimizin məzarları ziyarət edilib, üzərinə əklil və gül dəstələri qoyularaq ehtiram nümayiş etdirilib.

Mərasimlərdə Aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbi qulluqçularımızın döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən danışılıb.

Qeyd olunub ki, 2016-cı ilin aprel ayının ilk günlərində ermənilərin növbəti təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində 2000 hektardan artıq ərazi azad edilib və daha çox ərazi əməliyyat baxımından bölmələrimizin nəzarətinə keçib. Eyni zamanda Ağdərə, Füzuli və Cəbrayıl rayonları ərazilərindəki strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edilib.

Aprel döyüşlərində qazanılan Qələbənin davamı olaraq Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli



Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu döyüş əməliyyatları ilə işğaldan azad edilən torpaqlarımızda üçrəngli bayrağımız dalğalandırılıb, şəhidlərimizin qisası düşməndən alınıb.

Daha sonra hərbi qulluqçular aprel şəhidlərinin ailələrini ziyarət edib, onların qayğıları ilə maraqlanıblar.

**"Xalq qəzeti"**

**Qarabağın azad edilməsi uğrunda 2020-ci ilin Vətən müharibəsi günlərində dövlətimizin, xalqımızın və ordumuzun dəmir yumruğa çevrilmiş gücü ilə qazanılmış böyük Zəfərə aparan yol, şübhəsiz ki, 2016-cı ilin aprel döyüşlərindən başlayır. Özgələrin kölgəsində xumarlanan azğın düşmən 7 il əvvəl aprelin ilk günlərində Azərbaycan Ordusundan ağır zərbə alaraq atəşkəs dövründə ilk dəfə böyük hərbi uğursuzluğa düçar oldu. Bu döyüşlər Azərbaycan dövlətinin işğal olunmuş ərazilərini hərbi yolla azad etməyə qadir olduğunu düşmən tərəfə və onun havadarlarına bütün kəskinliyi ilə anlatdı.**

# Aprel döyüşləri ordumuzun işğalçı qüvvələrə verdiyi dərs idi



2016-cı il aprel döyüşləri ərəfəsində, konkret olaraq həmin ilin mart ayından etibarən cəbhə xəttində erməni təxribatları, atəşkəsin pozulması halları yenidən artmağa başladı. Belə ki, 2016-cı il mart ayının 11-də cəbhənin Ağdam istiqamətində Ermənistan hərbi qüvvələrinin növbəti təxribatı baş verdi. Bu təxribat zamanı Azərbaycan mövqeləri güclü atəşə tutuldu. Lakin Azərbaycan Ordusunun bölmələri tərəfindən bu təxribatın qarşısı dərhal alındı və həyata keçirilmiş qətiyyətli cavab tədbirləri düşmənin həm canlı qüvvəsinin, həm də hərbi texnikasının məhv edilməsi ilə nəticələndi.

Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan tərəfinin bu xəbərdarlığından heç də lazımi nəticə çıxarmadı və cəbhə xəttində vəziyyəti gərginləşdirmək siyasətindən heç də əl çəkmədi. Mart ayının 26-da bu hücumlar yenidən davam etdi. Təxribatların qarşısının alınması üçün Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab atəşləri açıldı, düşmənin atəş mövqeləri və hərbi texnikası sıradan çıxarıldı.

Mart ayının 27-də isə Ermənistanın təxribatı münaqişə bölgəsindən xeyli uzaqda, Qazax rayonu istiqamətində baş verdi. Həmin istiqamətdə xidmət çəkən Azərbaycan bölmələrinin sayıqlığı nəticəsində düşmən təxribatı qabaqcadan aşkar edildi və bu təxribatın qarşısının alınması üçün lazımi tədbirlər həyata keçirildi. Həmin tədbirlərdən sonra Ermənistanın bölmələri geri çəkilmək məcburiyyətində qaldılar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi kimi, aprel ayında cəbhədə vəziyyətin mürəkkəbləşməsi ərəfəsində Rusiyanın Prezidenti və rəhbərliyi Minsk qrupunun digər həmsədrləri ilə brilikdə Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni təkliflər irəli sürmüşdülər və həmin təkliflərdə Azərbaycanın ərazi bütövlüyü məsələsinə münasibət bildirilmişdi.

Bölgədə status-kvonun dəyişməsini birmənalı şəkildə istəməyən Ermənistan rəhbərliyi isə münaqişənin həlli üçün meydana gələn ümidləri aradan qaldırmaq üçün yenidən özlərinin sınanmış vasitəsinə, cəbhə xəttində təxribatların genişləndirilməsinə əl atdı, sülh prosesinə böyük zərbə vurdu. Bunun nəticəsi idi ki, 2016-cı il aprel ayının 1-də Ermənistan yenidən atəşkəsi geniş şəkildə pozdu.

Aprelin 2-nə keçən gecə Azərbaycan Ordusunun cəbhəboyu yerləşən bütün müdafiə mövqeləri Ermənistan hərbi bölmələri tərəfindən iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğuları işə salınmaqla intensiv atəşə tutuldu. Bundan əlavə, qoşunların təmas xəttinə yaxın mülki əhalinin sıx yaşadığı bir sıra yaşayış məntəqələri də düşmən atəşinə məruz qaldı. Ermənistan tərəfinin son zamanlar genişlənməkdə olan hərbi fəallığının qarşısını almaq məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən əməliyyat şəraiti qiymətləndirilərək dərhal cavab tədbirlərinin görülməsi üçün qərar verildi.

Təxribatların və atəşlərin daha geniş yer aldığı Ağdərə – Tərtər–Ağdam və Xocavənd – Füzuli istiqamətində yerləşən birliklər, artilleriya bölmələri və digər qoşun növlərinin birgə, əlaqəli fəaliyyəti nəticəsində Ermənistan silahlı bölmələrinə qarşı cavab tədbirlərinin həyata keçirilməsinə başlandı. Ordu rəhbərliyi erməni hərbi qüvvələrinin təcavüzkarlığı nəticəsində yaranmış əməliyyat şəraitini qiymətləndirdikdən sonra müdafiə mövqelərində dayanmış qüvvələri cəlb etməklə əks-hücum əməliyyatı keçirmək qərarı qəbul etdi.

Bu əməliyyatın keçirilməsi ilə düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına zərbə vurulmalı və onlar Azərbaycan kəndlərində daha uzaq məsafəyə çəkilməyə məcbur edilməli idi. Aprel ayının 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyat qrupları iki istiqamətdən atəşkəsi pozan düşmən üzərinə əks-hücum həyata keçirdilər. Aprel döyüşləri qəfil şəkildə və Azərbaycan tərəfi üçün əlverişli olmayan şəraitdə başlansa da, çox qısa zaman ərzində təşkilati və əməliyyat çevikliyi nümayiş etdirildi, erməni təxribatlarının qarşısını alacaq qüvvələr müəyyənləşdirildi və onların vəzifələri konkretləşdirildi.

Ağdərə–Tərtər istiqamətində erməni təxibatının qarşısının alınmasına həmin zonada dislokasiya olunmuş birliyin iki briqadası, Horadiz istiqamətində isə bir briqada vəzifələndirildi. Sonradan bu briqadalar əlavə qüvvələrlə, tank və artilleriya bölmələri ilə gücləndirildilər. Hər iki istiqamətdə döyüşə atılan qüvvələri həm də hərbi vertolyotlar müşayiət edirdi. Nəticədə, qarşıya qoyulan taktiki vəzifəni yerinə yetirməyə qadir olacaq bir qruplaşma formalaşdırıldı.

Bütünlükdə, döyüşlərin getdiyi istiqamətlərdə Ermənistan ordusunun 4 min nəfərlik şəxsi heyəti, 90-na yaxın tankı və onlarla artilleriya qurğusu var idi. Bu qüvvələr təmas xətti boyunca yaradılmış olan mühəndis-istehkam sisteminə arxalanmaqla Azərbaycanın hərbi qüvvələrinin irəliləməsinin qarşısını almaq tapşırıqlarına malik idilər.

Erməni hərbi qüvvələri təmas xətti boyunca eşelonlaşdırılmış müdafiə sisteminə malik idilər. Hər bir müdafiə xətti də kifayət qədər dəmir-beton və digər mühəndis qurğuları ilə möhkəmləndirilmiş və hər bir xəttin də öz atəş sistemi yaradılmışdı.

Lakin ermənilərin bu müdafiə sistemi Azərbaycan Ordusunun hissə və bölmələrinin uğurlu əks-hücumunun qarşısını almağa kifayət etmədi. Erməni hərbi qüvvələrinin müdafiə sisteminin ön xəttində və dərinliyində cəmləşən hərbi hədəflərin koordinatları əvvəlcədən müəyyənləşdirilməklə Azərbaycan hərbi qüvvələrinin atəş zərbəsi ilə düşmənin döyüş texnikası, xeyli sayda canlı qüvvəsi və digər hərbi infrastrukturu sıradan çıxarıldı.

Erməni hərbi qüvvələrinin bu təcavüzkarlığının və hərbi təxribatının genişlənməsinin qarşısını almaq üçün Azərbaycan Ordusunun hissə və bölmələri dərhal Ağdərə – Tərtər – Ağdam və Xocavənd – Füzuli istiqamətində cavab tədbirlərinin həyata keçirilməsinə başladılar. Qısa müddət ərzində həyata keçirilən sürətli əks-hücum zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarıldı, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri düşməndən tam azad olundu.

Əks-hücum döyüşlərinin elə ilk günü Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini nümayiş etdirdi. Bölmələrin, xüsusi təyinatlı qüvvərin döyüş məharətinin ən müasir hərbi texnika və silahların imkanları ilə dədiqliklə tamamlanması çoxsaylı erməni müdafiə mövqelərinin sıradan çıxarılması ilə nəticələndi. Xüsusilə, Azərbaycan tərəfi pilotsuz uçuş aparatlarının tətbiqi ilə döyüş meydanında üstün bir situasiya yaratdı. Bu aparatların zərbə gücündən istifadə edilməklə çoxlu sayda erməni zirehli texnikası, avtomobil nəqliyyatı, qərargahları məhv edildi, əlaqə xətləri dağıdıldı.

Azərbaycan Ordusu hissə və bölmələrinin cənub istiqamətindəki əks-həmləsi də uğurla başladı. Bu istiqamətdə də Azərbaycan hərbi qüvvələri yüksək döyüş hazırlığı və məharəti nümayiş etdirdilər. Hələ gecə ikən sürətlə döyüşə atılan qüvvələr, xüsusi təyinatlılar müəyyən edilmiş döyüş tapşırığını yerinə yetirdilər, nəzərdə tutulmuş erməni müdafiə postlarını, o cümlədən Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələtəpə" adlandırılan yüksəklik də bölmələrimizin nəzarətinə keçdi. Erməni hərbi qüvvələrinin möhkəmləndirilmiş müdafiə sisteminə arxalanmaqla müqavimət göstərmək cəhdi gözlənilən nəticəni vermədi. Sonrakı günlərdə Azərbaycan Ordusu azad etdiyi mövqelərdə daha da möhkəmləndi və əldə edilən uğurun əbəs olmadığı sübut etdi.

İlkin məlumatlara görə, 2016-cı il aprel ayının ilk günlərində Azərbaycan Ordusunun keçirdiyi əks-hücum döyüşlərinin gedişində 300-ə yaxın erməni hərbçisi məhv edildi, yüzlərlə hərbçi isə yaralandı. Bütünlükdə, 1994-cü ildən elan edilmiş atəşkəs dövründə Ermənistanın hərbi qüvvələri ilk dəfə Azərbaycan Ordusu tərəfindən çox ciddi zərbə aldılar və göstərilən bütün cəhdlərə baxmayaraq, ordumuz qarşısında gücsüz qalaraq məğlubiyyətlə barışmalı oldular.

Azərbaycan Ordusunun hissə və bölmələri 2016-cı il aprel ayının ilk günlərində erməni hərbi təxribatına verilən cavab zamanı qazandığı uğurla yalnız Ermənistanda deyil, bir sıra ölkələrdə Ermənistan ordusunun məğlubedilməzliyi haqqında yaranmış təsəvvürləri alt-üst etdi və Azərbaycan Ordusunun gücünü və iradəsini ortaya qoydu. Bu uğur Azərbaycanın dövlət rəhbərliyinin Azərbaycan Ordusunun möhkəmləndirilməsi istiqamətində izlədiyi siyasətin düzgünlüyünü, Azərbaycan xalqının və dövlətinin öz qanuni haqqlarını qorumağa qadir olduğunu nümayiş etdirdi.

Bu uğur həm də Qarabağ ətrafında yeni bir hərbi situasiya yaratdı və Azərbaycanın hərbi-siyasi mövqelərini daha da gücləndirdi. Azərbaycan Silahlı Qüvvələri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin işğal olunmuş bütün ərazilərini azad etməyə qadir olduğunu dünyaya nümayiş etdirdi. Dövlət başçısının dediyi kimi, 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun tarixinə parlaq qələbə günü kimi yazıldı.

**Mehman SÜLEYMANOV,**
**Milli Müdafiə Universiteti Hərbi-Elmi Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru**

# Ukrayna müharibəsi: savaşan təkcə ordular deyil…

## *Diplomatiya və informasiya cəbhələrində də "ağır döyüşlər" gedir*



**Bu gün Rusiyanın Ukraynaya qarşı hücuma başlamasından 410 gün tamam olur. Bu savaş İkinci Dünya müharibəsindən sonrakı dönəmdə planetimizdə baş verən ən ağır və dağıdıcı silahlı qarşıdurmadır. Təəssüf ki, son günlər tərəflər arasında döyüşlər nəinki səngimək bilmir, əksinə, günbəgün şiddətlənir.**

Bəli, Ukraynada hazırda cəbhənin min kilometrlərlə uzanan təmas xəttində silahlar "susmaq" bilmir, eyni zamanda tərəflər arasında siyai, diplomatik və informasiya sahələrində də "savaş" gedir.

Gəlin, əvvəlcə iki ölkə arasında diplomatik savaşın son məqamlarına diqqət yetirək. BMT Təhlükəszilik Şurasının (TŞ) beş daimi üzvündən biri olan Rusiyanın rotasiya yolu ilə bu il aprelin 1-də TŞ-yə sədrlik etməyə başlaması Ukrayna rəsmiərinin kəskin etirazına səbəb olub.

"Amerikanın səsi" saytı yazır ki, Ukrayna Prezidenti Volodimir Zelenski Rusiyanın TŞ-yə sədrlik etməsini "cəfəng və dağıdıcı" hadisə kimi qiymətləndirib və bunun "beynəlxalq institutların tam iflasını" sübut etdiyini bildirib.

Qeyd edək ki, bu il aprelin 1-də axşam saatlarında bu barədə media işçilərinə danışan V.Zelenski deyib ki, "terrorda məsuliyyət daşıyanların" beynəlxalq qurumlara sədrlik etməsinə icazə verilməməlidir: "Rusiya Ordusu daha bir ukraynalı uşağı, Avdiyivkadan olan beş aylıq uşağı öldürdü və bu baş verən bir zamanda Rusiya TŞ-yə sədrlik edir?!"

Avropa İttifaqının (Aİ) yetkilisi Cosep Borrel bildirib ki, Aİ aprel ayı ərzində Rusiyanın TŞ-yə sədrliyi dövründə istənilən sui-istifadəyə qarşı duracaq. O, özünün "twitter" hesabında bu sözləri qeyd edib: "Təhlükəsizlik Şurasının daimi üzvü olmasına baxmayaraq, Rusiya davamlı olaraq BMT-nin qanunvericilik bazasının mahiyyətini pozur".

Ukraynanın xarici işlər naziri Dmitri Kuleba iki gün əvvəl Rusiyanın TŞ-də sədrliyə başlamasını "beynəlxalq ictimaiyyətin üzünə vurulan sillə" adlandırmışdı. O, qurumun digər üzvlərini Moskvanın öz sədrliyindən sui-istifadə etməsinin qarşısını almağa çağırıb.

Yeri gəlmişkən, Ukrayna Prezidentinin köməkçisi Mixaylo Podolyak isə deyib ki, bu addım "beynəlxalq hüququn növbəti dəfə zorlanmasıdır: "Təcavüzkar müharibə aparan, humanitar və cinayət hüquq normalarını pozan, BMT Nizamnaməsinə əməl etməyən və nüvə təhlükəsizliyinə etinasız yanaşan bir ölkə dünyanın əsas təhlükəsizlik orqanına rəhbərlik edə bilməz", – deyə Podolyak sosial şəbəkələrdəki səhifəsində vurğulayıb.

Bir daha xatırladaq ki, Rusiya 2022-ci ilin fevralın 24-də Ukraynaya qarşı müharibəyə başladıqdan sonrakı müddətdə ilk dəfə olaraq bu il aprelin 1-dən TŞ-də bir aylıq sədrliyi təhvil alıb. Siyasi təhlilçilər hesab edirlər ki, Rusiya Ukraynaya hücum etməklə BMT Nizamnaməsini pozub. Belə ki, bu sənədə görə heç bir ölkə başqa bir dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı güc tətbiq edə bilməz.

Yeri gəlmişkən, BMT Baş Assambleyası işğalın başlamasından bir neçə gün sonra Rusiyadan Ukraynadakı müharibəni dərhal dayandırmağı tələb edən qətnamə layihəsi hazırlayıb. Rusiya təmsilçisi TŞ-də həmin qətnaməyə veto qoyaraq sənədin qəbul olunmasına mane olub.

Başqa bir diqqətçəkən məqam isə budur ki, Rusiyanın BMT Təhlükəsizlik Şurasına sədrliyə başlaması, həmçinin Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) Rusiya Prezidenti Vladimir Putini müharibə cinayəti sayılan uşaqların Ukraynadan qeyri-qanuni deportasiyasına görə məsuliyyət daşımaqda ittiham edərək həbsinə dair qərar verməsindən sonraya təsadüf edir.

Yuxarıda qeyd etdiyimiz kimi, son günlər Ukraynada ağır döyüşlər səngimir. Ölkə rəsmilərinin bildirdiyinə görə, Rusiyanın ölkənin şərq və cənub ərazisində mülki əhalinin məskunlaşdığı əraziləri atəşə tutması nəticəsində təkcə bir gün ərzində həlak olan və yaralanan mülki şəxslərin sayı 20-dən çoxdur. Ukrayna Prezidenti administrasiyasının rəhbəri Andriy Yermak aprelin 2-də sosial şəbəkədə bildirdiyinə görə, Donetsk vilayətinin Kostiantinivka şəhərinin Rusiya tərəfindən atəşə tutulması nəticəsində azı 3 mülki şəxs həlak olub və 8 nəfər yaralanıb.

Donetsk Vilayət Hərbi İdarəsinin rəhbəri Pavlo Kirilenko isə Rusiyanın bölgədəki hücumları nəticəsində azı 10 mülki şəxsin yaralandığını bildirib: "Aprelin 1-də ruslar Donetsk vilayətinin beş sakinini yaralayıblar: üçü Toretskdə, ikisi Baxmutda".

Ukrayna Regional Hərbi Administrasiyanın aprelin 2-də yaydığı məlumatda isə deyilir ki, Rusiyanın Xerson vilayətini atəşə tutması nəticəsində daha bir mülki şəxs həlak olub, iki nəfər yaralanıb. "Rusiya ordusu Xersonun yaşayış məhəllələrini 6 dəfə atəşə tutub. Mərmilər özəl yaşayış binalarına düşüb", – deyə xəbərdə qeyd olunur.

Sonda bir neçə kəlmə də tərəflər arasında güclənən informasiya müharibəsi barədə söz açmağı lazım bilirik. Qeyd etmək lazımdır ki, hər iki ölkədə kifayət qədər böyük sayda media orqanları var və bu resurslar vasitəsilə tərəflər dünyaya bir çox obyektiv xəbərlərlə yanaşı, saxta, "feyk" məlumatlar da ötürməyə çalışır.

Qlobal mediada, təbii ki, daha çox Ukraynanın təcavüzə məruz qaldığı barədə materiallar yer alır. Bəşəriyyət, əlbəttə, müharibətinin bitməsini arzulayır. Təsadüfi deyil ki, dünyanın demokratik qurumları, sivil ölkələrin vətəndaş cəmiyyətləri fəalları hər iki tərəfi israrla sülhə çağırır.

**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**

# Ərdoğan qarşıdakı seçkiləri "dönüş nöqtəsi" adlandırıb



**Türkiyədə prezident və parlament seçkilərinin vaxtı yaxınlaşdıqca siyasi gərginlik də artır. Ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə vaxtaşırı özünün seçkilərlə bağlı mövqeyini açıq-aydın ifadə etməkdədir. Dünən o, iftar mərasimində çıxışı zamanı yenidən seçicilərinə müraciət edib.**

"Anadolu"nun məlumatına görə, Ərdoğan bəyan edib ki, mayın 14-də türkiyəli seçicilər, sadəcə, namizədlər və ittifaqlar arasında deyil, iki fərqli siyasət tərzi arasında seçim edəcəklər. Çünki bu, sıradan bir seçki deyil, dönüş nöqtəsidir.

Prezident Ərdoğan deyib: "İnşallah, söz verdiyimiz işləri həyata keçirərək, heç bir qardaşımıza xəyal qırıqlığı yaşatmayacağıq. Millətimizin nələr gözlədiyini çox yaxşı bilirik. Daha çox çalışacağıq. Daha çox layihə ərsəyə gətirəcəyik. Seçki ab-havasının bizləri əsas gündəmimizdən yayındırmasına imkan verməcəyik".

Dövlət başçısı bu günlərdə ABŞ-ın Türkiyədəki səfiri Ceff Fleykin müxalifət təmsilçiləri ilə görüşünü də tənqid edib. Türkiyə Prezidenti qapılarının ABŞ səfiri Ceff Fleykin üzünə bağlı olduğunu bildirib. "Star" qəzetinin məlumatına görə, Ərdoğan bu sözləri amerikalı diplomatın Cümhuriyyət Xalq Partiyasının (CHP) prezidentliyə namizədi Kamal Kılıçdaroğlu ilə görüşündən sonra söyləyib. "Co Baydenin səfiri nə edir? Gedir Kamal bəylə görüşür. Ayıb olsun, başınızla düşünün. Siz səfirsiniz. Buradakı həmsöhbətiniz Prezidentdir. Bundan sonra hansı üzlə prezidentlə görüş istəyəcəksiniz? Qapılarımız onun üzünə bağlıdır. Fleyk öz yerini bilməlidir", – deyə Ərdoğan bildirib.

Xatırladaq ki, Türkiyədə prezident və parlament seçkiləri bu il mayın 14-də keçiriləcək.

***Ə.PAŞA,***
***"Xalq qəzeti"***

# İran və Səudiyyə Ərəbistanı XİN rəhbərləri arasında telefon danışığı

**Son bazar günü İranın və Səudiyyə Ərəbistanının xarici işlər nazirləri Əmir Abdollahian və Faysal bin Farhan telefonla danışaraq, bir sıra ikitərəfli və regional məsələləri müzakirə ediblər. Tərəflər yaxın günlər ərzində görüşmək barədə qərar qəbul edəcəklərini bildiriblər. Məlumatı İranın "Tasnim" agentliyi yayıb.**



Xəbərdə deyilir ki, İranın xarici işlər naziri son vaxtlar rəsmi Tehran ilə Ər-Riyad arasında münasibətlərdə müsbət dəyişikliklərin baş verdiyini qeyd edib. O, İranın Səudiyyə Ərəbistanı ilə səmimi qonşuluq münasibətlərinin güclənməsinə töhfə verməyə hazır olduğunu bildirib.

Dünən Tehranda İranın xarici işlər naziri Səudiyyə Ərəbistanından olan həmkarı ilə telefon bağlantısı barədə jurnalistləri məlumatlandırarkən deyib ki, diplomatlar yaxın 48 saat ərzində yenidən danışaraq, görüşün vaxtı və yeri barədə qərar qəbul edəcəklər.

Xatırladaq ki, hələ ötən həftə İran və Səudiyyə Ərəbistanının xarici işlər nazirləri telefonla danışaraq müqəddəs Ramazan ayı ərzində diplomatik əlaqələri bərpa etmək barədə məqsədilə görüşmək barədə müzakirələr aparıblar. İran ilə Səudiyyə Ərəbistanı arasında diplomatik əlaqələrin bərpası barədə razılaşma Çində beş gün ərzində aparılan intensiv danışıqlardan bu il martın 10-da Pekində elan olunub.

Yeri gəlmişkən, İran və Səudiyyə Ərəbistanı XİN rəhbərləri ötən həftə də telefonla əlaqə saxlayıblar. Belə ki, Səudiyyə Ərəbistanının İnformasiya Agentliyi (SPA) bu il martın 27-də iki nazir arasında telefon danışığının olduğu və diplomatların müqəddəs Ramazan ayı bitənədək görüşəcəkləri barədə məlumat yayımlamışdı. SPA-nın xəbərində xüsusi qeyd edilirdi ki, görüşün əsas məqsədi iki ölkə arasında diplomatik əlaqələri bərpa etməkdir.

**P.S.** Yazı çapa hazırlanarkən xəbər yayıldı ki, İran İslam Respublikasının birinci vitse-prezidenti Məhəmməd Mohber yaxın günlər ərzində Səudiyyə Ərəbistanına səfər edəcək. "İran Prezidenti İbrahim Rəisi Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Saudun krallığa səfər dəvətini müsbət qarşılayıb və onun səfər təklifi qəbul edilib", – deyə birinci vitse-prezident bildirib.

***"Xalq qəzeti"***

# Moskvada Suriya ilə bağlı dördtərəfli görüş başlayıb

**Dünən Rusiyanın ictimai-siyasi həyatı qaynar hadisələrlə zəngin olub. RF Prezidentinin mətbuat katibi Dmitri Peskov "Rossiya-1" telekanalına bildirib ki, Prezident Vladimir Putin bu həftə Rusiya Təhlükəsizlik Şurasının geniş iclasını keçirəcək. Məlumatı TASS verib.**

Peskov bununla bağlı suala cavabında deyib: "Bəli. Təhlükəsizlik Şurası planlaşdırılıb". O, Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılacaq mövzunun sonra açıqlanacağını bildirib. Qeyd edək ki, Vladimir Putinin sədrliyi ilə Təhlükəsizlik Şurasının dar tərkibdə iclası martın 31-də keçirilib. Bu günlərdə isə Rusiya Prezidenti ölkənin yeni Xarici Siyasət Konsepsiyasını təsdiqləyib. Dünən Moskvada həm də Rusiya, Türkiyə, Suriya və İranın XİN başçılarının müavinləri səviyyəsində görüş başlayıb. Görüşün aprelin 4-də də davam edəcəyi gözlənilir. Bütün nümayəndə heyətləri nazirlər səviyyəsində növbəti görüşü hazırlamaq üçün Moskvada danışıqlara başlayıblar. Məlumatı "Anadolu" verib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Suriya ilə bağlı dialoq Rusiyanın iştirakı və köməkliyi ilə başlayıb. Sonra prosesə İran da qoşulub: "Bu yaxınlarda Misirə səfərim zamanı nazir müavinləri səviyyəsində dördtərəfli görüşün tarixinin dəyişdirildiyini bildirdik. Artıq yeni tarix dəqiqləşib və Moskvada işə başlanılıb".

Bundan əvvəl İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan Rusiyanın xarici işlər naziri Sergey Lavrovla Moskvada apardığı danışıqlardan sonra qeyd etmişdi ki, görüşün əsas məqsədi "Türkiyə və Suriyanın baxışlarının yaxınlaşması" olacaq. Öz növbəsində, Rusiya Federasiyası Prezidentinin Yaxın Şərq və Afrika üzrə xüsusi nümayəndəsi, Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov ümid etdiyini bildirib ki, bu "vasitəçilik missiyası çox mühüm strateji məqsədə – Suriya–Türkiyə münasibətlərinin normallaşmasına yönəlib".

Dünən, eyni zamanda, Rusiyanın Sankt-Peterburq şəhərindəki kafelərdən birində partlayış baş verib. Nəticədə bir nəfər – hərbi jurnalist Valdlen Tatarski həlak olub. Səhiyyə Nazirliyindən verilən məlumata görə, hadisə yerində xəsarət alanların sayı 32 nəfərə çatıb. Onlardan səkkiz nəfərin vəziyyəti ağır, on nəfərin vəziyyəti orta ağırdır. Xəsarət alanların ən kiçiyinin 14, ən yaşlısının isə 72 yaşı var.

Şahidlər bildiriblər ki, Vladlen Tatarskinin əlində ona hədiyyə olunmuş kiçik heykəl partlayıb. Belə ki, tədbir iştirakçılarından biri özünü rəssam Nastya kimi təqdim edərək ona yaxınlaşıb və Tatarskinin büstünü düzəltdiyini, təqdim etmək istədiyini deyib. Bundan sonra qız böyük qutu gətirərək ona verib. Heykəl müxbirin əlində partlayıb.

Hadisə yerinə 13 təcili yardım briqadası cəlb edilib. Zərərçəkənlərə ilkin tibbi yardım göstərilib. Bəzi məlumatlara görə, partlayıcı qurğu məsafədən idarə olunan olub və gipsdə gizlədilib.

Hazırda əlaqədar qurumlar hadisənin baş vermə səbəblərini araşdırırlar. Şahidlərin dediyinə görə, partlayış nəticəsində həlak olmuş hərbi jurnalist Vladlen Tatarski kafedə hərbi müxbir peşəsi haqqında mühazirə oxuyurmuş. Hüquq-mühafizə orqanlarından verilən məlumata görə, kafedə işə düşən partlayıcı qurğunun gücü 200 qram trotildən çox olub.

Dünən günün sonunda aldığımız məlumata görə, Vladlen Tatarskinin qətlində şübhəli bilinən Darya Trepova saxlanılıb. Rusiya Federasiyasının İstintaq Komitəsi Darya Trepovanın saxlanıldığını təsdiq edir.

RF Prezidentinin mətbuat katibi Dmitri Peskov hadisəni terror aktı kimi qiymətləndirib: "Bu, terror aktıdır, biz Milli Antiterror Komitəsinin bəyanatını gördük. Hazırda istintaqın aktiv fazasıdır. Gözləyək". Onun sözlərinə görə, komitə terror aktında Ukraynanın iştirakı ola biləcəyini bəyan edib.

ABŞ-ın Müharibənin Öyrənilməsi İnstitutundan isə bildirilib ki, Rusiya rəsmiləri və təbliğatçıları Tatarskinin qətlində Ukraynanı ittiham etməyə tələsiblər. Tatarskinin "Vaqner" rəhbəri Yevgeni Priqojinin "Strit-bar" kafesində öldürülməsi bu məsələdə Kreml daxilindəki qüvvələrin iştirakını istisna etmir.

Priqojin isə deyib ki, partlayış olan kafeni "Cyber Front Z" vətənpərvərlik hərəkatına verib və onlar orada müxtəlif seminarlar keçiriblər. Faciə də seminarda baş verib: "Daria Duqinanın ölümünə gəlincə, bəli, hər şey oxşardır. Amma mən bu hərəkətlərə görə Kiyev rejimini qınamazdım. Düşünürəm ki, burda bir qrup radikal hərəkət edir".

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən

**Azərbaycan İlahiyyat İnstitutu**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261 s nömrəli sərəncamı ilə təsdiq olunmuş qəbul planı əsasında 2023-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya (əyani və dissertantlıq yolu ilə) qəbul elan edir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya sənədlərin qəbulu elektron qaydada 2023-cü il aprelin 12-dən mayın 16-dək nəzərdə tutulmuşdur.

İnstitutun doktoranturasına sənədlərin qəbulunun "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilməsi nəzərdə tutulmuşdur.

İnstitutun doktoranturasına qəbul olmaq üçün sənədləri təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal. edu.az saytına daxil olaraq, orada "Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və qeydiyyatı" xidmətini seçib təlimatlara uyğun qeydiyyatdan keçə bilərlər.

Əlaqə nömrəsi- +994 12 436 77 66 (daxili: 118; 117).

E-mail: leilasalayeva@ait.edu.az; incibagirli@ait.edu.az .

**"Nərimanov Sənayetikinti" ASC səhmdarlarının nəzərinə!**

18 may 2023-cü il saat 10.30-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin direktorunun hesabatı.

**2.** Cəmiyyətin 2022-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin hesabatlarının müzakirəsi və təsdiqi.

Əlaqə telefonu- 496- 94- 68.

Ünvan- Az 1008, Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 22.

4 Aprel Beynəlxalq İnternet Günüdür

# Virtual aləmin möcüzəsi – insan bilikləri xəzinəsi

**Aprelin 4-ü dünyada Beynəlxalq İnternet Günü kimi qeyd edilir. 2005-ci ildən keçirilən bu bayram insanların həyat səviyyəsinin yüksəlməsinə xidmət edən yeni texnologiyaların imkanlarını nümayiş etdirmək, bu texnologiyalar və onların funksiyaları haqqında daha dərin məlumatları təqdim etmək üçün düşünülmüşdür. "ICTnews" xəbər xidmətinin qeyd etdiyi kimi, bu gün veb-usta (veb-developer, veb-dizayner) və ümumiyyətlə, qlobal internet şəbəkəsi ilə bağlılığı olan hər kəsin bayramıdır.**



İnternet sözü isə ilk dəfə olaraq 1990-cı ildə istifadə olunmağa başlayıb. 1994-cü ildə ilk dəfə olaraq internetdən elektron kommersiya məqsədilə istifadəyə başlanılıb. İnternet bəşər tarixinin ən böyük ixtiralarından biri sayılır. Çağdaş həyatı internet olmadan təsəvvür etmək mümkün deyil. Xatırladaq ki, Vatikan katolik kilsəsi 1998-ci ildə ümumdünya internet şəbəkəsini "insan bilikləri xəzinəsi" adlandırıb.

Getdikcə qloballaşan dünyanın əlaqə şəbəkəsi internet həyatımızın ayrılmaz hissəsidir. O, ötən əsrin 60-cı illərində ABŞ-da yaradılıb və qısa zamanda müstəqil şəbəkələrdən ibarət böyük bir sistemi formalaşdırmaqla dünya dövlətlərini əhatə edib.

Bu günün – aprelin 4-nün (1998-ci il) isə Beynəlxalq İnternet Günü kimi qeyd olunması təsadüfi deyil. Dünya hörümçək torunun hamisi, ilk 20 cildlik ensiklopediyanı tərtib edən məşhur ensiklopedist sevilyalı İsidor 636-cı ilin bu günündə həyatı tərk edib. Həmçinin bu tarixin geniş yayılmış qısa yazılışı (4.04) hər istifadəçisinin rastlaşdığı "HTTP 404" səhvinə uyğundur.

Azərbaycanda internet 1993-cü ildən inkişaf etməyə başlayıb. Ölkəmizdə genişzolaqlı xidmətlərin göstərilməsinə 2006-cı ildən başlanıb və son illərdə istifadəçilərin sayında ciddi sıçrayış müşahidə olunur. Bunun əsas səbəbi ölkədə İKT sahəsinin inkişaf etdirilməsi, elektron hökumət layihələrinin genişlənməsi, çeşidli xidmətlərin göstərilməsi üçün internetdən istifadənin artırılması üzrə həyata keçirilən dövlət siyasətinin uğurla icra edilməsidir. Son illərdə ölkədaxili internet şəbəkəsinin qlobal internet şəbəkəsinə qoşulma sürəti dəfələrlə artırılıb.

Dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının hesabatlarında əksini tapan məlumatlar ölkəmizin son illər bu sahədə böyük nailiyyətlər qazandığını təsdiq edir. Bütün bunlar Azərbaycanda internet infrastrukturunun inkişafının, azadlıqlarının yüksək səviyyədə təmin edilməsinin sübutudur.

**Kibertəhlükəsizlik üzrə ekspert, Fərid Pərdəşünas bildirdi:**




– Azərbaycanda internet təkmilləşmə prosesindədir və onlayn Azərbaycan layihəsi çərçivəsində regionlarda, həmçinin internetin əlçatmaz olduğu yerlərdə GPON texnologiyası vasitəsilə internet xətləri çəkilir. Ölkədə internetin daha da inkişafı üçün təməl infrastruktur yaradılmalıdır. Biz hələ ki, o təməl şərtlər mərhələsindəyik. Son aylarda onlayn Azərbaycan layihəsində müşahidə olunur ki, bu sahədə ciddi işlər görülür. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi görülən işləri daha da təkmilləşdirir. "Hökumət buludu" yaradılıb, bütün dövlət qurumlarının rəqəmsal həlləri təklif olunub. Yəni, hər kəs onlayn qaydada internet üzərindən bütün işlərini görə bilir.

İnternet istifadəsi kütləviləşir, bank sistemi rəqəmsal bankçılığa doğru gedir. İnternetdən istifadədə kibertəhlükəsizlik məsələləri xüsusi əhəmiyyət kəsb edir. Son zamanlar insanlar internetdən rahatlıqla istifadə edib, bütün işlərini görə bilsələr də təhlükəsizliklə bağlı müəyyən məsələlərə diqqət yetirmirlər. Buna görə də, internetin kütləvi istifadəsində yaranan problemlər diqqətdə saxlanmalıdır.

Bu problemlər nədən ibarətdir? Birincisi, ağıllı internet istifadəsi, sonra isə rəqəmsal kiberdələduzluq problemləridir ki, bu zaman kiberdələduzluğu həyata keçirmək istəyən insanlar üçün bazar yaranır. Yəni, uşaqlardan tutmuş, yaşlılara qədər hamı internetlə təmasda olsa da, əksəriyyət tam olaraq istifadə qaydalarını bilmədiyindən, öz məlumatlarını üçüncü tərəfə rahatlıqla ötürür. Nəticədə isə kifayət qədər kiber dələduzluq halları müşahidə olunur. Bankların pulların, vətəndaşların şəxsi məlumatlarının oğurlanmasını misal çəkə bilərəm. Bu sahədə maarifləndirməyə ciddi tələbat var. İnsanlara internetdən, sosial şəbəkələrdən doğru istifadə etmək qaydası aşılanmalıdır.

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

## İDMAN XƏBƏRLƏRİ

### BEYNƏLXALQ TURNİRDƏ UĞURLU NƏTİCƏ



**Azərbaycan Gimnastika Federasiyasının məlumatına görə, həftəsonu bədii gimnastlarımız uğurlu çıxışları ilə yadda qalıblar. Belə ki, bədii gimnastika üzrə Azərbaycan yığma komandasının üzvləri Leyli Ağazadə, Alina Məmmədova və Mədinə Dəmirova 31 mart – 3 aprel tarixlərində Bosniya və Hersoqovinanın paytaxtı Sarayevo şəhərində keçirilən "Suada Dilberoviç" beynəlxalq turnirində uğurlu çıxışları ilə yadda qalıblar.**

İdmançılarımız turnirdə 15 medal (5 qızıl, 5 gümüş, 5 bürünc) qazanıblar.

Millimizin üzvləri Alina Məmmədova üç qızıl (çoxnövçülük, halqa, top), bir gümüş (lent), bir bürünc (gürzlər), Leyli Ağazadə iki qızıl (gürzlər, lent), iki gümüş (çoxnövçülük, halqa), bir bürünc (top), Mədinə Dəmirova isə iki gümüş (top, gürzlər) və üç bürünc (çoxnövçülük, lent, halqa) medala sahib çıxıblar.

### İNSBRUKDA BİR QIZIL, BİR BÜRÜNC

**Taekvondo üzrə İnsbrukda keçirilən açıq Avstriya çempionatı başa çatıb. Azərbaycan millisi G1 kateqoriyalı beynəlxalq yarışı 1 qızıl və 1 bürünc medalla başa vurub.**



Böyük məşqçi Elnur Amanovun rəhbərliyi altında çempionatda çıxış edən yığmamızın heyətində Cavad Ağayev (74 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 1/32 finaldan mübarizəyə başlayan dünya çempionatının mükafatçısı ardıcıl olaraq Ukrayna, Almaniya, Xorvatiya və Qazaxıstan idmançılarını məğlub edərək finala yüksəlib. O, həlledici görüşdə də qazaxıstanlı taekvondoçuya qalib gələrək, Avstriyada Azərbaycan himnini səsləndirib.

Komandamızın aktivinə digər mükafatı Taleh Süleymanov (87 kq) yazdırıb. Reytinqinə görə ilk mərhələdən azad olan idmançı mübarizəyə 1/8 finalda Polşa təmsilçisi ilə başlayıb. İnamlı qələbə qazanan Süleymanov daha sonra Qazaxıstan idmançısından da güclü olub. O, yarımfinalda xorvatiyalı taekvondoçu ilə döyüşüb və rəqib qələbə qazandığından Taleh bürünc medala sahib olub.

Qeyd edək ki, komandamız Bakıya bu gün qayıdacaq.

### QILINCOYNATMADA TARİXİ NAİLİYYƏT

**Qılıncoynatmanın sablya növündə yeniyetmə idmançımız Zərifə Hüseynova Bolqarıstanın Plovdiv şəhərində keçirilən yeniyetmə və gənclərin dünya çempionatında gümüş medal qazanıb.**



Qrup mərhələsini 5 qələbə ilə bitirən Zərifə Hüseynova yarımfinala gedən yolda Bolqarıstan, Koreya Respublikası, İtaliya və Macarıstanı təmsil edən sablyaçılara qalib gələrək ən güclü dördlüyə yüksəlib.

İdmançımız yarımfinalda ABŞ sablyaçısı Jenna Şomana 15:13 hesabı ilə qalib gəlib. Finalda Macarıstan qılıncoynadanı Emese Domonkosla qarşılaşan Zərifə Hüseynova rəqibinə 12:15 hesabı ilə uduzaraq dünya çempionatının gümüş medalını qazanıb. İdmançımız bununla da Azərbaycan qılıncoynatma tarixində ilkə imza atıb.

Xatırladaq ki, Zərifə Hüseynova daha öncə 2021-ci ildə Misirin paytaxtı Qahirədə keçirilən dünya çempionatında bürünc medal qazanıb.

### İTALİYADA QIZIL MEDAL

**Akademik avarçəkmə üzrə Azərbaycan yığma komandasının üzvü Diana Dımçenko daha bir beynəlxalq reqatada qızıl medal qazanıb. İdmançımız bu uğura 31 mart – 2 aprel tarixlərində İtaliyada təşkil edilən "Paolo d'Aloja" memorialında imza atıb.**



İtaliya Avarçəkmə Federasiyasının keçmiş prezidentinin xatirəsinə həsr edilən və sayca 37-ci dəfə keçirilən beynəlxalq reqatada Diana bir nəfərlik qayıqla 2000 metr məsafəyə təsnifat mərhələsində 3-cü olub və finala vəsiqə qazanıb. Olduqca gərgin keçən final yürüşündə isə idmançımız ən yaxın izləyicisi serbiyalı Yovana Arsiki 1,05 saniyə geridə qoymaqla qızıl medala layiq görülüb.

Finişə 3-cü çatan Özbəkistan təmsilçisi, Tokio-2020 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Anna Prakateni isə gümüş medaldan cəmi 1,3 saniyə ayırıb.

**Elçin AĞAMİRZƏ,**
**"Xalq qəzeti"**

## HAVA PROQNOZU

**Aprelin 4-də**

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Cənub küləyi əsəcək. Gecə 5-8°, gündüz 13-16° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 2-7° isti, dağlıq ərazilərdə 2°-dək şaxta, gündüz 13-18° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 0-5°, gündüz 5-10° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 0-5° , gündüz 6-11° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 2-7°, gündüz 13-18° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam yüksək dağlıq ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 1-6° , gündüz 12-17° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti olacaq.

✓ **Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-7° , gündüz 14-19° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 3-6°, gündüz 11-16°, dağlarda gecə 3-5°, gündüz 7-10° isti olacaq.

# Azərbaycan badmintonunda ilk

**Böyük idmanda qazanılan uğurların təməlində uşaq idmanında əldə edilən nailiyyətlər dayanır. Bu baxımdan badmintonun inkişaf perspektivlərini xüsusi qeyd etmək lazımdır. Elə bugünlərdə də müxtəlif yaş qruplarında badmintonçularımız daha bir uğurla gündəmə gəliblər. Belə ki, komandamız İsrailin Rişon-le-Sion şəhərində keçirilən beynəlxalq "PACK LINE Israel Youth 2023" turnirində 5 medala sahib olub.**



Turnirdə ən yüksək nəticə Leyla Camalzadəyə məxsusdur. İstedadlı badmintonçu 15 yaşadək idmançıların şəxsi, qoşa və qarışıq qoşa yarışlarında rəqib tanımayaraq mütləq çempion olub. O, bununla Azərbaycan badminton tarixində ilkə imza atıb. Leyla ötən il Serbiyada keçirilən beynəlxalq "Youth International" turnirində də fəxri kürsüdə yer alıb. Badmintonçu şəxsi yarışda qrup mərhələsində keçirdiyi bütün görüşləri qələbə ilə başa vurduqdan sonra pley-offda da fərqlənib. Yarımfinal və final qarşılaşmalarını qalib başa vuran L.Camalzadə qızların şəxsi kateqoriyasında ən güclü idmançı adına layiq görülüb. Leyla Camalzadə və onun komanda yoldaşı Qəndab Niftəlizadə 15 yaşadək qız badmintonçuların qoşa yarışında da uğurla təmsil olunublar. Belə ki, dairəvi sistem üzrə keçirilən bu kateqoriyada mütləq nəticə göstərib, qrupda birinci yeri tutublar.

Azərbaycan təmsilçiləri 15 yaşadək badmintonçuların qarışıq qoşa yarışlarında da yüksək nəticə göstəriblər. Əli Gözəlov–Leyla Camalzadə tandemi ardıcıl qələbələr sayəsində fəxri kürsünün ilk pilləsinə qalxıblar.

Komandamızın aktivinə daha bir qızıl medalı 13 yaşadək qız badmintonçuların şəxsi turnirində Qəndab Niftəlizadə əlavə edib. Bu yaş qrupunda qarışıq qoşa yarışında isə Fərəc Kərimli və Qəndab Niftəlizadə ikinci yeri tutublar.

Qeyd edək ki, yığma komandamız turnir ərəfəsində İsrailin Aşdod şəhərində məşqçi Yevgen Poçtarovun rəhbəriyi altında təlim-məşq toplanışında iştirak edərək hazırlığını artırıb.

Azərbaycanda uşaq və yeniyetmələr arasında badmintonun inkişafını diqqətdə saxlayan Azərbaycan Badminton Federasiyası bu idman növündə dünyanın aparıcı ölkələrin inkişaf modelindən bundan sonra da yararlanmaq və həmin ölkələrin idmançıları ilə birgə təlim-məşq toplanışları təşkil etmək niyyətindədir.

***L.QURBANOVA,***
***"Xalq qəzeti"***

# NASA-dan Günəş qalxanı

**Günəşdə baş verən partlayışlar nəticəsində meydana gələn fırtınalar Yer kürəsinə mənfi təsir göstərir. NASA alimləri bu fırtınaları əvvəlcədən aşkar etmək üçün süni intellektdən istifadə edəcəyini açıqlayıb. Məlumatı "foxnews.com" saytı verib.**

NASA tərəfindən hazırlanan yeni model "Dagger" (Deep Learning Geomagnetic Perturbation) adlanır. Onun vasitəsilə Günəş fırtınasının Yer kürəsini harada vuracağını 30 dəqiqə öncədən proqnozlaşdırmaq mümkündür. Alimlərin fikrincə, fırtınalara hazırlaşmaq və elektrik şəbəkələrinə, kritik infrastrukturlara ciddi təsirlərin qarşısını almaq üçün bu müddət kifayət edir.

Həmçinin bu yeni süni intellekt modeli Günəşdə baş vermiş iki geomaqnit qasırğa zamanı sınaqdan keçirilib. Hər iki halda "Dagger" fırtınanın dünyaya təsirini tez və dəqiq proqnozlaşdırıb. Qeyd edək ki, bu modeldən digər kosmik şirkətlərin də istifadə edə biləcəyi açıqlanıb.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin psixologiya kafedrasının dosenti Ceyhun Alıyevə anası

**ƏSİYƏ ALIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4845
SİFARİŞ 816
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00